# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ ARAŞDIRMALAR

## TEZİSLƏR TOPLUSU

# COLLECTION OF THESES ON SCIENTIFIC RESEARCH

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 2.255**

---

# ELMİ ARAŞDIRMALAR

**Tezislər toplusu**

**Cild: 3 Sayı: 2**

DOI: https://doi.org/10.36719/2023/3/2

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 2.255**

---

**Collection of theses**

# SCIENTIFIC RESEARCH

**Volume: 3 Issue: 2**

**Bakı – Baku**
**2023**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

———————————

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**e-mail**
tezis.aem@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10. 36719**

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçisi**

**Tədqiqatçı Gülnar ƏLİYEVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
gulnar.musayeva1982@gmail.com

**ÜZVLƏR**

**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva

**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Editor**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

**Assistant editor**

**Researcher Gulnar ALIYEVA**, Azerbaijan Science Center / Azerbaijan
gulnar.musayeva1982@gmail.com

**MEMBERS**

**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANI**, The University of Texas at Tyler / USA
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Firat University / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University, Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Dashgin GANBAROV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Selcuk University / Turkey
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 7-9
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 7-9
DOI: https://doi.org/10.36719/2023/3/2

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Səlbinə Hətəmli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
salbinahatamli@gmail.com

## TƏHSİLİN İDARƏ OLUNMASININ ƏSASLARI

***Açar sözlər:*** *təhsil, idarəetmə, ali təhsil, prinsiplər, əsaslar*
***Keywords:*** *education, management, higher education, principles, fundamentals*

Günümüzdə təhsilin mahiyyəti ilə bağlı saysız-hesabsız fikirlər mövcuddur. Təhsil öyrənmə və öyrətmə sistemidir ki, şəxslərin mümkün olduğu qədər sosiallaşmalarını və inkişaf etmələrini qarşıya məqsəd kimi qoyur. Təhsil yalnızca yaxşı qiymətlər almaq və imtahanlardan uğurla keçmək demək deyil. Təhsil insanın düşünmə bacarıqlarına daimi və müsbət dəyişiklik gətirir və müəyyən sahələri mənimsəməklə nəyin doğru, nəyin yanlış olduğunu fərqləndirməyə köməklik edir. Müasir təhsil prosesi sadəcə ayrı-ayrılıqda şəxslərin deyil, həmçinin ictimai mühitin bütövlüyünü qoruyaraq sosial və ekonomik inkişafını təmin edir. O, yalnızca millətin və cəmiyyətin deyil, dünyanın tarixi-mədəni dəyərlərinin formalaşmasına əsas vasitəçi rolunu oynayır.

Təhsildə keyfiyyəti artırmaq və onu inkişaf edən dünyaya uyğun yararlı vəziyyətə gətirmək üçün onu necə idarə etməyi bilmək lazımdır. Müasir təhsilin inkişafını təmin etmək üçün ölkəmizdə də təhsilin idarə edilməsi üzrə yetişmiş kadrlara ehtiyac vardır. Təhsilin təşkili və idarə edilməsi pedaqogika,

psixologiya, sosiologiya, fəlsəfə kimi sahələrin əlaqələndirilmiş fəaliyyəti şəkilində baş tutmuş bir elmi sahəsi və ixtisasıdır (Abbasov, 2016). Bu elmi sahəyə yiyələnənlər təhsil müəssisələrində idarəçi vəzifəsində çalışır və ya idarəetmə elminin əsas prinsiplərini tətbiq edərək onu araşdırır və onu ali məktəblərdə tədris edirlər. Təhsilin idarə edilməsinin əsas funksiyalarına təhsil siyasətini inkişaf etdirmək, tədqiqat aparmaq və təhsil sistemini ali təhsil səviyyəsində zənginləşdirmək və yüksəltmək üçün lazımi həll yollarını qiymətləndirib inkişaf etdirmək daxildir. Aydındır ki, son illərdə Azərbaycanda bu sahə üzrə bir neçə univeristetdə magistartura programı öz tələbələrini yetişdirir. Ancaq hələ də təhsil menecmenti üzrə ölkədə kadr çatışmazlığı yaşanır. Təhsilin idarə olunması, təşkilinin əsaslarını və yaxud prinsiplərini bir neçə ədəbiyyatlara istinad edərək ümumiləşdirmək olar:

- Təhsilin idarəedilməsində planlılıq, sistemlilik və kompleslik;
- Təhsilin idarəedilməsində dövlətin əsas prinsiplərinin gözlənilməsi;
- Təhsilin idarəedilməsində elmilik və aşkarlıq;
- Təhsilin idarəedilməsində demokratikləşdirmə və humanistləşdirmə;
- Təhsilin idarəedilməsində kollegiallıqla vahid rəhbərliyin əməkdaşlığı;
- Təhsilin idarəedilməsində nəzəriyyə və praktikanın qarşılıqlı vəhdəti;
- Təhsilin idarəedilməsində dünyada baş verən qloballaşmanın və bəşəri dəyərlərin nəzərə alınması;
- Təhsilin idarəedilməsində dövlət və ictimai əsasların qorunub əlaqələndirilməsi;

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 7-9
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 7-9
DOI: https://doi.org/10.36719/2023/3/2

- Təhsilin idarəedilməsində səmərəliliyə, düzgün qiymətləndirməyə və yekun nəticəyə nail olmaq meyli və s. (Quliyev, 2006).

Yuxarıda qeyd olunan prinsiplər əsas götürülərək tətbiq edildiyi zaman cəmiyyətin hər sahəsində inkişaf görmək olar. Çünki cəmiyyətin hər bir sahəsində təhsil uğura aparan yeganə yoldur. Azərbaycan ali təhsil müəssisələrində bu sahə yeni olsa da, gələcəkdə daha da inkişaf edərək oz töfhələrini verəcəyinə inanırıq.

## Ədəbiyyat

1. Abbasov, O. (2016). Təhsilin idarə olunması. Bakı.
2. Quliyev, T. (2006). Menecmentin (idarəetmənin) əsasları. Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 10-12
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 10-12
DOI: https://doi.org/10.36719/2023/3/2

**Maral Gasimova**
Azerbaijan State Agrarian University
maralqasimova29@gmail.com
**Vafa Mukhtarova**
Azerbaijan State Agrarian University
i.vafa91@gmail.com

# METAPHOR IN LANGUAGE STYLE

***Keywords:*** *metaphor, language, scientific style, scientific text, style-forming factors*
***Açar sözlər:*** *metafora, dil, elmi üslub, elmi mətn, üslub yaradan amillər*

Metaphor in modern linguistics in recent decades is one of the most relevant and actively researched areas. This is undoubtedly due to the fact that the very paradigm of the scientific knowledge of linguistics has changed significantly. Rigid structuralism, with its attention to the structure and structure of language, has been replaced by an anthropocentric understanding of language, which puts a person, a native speaker, at the center of the science of language, defining it as the measure of all things.

Language for a person is not only a means of communication, but also a means of knowing reality, a system for encoding and storing the information received, a way of transmitting this information to subsequent generations. Since cognition occurs on the basis of comparing the new with the already known, the abstract with the concrete, etc., one of the tools for cognizing and coding new information in the language is a metaphor. In modern society, scientific texts serve as a repository of scientific knowledge, a means of its transmission. Quite reasonably, the question arises of what is

DOI: https://doi.org/10.36719/2023/3/2

the role of metaphor in the texts of the scientific style (Punter, 2007).

The scientific style is one of the functional styles of the language, along with everyday-literary, newspaper-political, industrial-technical, official-business styles. Functional style is defined as a kind of literary language in which the language appears in one or another socially significant area of people's social and speech practice and the features of which are determined by the peculiarities of communication in this area. Important style-forming factors include forms of social consciousness, social relations, various activities, as well as the author of the speech, the addressee, the subject and goals of communication, etc. The scientific style represents the scientific sphere of communication and speech activity associated with the implementation of science as a form of social consciousness; reflects theoretical thinking, acting in a conceptual and logical form, which is characterized by objectivity and abstraction from the concrete and random, logical evidence and consistency, presentation.

Any scientific text is the result of scientific knowledge. The process of cognition is always based on existing knowledge, which the scientist in the act of scientific creativity transforms in accordance with his views, beliefs and hypotheses. “Creativity in general and scientific creativity in particular is essentially connected with the search for mechanisms for correlating old, previously existing, and newly emerging fragments of knowledge” (Barker, 2000). Cognition moves from the old to the new, from the concrete to the abstract, etc., its results must be objectively and accurately recorded, which is practically impossible to do only on the basis of human senses. In addition, the results of cognition must be understandable and accessible to the addressee, which means that they must be verbalized in such a way that a

fragment of experience known to the addressee is present in the semantic structure of the new term.

In conclusion, we can conclude that:

1. metaphor is an integral part of scientific style texts and terminological systems of science;
2. it acts as a tool for enriching the language of science;
3. almost all types of metaphor and metaphorical transfer;
4. evaluative and expressive metaphors are completely absent in scientific texts;
5. figurative metaphors are used to convey scientific information in a more accessible and easy to understand form;
6. metaphor serves as a vector for the further development of scientific knowledge (The Oxford Companion to The English Language, 2018).

## References

1. Punter, D. (2007). Metaphor. London, Routledge.
2. Barker, P. (2000). "Working with the metaphor of life and death". Medical Humanities. 26 (2): 97–102. doi:10.1136/mh.26.2.97
3. The Oxford Companion to The English Language, 2nd Edition (e-book). (2018). Oxford University Press. ISBN 978-0-19-107387-8.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 13-16
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 13-16
DOI: https://doi.org/10.36719/2023/3/2

**Simnar Pashazade**
ANAS Institute of Economics
Ph.D student
simnarpasazade@gmail.com

# THE BENEFITS OF IMPLEMENTATION OF INTERNATIONAL FINANCIAL REPORTING STANDARDS (IFRS) ON ATTRACTING FOREIGN CAPITAL

***Keywords:*** *IFRS, financing, foreign investment, financial reporting, comparability*
***Açar sözlər:*** *MHBS, maliyyələşdirmə, xarici investisiya, maliyyə hesabatı, müqayisəlilik*

One of the primary concerns for businesses today is attracting foreign capital. Companies need to maintain a steady flow of funds to finance their operations and expansion plans. In recent years, international financial reporting standards (IFRS) have been widely implemented across the world to improve transparency and comparability in financial reporting. This article aims to explore the benefits of IFRS adoption on attracting foreign capital (1).

Several studies have explored the relationship between IFRS adoption and attracting foreign capital. According to a study by H. Daske, firms that adopt IFRS experience an increase in foreign ownership, suggesting that investors are more likely to invest in companies that follow IFRS (Daske, Hail, Leuz, Verdi, 2013: 51). Similarly, M. Cheng found that IFRS adoption positively affects foreign investment in emerging markets. (Journal of International Accounting Research, 2014: 13). Additionally M. Barth found a positive

DOI: https://doi.org/10.36719/2023/3/2

relationship between IFRS adoption and foreign investment in developed countries (Barth, Landsman, Lang, 2008: 46).

Moreover, IFRS adoption improves the comparability and transparency of financial statements, which is essential for foreign investors in making informed investment decisions (Alzoubi, 2011: 5). The adoption of IFRS also aligns the financial reporting standards of a country with international standards, which enhances the credibility of a country's financial reporting system (Ding, Su, 2015: 34).

The adoption of IFRS can provide several benefits to companies in attracting foreign capital. Firstly, IFRS adoption increases the comparability and transparency of financial statements, which is important for foreign investors in making informed investment decisions. By following a uniform set of accounting standards, companies can improve the comparability of their financial statements, which enables investors to better understand the financial performance of a company and make more informed investment decisions (Feng, Li, Mc.Vay, 2009: 48).

Secondly, IFRS adoption enhances the credibility of a company's financial reporting system. International investors prefer to invest in countries that follow international accounting standards as it increases their confidence in the accuracy and reliability of the financial statements (Leuz, 2003: 41). The adoption of IFRS aligns the financial reporting standards of a country with international standards, which enhances the credibility of a country's financial reporting system.

Thirdly, IFRS adoption increases the global reach of a company. By following IFRS, companies can attract a wider pool of international investors who are familiar with the accounting standards (Cheng, Green, Ma, 2014: 13). Moreover, companies that follow IFRS can more easily enter into

international capital markets, as they can satisfy the financial reporting requirements of multiple jurisdictions.

Another benefit of implementing IFRS is that it leads to better decision-making by investors. Investors need reliable financial information to make informed investment decisions. With the implementation of IFRS, financial information becomes more comparable and transparent, allowing investors to make better decisions. This can result in increased foreign investment as investors gain confidence in the financial information provided by companies.

Last but not least, implementing IFRS can also improve the reputation and credibility of a company. The use of a globally recognized financial reporting standard can enhance the reputation of a company and signal to investors that the company is committed to providing reliable and transparent financial information. This can be particularly important for companies seeking to attract foreign investment, as a strong reputation and credibility can make the company more attractive to foreign investors (Chung, Zhang, 2018).

In conclusion, the implementation of International Financial Reporting Standards (IFRS) can have significant benefits for companies seeking to attract foreign capital. By improving financial reporting quality, increasing investor confidence, reducing the cost of capital, and enhancing reputation and credibility, companies can become more attractive to foreign investors. It is important for companies to consider these benefits when deciding whether to implement IFRS, particularly if they are seeking to attract foreign investment. The global adoption of IFRS has been increasing over the years, and it is likely that this trend will continue as more countries recognize the benefits of using a globally recognized financial reporting standard.

## References

1. International Accounting Standards Board. About the International Accounting Standards Board (IASB). Retrieved from https://www.ifrs.org/about-us/about-the-iasb/
2. Daske, H., Hail, L., Leuz, C., & Verdi, R.S. (2013). Adopting a label: Heterogeneity in the economic consequences around IAS/IFRS adoptions. Journal of Accounting Research, 51(3), p.495-547.
3. Barth, M.E., Landsman, W.R., & Lang, M.H. (2008). nternational accounting standards and accounting quality. Journal of accounting research, 46(3), p.467-498.
4. Alzoubi, E.S. (2011). The impact of IFRS on foreign direct investment. International Journal of Economics, Commerce and Management, 5(7) , p.110-125.
5. Ding, Y., & Su, L. (2015). Does IFRS convergence affect foreign direct investment? Journal of Accounting and Public Policy, 34(4), p.371-389.
6. Feng, M., Li, C., & McVay, S.E. (2009). Internal control and management guidance. Journal of Accounting and Economics, 48(2-3), p.190-209.
7. Leuz, C. (2003). IAS versus US GAAP: information asymmetry-based evidence from Germany's new market. Journal of Accounting Research, 41(3), p.445-472.
8. Cheng, M., Green, W.J., & Ma, Y. (2014). International financial reporting standards adoption and foreign direct investment. Journal of International Accounting Research, 13(2), p.1-24.
9. Chung, R., & Zhang, G. (2018). Does IFRS convergence attract foreign investment? Evidence from China. Pacific-Basin Finance Journal, 47, p.78-93.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 17-19
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 17-19
DOI: https://doi.org/10.36719/2023/3/2

**Elvira Yusifova**
Bakı Dövlət Universiteti
doktorant
yusifovaelvira@mail.ru

# VƏTƏNDAŞLARIN MÜSTƏSNA HÜQUQU OLAN QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ HÜQUQUNUN HƏYATA KEÇİRİLMƏSİ

***Açar sözlər:*** *vətəndaşların hüquqları, qanunvericilik təşəbbüsü, Konstitusiya hüquqları, qanunvericilik, ictimai təşəbbüs*

***Keywords:*** *citizens' rights, legislative initiative, constitutional rights, legislation, public initiative*

Hər hansı bir demokratik dövlətdə Konstitusiya hüquq sisteminin əsasını təşkil edir, cəmiyyətdə siyasi sabitliyin, bəzi hallarda isə siyasi stabilliyinin qarantı kimi çıxış edir. Konstitusiya ölkədə cəmiyyət və dövlət arasında mühüm ictimai münasibətləri tənzimləyən, siyasi sistemin təşkili prinsiplərini, fəaliyyət konsepsiyasını, dövlətin gələcək inkişafını və bütövlükdə prioritetlərini müəyyən edən ən yüksək hüquqi qüvvəyə malik qanundur.

Hər bir xalqın, o cümlədən beynəlxalq hüququn universal normaları əsasında sabit və dayanıqlı inkişaf yolunu formalaşdıran ən yüksək sənəd olan Konstitusiya, eyni zamanda demokratik dəyərlərə, insanın əsas hüquq və azadlıqlarına münasibəti əhatə edir.

Zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı ötən əsrin sonunda müstəqilliyini bərpa edərək referendum yolu ilə dövlətçiliyin mühüm atributunu – Konstitusiyanı qəbul etmişdir. İnsan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiyada təsbit edilməsi, Azərbaycan Respublikası

vətəndaşlarının dövlətin ali məqsədi kimi layiqli həyat səviyyəsinin təmin edilməsi, xalqın və hər bir vətəndaşın rifah halının yüksəldilməsinin xüsusi vurğulanması müstəsna əhəmiyyətə malikdir. Əsas qanunda ölkənin ərazi bütövlüyünün qorunması, hakimiyyət bölgüsü prinsipinə ciddi riayət olunması, daxili məsələlərdə dövlət hakimiyyətinin yalnız qanunla, xarici məsələlərdə isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdırılması, siyasi sistemin plüralizminin təmin edilməsi kimi mühüm ideya və normalar da təsbit olunub.

Həmçinin 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Konstitusiyamıza 18 mart 2009-cu ildə keçirilmiş Konstitusiya dəyişikliklərinə dair Referendumda 96 maddəsinə seçki hüququna malik 40 min Azərbaycan vətəndaşının qanunvericilik təşəbbüsü hüququ daxil edilmişdir. 22 oktyabr 2019-cu il tarixli "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanunla həmin prosesin mərhələləri təsbit edilmişdir.

Qnundan görünür ki qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupunun yaradılması və qeydiyyatı ilə bağlı qaydalar da əhəmiyyətli dərəcədə çətindir. Belə ki, layihədə təşəbbüs qrupunun yaradılması üçün ən azı 300 nəfərin olması və üzvlərin hər biri haqqında məlumatlar, təşəbbüs qrupunun sədri ilə yanaşı, sədr müavinlərinin, habelə 60 seçki dairəsinin ərazisini əhatə etməli və hər seçki dairəsinin ərazisindən ən azı 500 imza toplanması nəzərdə tutulur.

Vətəndaşların qanunvericilik təşəbbüsü bir neçə mənada nəzərdən keçirilə bilər. Hüquq ədəbiyyatında xalq təşəbbüsünün birbaşa demokratiyanın bir forması və ya institutu olması ilə bağlı vahid fikir yoxdur.

G.N.Chebotarev, K.A.İvanova hesab edirlər ki, qanunvericilik təşəbbüsü birbaşa demokratiyanın bir

DOI: https://doi.org/10.36719/2023/3/2

formasıdır. Ancaq əksər alimlər belə bir təşəbbüsü birbaşa demokratiya institutu olaraq təyin edirlər.

Dövlət hakimiyyətinin həyata keçirilməsinin bu və ya digər üsulunu bu formaya aid etmək üçün onun hüquqi təminatı tarixində, habelə dövlət hakimiyyətinin subyekti − xalq arasında tələbatın əhəmiyyətli bir mərhələsini ayırmaq lazımdır. Qanunvericilik təşəbbüsü institutu ilə əlaqədar olaraq, Azərbaycan Respublikasında vətəndaşların təşəbbüsü ilə Milli Məclisə təqdim olunan qanun layihələri praktik olaraq yoxdur. Bundan əlavə, hesab edirik ki, vətəndaşların qanunvericilik təşəbbüsü birbaşa və təmsilçi demokratiyanın qarışıq institutu deyil, birbaşa demokratiya institutu kimi qəbul edilə bilər. Vətəndaşların qanunverici təşəbbüsü qanun layihəsinin nümayəndəlik orqanına təqdim edilməsi ilə başa çatır.

Vətəndaşların qanunvericilik təşəbbüsü hüququnun konsolidasiyası qanunvericilik prosesinin demokratikləşməsində mühüm addımdır və onun parlaq təzahürü, xalqın sərbəst formada öz iradəsini və normativ fikirlərini ifadə etməklə həyata keçirmək imkanının yaradılmasıdır.

Aparılan araşdırmalara əsasən vətəndaşların qanunvericilik təşəbbüsünün birbaşa demokratiya institutu kimi nəzərdən keçirməyi mümkün hesab edirik. Vətəndaşların qanun layihələrinin hazırlanması və tətbiqi ilə dövlət və cəmiyyət işlərinin idarə edilməsində iştirak etmək hüququnun həyata keçirilməsinin səmərəliliyini artırmaq üçün vətəndaşların qanun yaratma təşəbbüsü qaydasını tənzimləyən qanunvericiliyi təkmilləşdirmək lazımdır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 20-23
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 20-23
DOI: https://doi.org/10.36719/2023/3/2

**Nübubət Adıgözəlova**
Gəncə Dövlət Universiteti
adigozelovanububet@gmail.com
**Samirə Qurbanova**
Gəncə Dövlət Universiteti
doktorant
alvina0710@gmail.com

# UİLYAM ŞEKSPİR VƏ ONUN İNGİLİS DİLİNDƏ YARATDIĞI NEOLOGİZMLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *neologizmlər, affiksasiya, morfoloji yolla söz əmələ gəlməsi, konversiya, sintaktik yolla söz əmələ gəlməsi*
***Keywords:*** *neologisms, affixation, morphological word formation, conversion, syntactic word formation*

Əsrlər boyu Şekspir linqvistik dil yaradıcılığın simvoluna çevrilmişdir. Onun yazı üslubu, əsərlərdəki cümlələrin qrammatik quruluşu, eləcə də lüğət bazası müasir ingilis dilinin fundamenti hesab olunur. Etiraf etmək lazımdır ki, onun ingilis dilinə töhfələri, yaratdığı neologizmlər ingilis dilinin zənginləşdirilməsinin əsas mənbələridir.

İlk olaraq, onun neologizmləri iki müstəqil işlənilə bilən sözlərin birləşərək bir mürəkkəb sözün yaranmasından ibarət idi. Bundan əlavə olaraq, yazıçı sözlərə sözönü şəkilçilər və prefikslər əlavə edərək sözlər düzəldib. Onun əsərlərini araşdıran zaman yeni söz yaratmağın məhsuldar yolu kimi isimlərin feilə çevrilməsini, feilin sifətə çevrilməsini qeyd etmək olar (Bryan, 1982).

Şekspirin ingilis dilinə verdiyi töhfələrin əsas məlumat mənbəyi Samuel Johnson tərəfindən 1878-ci ildə tərtib edilmiş "A dictionary of English language" adlı ingilis dili lüğətidir.

DOI: https://doi.org/10.36719/2023/3/2

Ümumiyyətlə, yazıçı öz pyes, dram əsərləri və şeirlərində 20.000-dən çox sözdən istifadə etmiş və ingilis dilində 1700-dən çox söz və frazeloji birləşməni ilk istifadə edərək, dilin lüğət tərkibini zənginləşdirmişdir. Sözlərin asan, anlaşılan olması sadə insanlar tərəfindən tez qəbul edilməsinin həlledici səbəbi kimi göstərilə bilər (Johnson, 1878). İnsanlar onları çətinlik çəkmədən başa düşdükdən sonra gündəlik nitqdə istifadə edərək yazıçının əsərlərinin də populyarlaşmasına səbəb olmuşdur. Qeyd olunan mülahizələri Şekspirşünas alimlər Charles Cavden Clark və Mary Cavden Clark da araşdırmış və sözlərin şifahi nitqdə də işlədilməsini bildirmişlər (Clarke, 1878).

Yazıçının əsərlərində sözdüzəldici məhsuldar şəkilçilərdən biri də *-tion* şəkilçisidir ki, bu şəkilçinin köməyi ilə Şekspir isimlərin əksəriyyətini yaradıb. Kraliça Elizabetin dövründə “addict” sözünün feil forması xalqa məlum idi. Böyük yenilikçi müasir ingilis dilində həm yazılı, həm də şifahi nitqdə tez-tez istifadə olunan “addiction” isim formasını yaratmışdır. Aşağıdakı nümunəyə fikir verək:

Since his *addiction* was to courses vain,

His hours fill’d up with riots, banquets, sports (Act I, Scene I, King Henry the fifth, Canterbury).

Yuxarıda qeyd etdiyimiz affiksin yaratdığı başqa bir neologizm “accomadition” sözüdür. Hətta yerli dil istifadəçilərin əksəriyyəti bu sözün mənşəyini və müəllifini bilmir. “Otello” faciəsindəki bu sözü baş qəhrəmanın nitqində rast gələ bilərik:

With such *accomodation* and besort

As levels with her breeding (Act I, Scene III, Othello, Othello).

*-ment* şəkilçisi ilə düzəldilən sözlər hələ də ümumi nitqdə işlənir və müasir ingilis dilinə aid olduğu açıq-aşkar görünür. “Amazement” sözü buna misal ola bilər. Sözün ifadəliliyi

DOI: https://doi.org/10.36719/2023/3/2

müvafiq olaraq kontekstdən və cümlələrin digər üzvlərindən asılıdır:

They did so, to the *amazement* of mine eyes

That look'd upon't (Act II, Scene IV, Macbeth, Roth).

Put not yourself into amazement how these things should be: all difficulties are but easy when they are known (Act IV, Scene I, Measure for Measure, Duke).

Başqa bir nümunə olaraq "investment" sözünü götürə bilərik. Bu sözün yarandığı dövrdə işlədilən mənası ilə müasir ingilis dilində işlədilən mənası üst-üstə düşmür. Elə buna görə də o zamanlar sözün ilkin mənası "örtmək", "bloklamaq" və "gizlətmək" idi. Hal-hazırda isə, investisiya, pulun sizə daha çox, əlavə pul qazandıra biləcək şəkildə istifadə olunmasını ifadə edir.

Do not believe his vows; for they are brokers,

Not of that dye which their investments show (Act I, Scene III, Hamlet, Polonius).

-*less* suffiksi ilə yaranan müxtəlif neologizmləri müşahidə etmək olar. Sözlərə əlavə edərkən az və ya bir şeyin yoxluğunun mənasını bildirir. "Baseless", (sübutsuz, əsassız) sözü misal olaraq, zaman faktorlarına baxmayaraq, öz orijinal mənasını saxlamışdır (George, 2014).

And like the baseless fabric of the vision,

The cloud capp'd towers, the gorgeous palaces (Act IV, Scene I, The Tempest, Prospero).

Sifətlər əksəriyyəti neologizm kimi -*y* şəkilçisi ilə düzəldilmişdir. Şekspir onun köməyi ilə çoxlu sifətlər yaratmışdır. "Bloody" (qanlı, qana bələnmiş) sözü yuxarıda qeyd olunan təsvirlərə nümunədir:

A most harsh one, and not to be understood without bloody succeeding. My master! (Act II, Scene III , Parolless, All is well that ends well)

DOI: https://doi.org/10.36719/2023/3/2

Maraqlı olan məqam bundadır ki, dramaturq bu sözü bir çox komediya və faciələrdə həm lüğəvi-ilkin mənada, həm də məcazi mənada işlətmişdir: bloody napkins (qanlı salfetlər), bloody teeth (qanlı dişlər), bloody deeds (qanlı əməllər), bloody thoughts (qanlı düşüncələr), bloody battles (qanlı döyüşlər) və s. Bu növ neologizmlərin yaranmasına bir neçə sözləri də nümunə göstərə bilərik: palmy (abad), majestic (əzəmətli), generous (səxavətli), suspicious (şübhəli), impartial (qərəzsiz), critical (kritik), lonely (tənha ) və s. (George, 2014).

Qeyd olunanları nəzərə almaqla, Uilyam Şekspir İntibah dövrünün əsas simalarından biri olmuşdur. O, ingilis dilinin və ədəbiyyatının inkişafına töhfələr verməklə yanaşı, ingilis nitq mədəniyyətinin inkişafında da özünəməxsus rolu olmuşdur. Dil daşıyıcıları və dil öyrənənlər onun sözlərini işlətdikcə, əsərlərini oxuduqca, bilərəkdən, bəzən də bilməyərəkdən gündəlik nitqlərində Şekspirdən sitatlar gətirir və vaxtilə neologizm olmuş və hal-hazırda ümumişlək olan sözlərdən istifadə edirlər.

## Ədəbiyyat

1. Bryan, G. (1982). Shakespeare’s Latinate Neologisms. Shakespeare’s study. New York.
2. Johnson, S. (1878). A dictionary of the English language. Heidelberg.
3. Clarke, Ch. (1878). The Shakespeare Key. Rivington.
4. George, V. (2014). Translating and editing Shakespeare today. Linguistic and philosophical investigations, Woodsid.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 24-27
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 24-27
DOI: https://doi.org/10.36719/2023/3/2

**Elvin Şirinov**
Sussex Universiteti
magistrant
elvin.shirinov008@gmail.com

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ FORMALAŞMASI

***Açar sözlər:*** *BMT, Baş Assambleya, Ümumdünya Hökuməti, Baş Məclis, Təhlükəsizlik Şurası*

***Keywords:*** *UN, General Assembly, World Government, General Assembly, Security Council*

Birləşmiş Millətlər Təşkilatı (BMT) 1945-ci il oktyabrın 24-də, dünyanın 50 dövləti tərəfindən yaradılmışdır. BMT çox vaxt "Ümumdünya Hökuməti" də adlanır. Bu gün dünyanın 193 ölkəsi, 500 asılı ərazi, Antarktida materiki, Qərbi Səhra, Dünya okeanı bütünlükdə Yer kürəsinin 80 faiz ərazisi, BMT-nin mandat sisteminə daxildir.

BMT baş qərargahı Amerika Birləşmiş Ştatlarının (ABŞ) Nyu-York şəhərində yerləşir. Onun əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

BMT-nin Nizamnaməsi 1945-ci il, iyun ayının 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il 24 oktyabrda qüvvəyə minmişdir.

BMT-nin əsas orqanları BMT Baş Məclisi, BMT Təhlükəsizlik Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

BMT-nin "dünya hökuməti" kimi qiymətləndirilməsi də obyektivlikdən uzaq olar. Suveren və müstəqil, bərabəhüquqlu və azad dövlətlərin təşkilatı olmaq etibarı ilə, o, yalnız üzv dövlətlər arasındakı razılığa əsasən ona həvalə olunmuş məsələləri həll edir.

DOI: https://doi.org/10.36719/2023/3/2

BMT-nin üzvləri suveren dövlətlərdir və onun Nizamnaməsi suverenliyin ən möhkəm qarantlarından olaraq, suverenliyi özünün əsas prinsiplərindən biri elan etmişdir. Eyni zamanda dünyanın üz-üzə gəldiyi problemlər o qədər ziddiyyətli və mürəkkəbdir ki, bunlar dövlətlərin hər hansı biri tərəfindən təklikdə həll edilə bilməz. Bu mənada BMT dünya ölkələrinin ümumi problemlərin həlli üçün bir yerə toplaşdıqları beynəlxalq qurumdur.

BMT-nin qərarları və fəaliyyəti dövlətlər arasında formalaşmış qüvvələr nisbətini, beynəlxalq həyatın aparıcı təmayüllərini əks etdirir. BMT özünün fəaliyyəti müddətində, ilk növbədə, tərk-silah və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində bir sıra mühüm və faydalı qətnamələr qəbul etmişdir. Onlardan silahlanmanın ümumi tənzimlənməsi və ixtisarını müəyyənləşdirən prinsiplər haqqında (1946), hərbi cinayətkarların təhvil verilməsi və cəzalandırılması haqqında (1946), yeni müharibənin təbliğatına qarşı yönəldilmiş tədbirlər haqqında (1947), dövlətlər arasında sülh və mehriban qonşuluq münasibətlərinin bərqərar edilməsi və möhkəmləndirilməsi tədbirləri haqqında (1957 və 1958), ümumi və tam tərk-silah haqqında (1959) qətnamələrini; Dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi haqqında bəyannaməni (1965); Beynəlxalq Təhlükəsizliyin möhkəmləndirilməsi haqqında bəyannaməni (1970); BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında bəyannaməni (1970); Tərksilah haqqında ümumdünya konfransının çağırılmasını nəzərdə tutan qətnamələri (1971-1973); Beynəlxalq münasibətlərdə gücün tətbiq edilməməsi və atom silahından istifadənin həmişəlik qadağan olunması haqqında qətnaməni (1972); BMT-nin Təhlükəsizlik Şurasının daimi üzv dövlətlərinin hərbi büdcələrinin 10 faiz ixtisarı və qənaət olunmuş vəsaitlərin bir

hissəsinin inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsi üçün istifadə olunması haqqında qətnaməni (1973) göstərmək olar.

BMT-nin Baş Assambleyası Atom silahı sınaqlarının qadağan olunması haqqında müqaviləni 1963-cü ildə, Kosmos haqqında müqaviləni 1967-ci ildə, Atom silahının yayılmaması haqqında müqaviləni, Dənizin dibi haqqında müqaviləni, Bakterioloji silah haqqında konvensiyanı və s. təsdiq etmişdir.

BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilən müstəmləkəçiliyə, irqçiliyə, milli istismara qarşı yönəldilmiş qətnamələr mühüm əhəmiyyətə malikdir. Onlardan Genosidin xəbərdarlığı və ona görə cəzalandırma haqqında konvensiyanı (1948), Müstəmləkə zülmü altında olan ölkələrə və xalqlara müstəqilliyin verilməsi haqqında bəyannaməni (1960), İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında bəyannaməni (1963), Apartheyd cinayətlərinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiyanı (1973) misal göstərmək.

BMT çərçivəsində iqtisadi, sosial və beynəlxalq hüquq sahələrində faydalı qərarlar işlənib hazırlanmışdır: məsələn, Dövlətlərin öz təbii resursları üzərində ayrılmaz suverenliyi haqqında (1952, 1962, 1966), Demokratik torpaq islahatları haqqında (1954, 1959) qətnamələri, "Beynəlxalq ticari münasibətlərin və ticarət siyasətinin prinsipləri" (1964), Sosial tərəqqi və inkişaf (1969), İnsan hüquqları haqqında ümumi bəyannamə (1948), Qadınların siyasi hüquqları haqqında konvensiya (1952), Uşaq hüquqları bəyannaməsi (1959), Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə müddətin tətbiq edilməsi haqqında konvensiya (1968).

BMT-nin məqsədi münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər görməklə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, xalqların özünüdərketmək əsasında ölkələr arasında dostluq

münasibətlərinin inkişaf etdirilməsinə, beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirməyə, beynəlxalq iqtisadi təşkilatların bütün insanlara heç bir fərq qoymadan azadlıq, insan hüquqlarına hörmət və onun genişləndirilməsinə, müxtəlif ölkələrin razılaşması üzrə bu məqsədlərə çatmağa yönəldilmiş mərkəzi orqanın funksiyalarının yerinə yetirilməsinə nail olmaqdır.

BMT aşağıdakı prinsipləri rəhbər tutaraq fəaliyyət göstərir:

- Bütün üzvlərin bərabərliyi;
- Nizamnamə üzrə qəbul edilən öhdəçiliyi vicdanla yerinə yetirmək;
- Beynəlxalq münasibətlərdə bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etmək;
- Beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək;
- Dövlətlərin daxili işlərinə qarışmamaq;
- İnsanların əsas hüquq və azadlıqlarına hörmət etmək.

BMT özünün Nizamnaməsində bəyan edilmiş məqsəd və prinsiplərin həyata keçirilməsi işinə əhəmiyyətli töhfələr vermişdir. Müasir dünyada BMT-nin beynəlxalq şəraitə müsbət təsir imkanlarının genişləndirilməsi, aktual beynəlxalq siyasi problemlərin nizamlanmasında həlledici vasitəyə çevrilməsi, BMT Nizamnaməsinin bütün üzv dövlətlər tərəfindən ciddi yerinə yetirilməsinə nail olunması istiqamətində fəaliyyəti davam etdirilir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 28-31
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 28-31
DOI: https://doi.org/10.36719/2023/3/2

**Arif Məmmədli**
Bakı Biznes Universiteti
magistrant
arif.mammadli@outlook.com

# KİÇİK VƏ ORTA SAHİBKARLIGIN MALİYYƏLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *sahibkarlıq, innovasiyalı inkişaf, dövlət dəstəyi, investisiya fondu, vergi güzəşti*
***Keywords:*** *entrepreneurship, innovative development, state support, investment fund, tax relief*

Müasir bazar iqtisadiyyatı modelinin əsas təşkiledicisi sahibkarlığın yüksək inkişaf səviyyəsi sayılır. Məqalədə kiçik və orta sahibkarlığa iqtisadi təzahür kimi baxılmasına sistemli yanaşma təklif olunur, belə ki, onun inkişafı kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Sahibkarlığın innovasiyalı inkişaf konsepsiyası təqdim edilmiş, burada innovasiyalı inkişafın dövlət mexanizminin mahiyyətini, idarəetmə subyektlərini və onların balanslaşdırılmasını özündə etiva etmişdir.

Bazar iqtisadiyyatında maliyyə resurslarının effektiv idarə olunması hər bir təsərrüfat subyektinin qarşısında duran vacib məsələdir. Bu onunla şərtlənir ki, maliyyə az vaxt kəsiyində bilavasitə transformasiya olunan yeganə resursdur. Ölkədə sahibkarlıq infrastrukturunun inkişafı, o cümlədən maliyyə biznesinin formalaşması biri digərinin səbəb-nəticəsi olaraq çıxış edir. Real sahibkarlıq sektorunun inkişafı biznes formalaşmasına gətirib çıxarır, öz növbəsində maliyyə biznesinin inkişafı da biznes maliyyə sektorunun inkişafının zəruri şərtlərindən biri olaraq qalır.

Bazar iqtisadiyyatının inkişafı təsərrüfat subyektlərindən bir tərəfdən, dəyişkən iqtisadi mühit şəraitində stabil və

dayanaqlı inkişafın təmin olunmasını, digər tərəfdən isə onların istehsal etdikləri məhsulların rəqabət-qabiliyyətinin artırılmasını tələb edir. Bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat subyektlərinin inkişaf etdirilməsi üçün ağırlıq mərkəzi milli gəlir artımını təmin edən geniş təkrar istehsalın üzərinə düşür. Bu artımı təmin edən əsas vasitələrdən biri investisiya qoyuluşu prosesi, həmçinin investisiyaların gerçəkləşməsi üzrə praktiki fəaliyyətin məcmusu olan investisiya fəaliyyətidir. Investisiya fəaliyyətinin dinamik və səmərəli inkişafı ölkə iqtisadiyyatının stabil inkişafının əsas şərti hesab olunur.

Respublikanın investisiya mühiti həmin ölkədə sahibkarlıq infrastrukturunun keyfiyyəti, investisiyaların səmərəliliyi və əsaslı vəsait qoyuluşu ilə bağlı mümkün risklərin dərəcəsini müəyyənləşdirən siyasi, sosial-mədəni, maliyyə-iqtisadi və hüquqi şəraitin məcmusu ilə səciyyələnir. Əlverişli investisiya mühitini şərtləndirən və investisiya axınına səbəb olan əsas amillərə daxili bazarın yüksək potensialı, stabil vergi sistemi, yüksək mənfəət norması, istehsal resurslarının ucuzluğu, səmərəli dövlət köməyi sistemi aiddir.

Maliyyələşmə − firmanın kapitalının onun bütün formalarında əmələgəlməsi, yaranması prosesidir, geniştəkrar istehsalın tələbatının pul vəsaitlərilə təmin edilməsidir (pul təminatı). Qeyd etmək lazımdır ki, “maliyyələşmə” anlayışı “investisiyalaşma” anlayışı ilə sıx əlaqədardır, ancaq eyni deyil. Əgər maliyyələşmə − pul vəsaitlərinin formalaşmasıdırsa, onda investisiyalaşma pul vəsaitlərindən istifadə deməkdir. Hər iki iqtisadi məfhum qarşılıqlı əlaqədardır, lakin birinci ikincidən öndə gedəndir.

Sahibkarlığın inkişafı üçün cəlb edilən maliyyə resurslarının növləri və həcmi, eləcə də investisiyanın seçilməsi haqqında qərarların qəbulu son dərəcə əhəmiyyətlidir. Biznesin maliyyəsi müstəqil elim-praktik istiqamət kimi maliyyə və

DOI: https://doi.org/10.36719/2023/3/2

investisiya qərarların qəbul edilməsini və bu prosesin pkartikada necə getdiyini öyrənir. Kreditləşdirmə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı formalarından birini ifadə edir. Kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturu yaradan kiçik və orta sahibkarlıq müəssisələrinə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq dövlət və yerli büdcələrdən subsidiyalar, büdcə investisiyaları və öhdəliklərinə görə zəmanət təqdim edilməsi yolu ilə maliyyə dəstəyi göstərilə bilər (Abbasov, Abbasov, 2021).

Vençur kapitalı – yüksək risklidir, yeni yaradılan və sürətlə inkişaf edən kiçik və orta sahibkarlıq subyektlərinin, eləcə də müflisləşmə ərəfəsində olan müəssisənin maliyyələşdirilməsi üçün xarici investorlar tərəfindən təqdim edilən pul vəsaitidir. Vençur kapitalı peşəkar investorlar şirkətin menecerləri ilə birlikdə yeni və sürətlə inkişaf edən müəssisəyə investisiya kimi təqdim edirlər, həm də o, yeni yaradılan şirkətin səhmdar kapitalının mühüm mənbəyinə çevrilir.

Mikromaliyyələşdirmə kreditlərin verilməsi və depozitlərin qəbulu ilə əlaqədar kiçik maliyyə xidmətini ifadə edir, hansıki kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan adamlara; kənd təəsrrüfatı xammalı emal edən və ticarət fəaliyyəti həyata keçirən kiçik, yaxud mikromüəəsisəyə; xidmət göstərən muzdlu işçilərə; torpaq sahəsini, nəqliyyat vasitələrini, maşın və alətlərini icarəyə verən şəxslərə və yerli əhaliyə göstərilir (Ataşov, İbrahimov, Novruzov, 2014).

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik müəssisələrə həm cari fəaliyyətini davam etdirmək, həm də istehsalı genişləndirmək və modernləşdirmək üçün maliyyə resursları tələb olunur. Kiçik müəssisələrin bank kreditləri almaq, yaxud səhmdarların vəsaitlərini cəlb etmək, fond bazarlarında səhmlərini və istiqrazlarını yerləşdirmək imkanı yoxdur. Bu onunla əlaqədardır ki, kiçik müəssisələr bank-kreditora kifayət

qədər girov, yaxud zəmanət təqdim edə bilmirlər, bank kreditlərinin faiz dərəcəsi yüksəkdir, eləcə də fond bazarına çıxış və emissiya aparılması xərcləri böyükdür.

Ölkə iqtisadiyyatının inkişafına investisiyaların artırılmasını, onların düzgün strukturunu müəyyənləşdirilməsi və ya müəyyən bir iqtisadi sahəyə qoyulmasını həyata keçirmək məqsədilə dövlət müxtəlif istiqamətlərdə öz iqtisadi siyasətini gerçəkləşdirir. Bu səbəbdən istehsal ediləcək əməyə tələb ilə əlaqədar müəssisənin istehsal gücünə, dövlətin tətbiq etdiyi maliyyə, pul, qiymət və xarici ticarət siyasəti olduqca böyük təsir edir.

1. Müasir dövrdə şirkətlər iri kapital qoyuluşları həyata keçirmədən və yalnız mənfəətləri hesabına biznes layihələrini maliyyələşdirməklə özlərinin rəqabət qabiliyyətlərini artıra bilməzlər. Maliyyə bazarı ən səmərəli investisiya qərarlarının qəbul olunduğu mərkəzdir və qeyd edilən yığım vəsaitlərini səfərbər edərək onları investisiyaya çevirir.

2. Respublikamızda sahıbkarlıgın inkişafında dövlətin yürütdüyü siyasətin əsas özəyini milli sahibkarlığın yuksəlişi təşkil etməlidir. Fikrimizcə, digər prioritetlərdən biri də idxalı əvəz edə biləcək səviyyədə olan ixracın stimullaşdırılması hesab edilməlidir.

## Ədəbiyyat

1. Abbasov, A.B., Abbasov, S. (2021). Kiçik və orta sahibkarlığın idarə edilməsi. Dərslik-monoqrafiya. Bakı, s.384.
2. Ataşov, B., İbrahimov, E., Novruzov, N. (2014). Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı, 648 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 32-36
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 32-36
DOI: https://doi.org/10.36719/2023/3/2

**Əli Cəfərov**
Bakı Dövlət Universiteti
magistrant
cafarovali777@gmail.com

# AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN İQTİSADİ ARTIMA TƏSİR MEXANİZMİ

***Açar sözlər:*** *biznes mühiti, iqtisadi artım, idxal, ixrac, iqtisadi azadlıq, rəqabət qabilliyyəti*
***Keywords:*** *business environment, economic growth, import, export, economic freedom, competitiveness*

Məqalədə biznes mühitinin əlverişliliyini xarakterizə edən göstəricinin − gəlir vergisi dərəcəsinin iqtisadi artıma və adambaşına ÜDM həcminə təsirlərinin ölkənin iqtisadi konyukturasından asılıgı göstərilmiş və hər bir ölkədə gəlir vergisi dərəcəsinin iqtisadi artıma pozitiv təsirlərini artırmaq üçün onun optimal həddinin tapılmasının vacibliyi vurğulanmışdır.

Modernləşmənin iqtisadi bazisini formalaşdıran Azərbaycan suveren dövlət kimi artıq yeni tarixi və iqtisadi şəraitdə iqtisadiyyatın inkişafı problemlərini həll edir, prinsipial baxımdan yeni olan, iqtisadi sərbəstliyə, dünya təsərrüfat sisteminə inteqrasiya etməyə yönəlmiş iqtisadiyyat qurur. Müasir dövrdə Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafı innnovasiya siyasətinin reallaşdırılmasından və yüksək texnoloji və elmtutumlu istehsalın təşkilindən bilavasitə asılıdır. Bu isə öz növbəsində ölkə iqtisadiyyatına investisiyanın cəlb edilməsini, elmi sferada idarəetmənin və beynəlxalq kooperasiyanın innovativ metodlarının tətbiqini tələb edir. Ölkədə biznes mühiti nə qədər əlverişli olarsa,

DOI: https://doi.org/10.36719/2023/3/2

birbaşa xarici investisiyalarla yanaşı, daxili investisiyaların da həcmi artar. Digər tərəfdən, biznes mühitinin əlverişliliyi vergi yükünün azalması ilə xarakterizə olunur. Bu halda yığım da artar. Xarici iqtisadi əlaqələrin liberallığı ilə xarakterizə olunan biznes mühitinin əlverişliliyi imkan verir ki, texnoloji yeniliklər ölkəyə daha asanlıqla daxil olsun.

Biznes bazar iqtisadiyyatının mühüm tərkib hissəsidir, iqtisadi artım tempini, ümumi daxili məhsulun strukturunu və keyfiyyətini müəyyən edir, yeni iş yerlərinin yaradılmasında, əhalinin sosial rifahının yaxşılaşdırılmasında və bazarda sağlam rəqabət mühitinin formalaşmasında böyük rol oynayır. Müasir bazar iqtisadiyyatında firma və şirkətlərin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi, əmtəə və xidmətlər bazarında onların mövqeyi biznes proseslərin modernləşdirilməsi və təkmilləşdirilməsi zamanı idarəetmə qərarlarının qəbulu və reallaşdırılmasından daha çox asılıdır. Dünya iqtisadiyyatında gedən qlobal proseslər xarici ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da biznes proseslərinin bütün təşkiledicilərində idarəetmə qərarlarının qəbulu üsullarına əhəmiyyətli təsir göstərir.

Mürəkkəb təsərrüfatçılıq şəraitində və biznes mühitinin kəskin dəyişildiyi zamanlarda müəssisə və təşkilatların praktiki fəaliyyətində həmişə idarəetmə qərarlarının qəbulunda problemlər olmuşdir, lakin müasir dövrdə onların əhəmiyyəti və rolu daha da artmışdır. Biznes mühitinin müxtəlif aspektlərinin iqtisadi artıma təsirlərinin həm nəzəri, həm də empirik aspektdən öyrənilməsinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda son on illiklərdə çox rast gəlinir. Elmi ədəbiyyatda biznes proseslərinin təkmilləşdirilməsində idarəetmə qərarlarının qəbulu barədə klassik iqtisadi yanaşmalar mövcuddur. Bəzi iqtisadçıların söylədiklərinə görə biznes mühitinin sürətlə dəyişildiyi, innovativ texnologiyaların tətbiq edildiyi və müasir menecment sistemindən istifadə

DOI: https://doi.org/10.36719/2023/3/2

olunduğu indiki zamanda həmin klassik iqtisadi yanaşmalar biznes proseslərinin təkmilləşsdirilməsində optimal idarəetmə qərarlarını əsaslandırmaq üçün yaramır ki, bu da qərarların qəbulunun yeni daha təkmil üsullarının işlənib hazırlanmasını və reallaşdırılmasını zəruri edir.

Biznes mühitinin əlverişliliyinə təsir göstərən amillərdən biri də ölkədə iqtisadi azadlıq şəraitidir. Bütünlükdə iqtisadi azadlıq, o cümlədən maliyyə, fiskal, xarici ticarət azadlıqları biznesin inkişafında ciddi təsir göstərir. Doing Business tədqiqat qrupu yalnız xarici ticarətlə bağlı azadlıqları nəzərə alır. Əlbəttə, xarici ticarət rejimində, xüsusilə ixrac prosesində daha çox azadlıqlar olarsa, istehsal olunan məhsulların dünya bazarına çıxarılması asanlaşar. Həmçinin idxala daha çox məhdudiyyətlərin qoyulması daxili biznesin inkişafına şərait yaratmış olar. Beləliklə, xarici ticarətin azadlığı deyəndə həm idxal, həm də ixrac proseslərinin azadlığı nəzərdə tutulsa da, onların eyni istiqamətli azadlıq səviyyəsi biznes mühitinə müsbət təsir etmir. İdxal və ixrac proseslərinin biznes mühitinə müxtəlif istiqamətli təsirlərini nəzərə alaraq, Doing Business xarici ticarətə tariflərdən daha çox bürokratik əngəllərin yaratdığı təsirləri nəzərə almağa çalışıb. Bu göstəricilərə 1)məhsulların idxalı və ixracı zamanı tələb olunan sənədlərin sayı; 2) məhsulların idxalı və ixracı zamanı tələb olunan imzaların sayı; 3) idxal və ixracla bağlı prosedurlardan keçmək üçün tələb olunan zaman aiddir. Bu göstəricinin kəmiyyətcə qiymətləndirilməsi zamanı da müəyyən məhdudiyyətlərə malik olan "şirkət modeli" və "məhsul modeli" ehtimal edilir.

Biznes mühitinin əlverişliliyinin təminatı dövlət siyasəti ilə reallaşdığından institusional mexanizmdir. Bu mexanizmin əsas məqsədi biznesin inkişafıdır. Bu zaman sahibkarın mənafeyi daha çox qabardılır. Bura qiymətlərin liberallığından tutmuş, vergilərin azaldılmasına, xarici ticarət rejiminin

DOI: https://doi.org/10.36719/2023/3/2

sadələşdirilməsinə, işdən çıxarma və işə qəbula qədər müxtəlif tədbirlər daxildir (Biznesin təşkili və idarə edilməsi, 2011).

Fikrimcə, bu zaman muzdlu işçilərin, bəzi hallarda isə bütünlükdə cəmiyyətin sosial müdafiəsinə ziddiyyət yarana bilər. Məsələn, vergilərin azaldılması büdcə gəlirlərinin də azalmasına səbəb ola bilər. Bu isə büdcədən sosial müdafiə xərclərinin azalmasına səbəb ola bilər. İşə qəbul və işdən çıxarmanın asanlaşdırılması muzdlu işçilərin asanlıqla işsizliklə üzləşməsi və ya onların iş şəraitinin ağırlaşması ilə nəticələnə bilər. Ona görə də biznes mühitinin əlverişliliyinin artırılması istiqamətində atılan addımlar zamanı biznes mühitini xarakterizə edən göstəricilər iki qrupa ayrılmalıdır. Birinci qrup göstəricilər o göstəricilərdir ki, onlar bütün hallarda həm biznesin inkişafı, həm də muzdlu işçilərin sosial müdafiəsi üçün zəruridir. Məsələn, korrupsiyaya qarşı qanunvericiliyinin sərtləşməsi, qanunun aliliyinin təmin edilməsi bu qəbildən olan institusional mexanizmlərdəndir. Lakin idxal rejiminin liberallaşması biznes mühitinin əlverişliliyini artırsa da daxili bazarda işsizlik üçün şərait yarada bilər. Həmçinin minimum əmək haqqı ilə bağlı qanunvericiliyin sərtləşməsi aşağı ixtisaslı işçilər üçün işsizlik yarada bilər.

Biznes mühitinin əlverişliliyini xarakterizə edən daha bir göstəricinin − gəlir vergisi dərəcəsinin iqtisadi artıma və adambaşına ÜDM həcminə təsirlərinin müxtəlif ölkələr, o cümlədən Azərbaycan üzrə qiymətləndirilməsi deməyə əsas verir ki, bu təsirlər ölkədən ölkəyə dəyişir və ölkənin iqtisadi konyukturasından asılıdır. Hər bir ölkədə gəlir vergisi dərəcəsinin iqtisadi artıma pozitiv təsirlərini artırmaq üçün onun optimal həddinin tapılması zəruridir.

DOI: https://doi.org/10.36719/2023/3/2

## Ədəbiyyat

1. Biznesin təşkili və idarə edilməsi. (2011). Dərslik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 464 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 37-42
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 37-42
DOI: https://doi.org/10.36719/2023/3/2

**Əli İsmayılov**
Bakı Biznes Universiteti
magistrant
ali.ismayilov1999@mail.ru

# VERGİ NƏZARƏTİNİN ZƏRURİLİYİ VƏ DÖVLƏT İDARƏETMƏSİNDƏ ROLU

***Açar sözlər:*** *vergi sistemi, maliyyə-vergi nəzarəti, maliyyə siyasəti, vergi uçotu*

***Keywords:*** *tax system, financial-tax control, financial policy, tax accounting*

Məqalədə vergi nəzarətinə dövlətin idarəetməsinin ən vacib funksiyalarından biri kateqoriyası kimi izahı verilmiş, vergi nəzarət sisteminin meydana gəlməsi xüsusiyyətləri, həmçinin vergi və maliyyə nəzarətinin qarşılıqlı əlaqə sisteminin inkişafı kompleks şəkildə araşdırılmışdır.

Hal-hazırda ölkəmizdə stabil yüksəlişin ağırlıq mərkəzində qüvvələr nisbəti bilavasitə vergi nəzarətin öhdəsinə düşmüşdür. Respublikamızda davamlı inkişaf tempini saxlanılmasında vergi nəzarəti artıq mühüm təsir amili rolunda özün göstərir və bu sahələrə olan diqqət dövlət səviyyəsində son zamanlar artmaqdadır.

Ölkəmizdə bazar iqtisadıyyatı münasibətlərinin bərqərar olması və dünya təsərrüfat sisteminə inteqrasiya prosesinin gücləndiyi, habelə maliyyə-vergi nəzarətinin möhkəmləndirilməsi aparıcı yer aldığı dövlət siyasətində müasir mərhələdə idarəetmənin başlıca elementi hesab edilən bu nəzarət növünün rolu getdikcə önəmli yer tutur. Təsadüfi vəziyyət deyil ki, mövcud durumda maliyyə şəffaflığının təmini, mövcud olan nəzarət vasitələrinin təşkilinə və ümumi şəkildə maliyyə intizamının gücləndirilməsinə böyük töhvə

verilir, sınaqdan uğurla çıxmış beynəlxalq praktikadan istifadə etməklə iqtisadi yüksəlişə maneə yaradan, qanunları pozan və nəticədə sosial ədalətsizlik yaradan korrupsiya əleyhinə mübarizə tədbirləri son dövrlərdə ölkə prezidentinin imzaladığı sərəncamlarda da öz parlaq nümunəsini tapmış olur.

Milli iqtisadi strategiyanın mühüm istiqaməti sabitliyə və iqtisadi yüksəlişə yiyələnmək, sosial rifahın yüksəldilməsi, iqtisadi sahədə təhlükəsizliyə nail olmaqdır. Haqqında bəhs edilən aspektlərin həyata keçirilməsi özəl sahənin inkişafı, haqsız rəqabətin qarşısının alınması, azad sahibkarlığa hüquqi təminatın yaradılması, daxili bazarın yüksəlişinə çatmaqdan ötrü çevik infrastrukturun formalaşdırılması, özəlləşdirmə proqramının sürətləndirilməsi və dərinləşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, digər mühüm tənzimləyici tədbirlərin reallaşması ilə sıx tərzdə əlaqədardır. Şübhəsiz bu tədbirlər iqtisadiyyatın müxtəlif sferalarını özündə cəmləşdirir və bilavasitə iqtisadi siyasətin məqsədyönlü təşkilindən asılıdır.

Vergi nəzarəti − dövlət idarəetməsinin ən vacib funksiyalarından biri olub, dövlət mülkiyyətinin idarə edilməsinin qanuniliyi, məqsədəuyğunluğu və səmərəliliyi məsələlərində qəbul edilmiş standartlardan yayınma hallarının aşkar edilməsinə, bu cür meyillər yarandıqda isə uyğun tədbirlərin vaxtında həyata keçirilməsinə yönəlmişdir.

Ölkənin maliyyə siyasətini uğurla həyata keçirmək, maliyyə ehtiyatlarından effektif surətdə istifadəsinə nail olmaqda maliyyə nəzarətinin rolu olduqca vacibdir. Maliyyə mexaniznin idarəedilməsi sisteminin təzədən yaradılması, maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması qarşıya qoyulan strateji vəzifələrdəndir.

Pandemiya ilə əlaqədar dünya və Azərbaycan iqtisadiyyatının hazırkı qeyri-sabitliyi nəticəsində bir çox şirkətlər müflisləşərək ağır böhran durumuna düşmüşlər ki, bu

durum özlüyündə aktivlərin və kapitalın strukturunun optimallaşdırılmasını bilavasitə zəruriyyətə çevirmişdir.

Təsərrüfat subyeklərində investisiyaların maliyyələşdirilməsinin təkmilləşdirilməsi, maliyyə bazarlarında əməliyyatların uğurla tamamlanması, iqtisadi resurslardan daha məqsədli yararlanma və rəqabətqabiliyyətinin yüksəldilməsi önəmli məsələyə gəlib yetişmişdir. İstənilən hər hansı ölkənin iqtisadiyyatının davamlı stabilliyi, iqtisadi inkişafın səmərəyönlü qurulması və iqtisadiyyatın idarəedilməsində səmərəli vergi sisteminin formalaşdırılmasını strateji məna səngiləyən məsələ şəklində zərurətə çevirir.

Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərin icrası ilə əlaqədar məlumatların yığılması və analizinə istiqamətlənib. Bu tip nəzarətin ali məqsədi vergi qanunvericiliyində yol verilmiş pozultuların çevik aşkarlanması, onların qarşısına qətiyyətlə sədd çəkilməsi və bunun yekununda bütöv biznes subyektlərindən ötrü bərabərliyi və ədaləti özündə təcəssüm edən münasib vergi mühitinin formalaşdırılmaqdır.

Belskinin düşüncə tərzinə görə, vergi sistemi vergitutma sahəsində müəyyən prinsiplərə, iş adamlarının vergiləri ödəmək imkanlarına, qanunvericiliklə nəzərdə tutulmuş vergi və ödənişlər sisteminə, tətbiq olunan vergi inzibatçılığına və vergitutma üsullarına əsaslanan bir-biri ilə əlaqəli elementlərin (hissələrin) məcmusudur (Bel'skiy, 2006: 155).

M.V.Karaseva tədqiqatlarında isə digər fərqli yanaşma ilə vergi strukturuna dövlətin vergitutma sferasında iqtisadi, siyasi, təşkilati və konstitusiya xarakterli bütün cari ictimai əlaqələrin toplusu qaydasında aydınlıq gətilir. Dövlətin vergitutma sahəsində formalaşan və siyasi, iqtisadi, təşkilati və hüquqi

xarakterli bütün mövcud sosial münasibətlərin məcmusudur (Finansovoye pravo Rossiyskoy Federatsii: Uchebnik, 2006: 324).

D.Q.Çernikin fikrincə, vergi sistemi dövlət səmtdən tutulan vergilərin, onlara aydınlıq gətirilməsi, dəyişməsi və ləğvinin prinsipləri, forma və metodları, hesablanması və tutulması metodlarının, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin toplusudur (Nalogovyye sistemy zarubezhnykh stran: Uchebnik dlya vuzov, 1997: 34).

Hesab edirik ki, Azərbaycanda həyata keçirilən vergi nəzarəti alətləri dövrün tələblərinə və yeni çağırışlara tələblər səviyyəsində cavab vermir. Mütərəqqi beynəlxalq təcrübədə isə, artıq bir neçə ildir ki, Azərbaycanda hələ də tətbiq edilməyən yeni mexanizmlərdən istifadə olunur. Məsələn, dünya üçün yeni bir standarta çevrilən İrlandiyanın artıq neçə ildir tətbiq etdiyi elektron audit modelini buna misal göstərə bilərik. Klassik Nəzarət Kassa aparatları vasitəsilə isə vergidən yayınma hallarına qarşı effektiv mübarizə aparmaq mümkün deyil.

Gəldiyimiz nəticələrdən biri də, Azərbaycanda tətbiq olunan vergi dərəcələri, cərimə və sanksiyaların sabit dərəcə ilə tətbiqinin törətdiyi mənfi hallarla bağlıdır. Hesab edirik ki, vergi dərəcələrinin fəaliyyət növü, regional xüsusiyyətlər nəzərə alınmaqla differensiallaşdırılmaması iqtisadi fəaliyyətin diversifikasiyalaşması və regionların inkişafı istiqamətində mənfi nəticələr doğurur. Eyni zamanda elektron ticarətin ənənəvi ticarətlə eyni dərəcə ilə vergiyə cəlb olunması bu sahənin inkişafında ciddi maneəyə çevrilməkdədir.

Vergilər iqtisadiyyatda anti-tsikliyə səbəb olan mühüm alət və investisiyanın tənzimləyicisi olmalıdır. Vergi tənzimlənməsinin köməyilə dövlət elmi-texniki tərəqqi və innovativ inkişaf nöqteyi-nəzərindən perspektivdə kapital yığımını sürətləndirmək üçün zəruri şərait yaradır. Vergilər

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 37-42
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 37-42
DOI: https://doi.org/10.36719/2023/3/2

ödəniş subyektləri və ödəniş obyektlərinə görə qruplaşdırıla bilər.

Vergilərin təsnifləşdirilməsinin ən mühüm əlamətlərindən biri vergilərin ödəniş mənbələridir; əmək haqqı, gəlir, yaxud mənfəət, maya dəyəri. Vergilər və yığımlar sistemi şirkətin maliyyə fəaliyyətinə önəmli səviyyədə təsirin nümayiş etdirir. Real təcrübədə bu təsirin dərəcəsi vergi yükündə öz əksin tapır. Şirkətin vergi siyasətində aşağıdakı əsas istiqamətləri ayırmaq zərurudir:

- vergi uçotu sxeminin seçilməsi;
- vergitutmanın optimallaşdırılması üsullarının seçilməsi;
- vergi planlaşdırılması.

Bu təkcə büdcəyə mədaxil hesabına xəcrlərə mümkün qənaətlə deyil, xüsusilə də şirkətin ümum təhlükəsizliyi ilə əlaqədardır. Vergi planlaşdırılmasının zəruriliyi vergi ödəyicisinin statusundan, onun maliyyə-təsərrüfat fəaliyyətinin istiqamətləri və nəticələrindən, müəssisəsinin yerləşdiyi yerdən və təşkilati strukturundan asılı olaraq müxtəli vergi rejimi nəzərdə tutan müasir vergi qanunvericiliklə müəyyən edilmişdir. Vergi planlaşdırılması şirkətin maliyyə-təsərrüfat işinin strateji planlaşdılrılması metodlarının tətbiqi nəticəsində vergi ayırmalarının azaldılmasının müxtəlif qanuni sxeminin işlənilməsi və tətbiqindən ibarətdir.

Bu gün maliyyə-vergi nəzarətinin səmərəliliyini artırmaqdan ötrü araşdırma apardıgımız sahədə təkcə müasir texniki avadanlıqlara yox, habelə bu sferada fəaliyyətin gerçəkləşdirən mütəxəssis kadrların xüsusi hazırlıq səviyyəsinə böyük lüzum hiss olunur. Bir məqamı da vurğulamağa ehtiyac var ki, mövcud mülki qanunvericiliyi təkmilləşdirmədən strateji sahələr içərisində önəmli yerlərdə qərarlaşan maliyyə nəzarəti sisteminin inkişafına yiyələnmək real görünür.

Vergi orqanlarının əsas vəzifələrindən biri də vergi ödəyən hər bir hüquqi və fiziki şəxsin hüquq və qanuni mənafeyini

gözləmək və müdafiə etmək, həmçinin vergi ödənişləri ilə əlaqədar olan sənədləşməni düzgün aparmaqdır. Qeyd edilən istiqamətdə atılan ən mühüm addımlardan biri Vergi Məcəlləsinə müvafiq dəyişiklik və əlavələrin edilməsi ilə bağlıdır. Belə ki, nağd pul hesablaşmaları üzrə aparılan qaydaları pozmağa görə cərimələrin maliyyə sanksiyaları ilə əvəzlənməsi sanksiyaları vaxtında dövlət büdcəsinə ödəməyən borclu vergi ödəyicisinin əmlakının siyahıya alınması və hərraca çıxarılmasına, bank hesabına sərəncam qoyulmasına, ölkədən çıxışına qadağa qoyulmasına hüquqi əsas yaradır.

Son olaraq hesab edirik ki, nümunəvi vergi ödəyicisi ilə bağlı meyarlar müəyyən edilməli, həmin vergi ödəyicilərilə portnyor münasibətləri qurulmalı, qarşılıqlı etimad mühiti formalaşdırılmalıdır. Nümunəvi vergi ödəyiciləri və vergi qanunvericiliyini mütəmadi olaraq pozan ödəyicilər haqda məlumatlar davamlı olaraq kütləvi informasiya vasitələrində işıqlandırılmalı, geniş ictimaiyyətə çatdırılmalı və nəticədə ictimai qınaq, ictimai nəzarət institutu formalaşdırılmalıdır.

## Ədəbiyyat

1. Bel'skiy, K.S. (2006). Nalogovaya sistema: genezis, osnovnyye elementy, printsipy. Gosudarstvo i pravo. № 9, s.55.
2. Finansovoye pravo Rossiyskoy Federatsii: Uchebnik. (2006). Otv. red. M.V.Karaseva. M.: Yurist', s.324.
3. Nalogovyye sistemy zarubezhnykh stran: Uchebnik dlya Vuzov. (1997). Pod red. prof. Knyazeva V.G., prof. D.G.Chernika M.: Zakon i pravo, YUNITI.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 43-45
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 43-45
DOI: https://doi.org/10.36719/2023/3/2

**Yusif Abbaszadə**
Lənkəran Dövlət Universiteti
magistrant
yusif.abbaszade.00@bk.ru

# TƏQVİM TARİXİNİ MİQDAR GÖSTƏRƏN ƏDƏDƏ VƏ ƏKSİNƏ ÇEVİRMƏNİ TƏLƏB EDƏN MƏSƏLƏLƏR HAQQINDA

***Açar sözlər:*** *vaxt, məsələ, təqvim, miqdar, tarix*
***Keywords:*** *time, example, calendar, quantity, history*

Vaxt hesablamalarına aid bu növ məsələlərin mətninə həm təqvim tarixini göstərən, həm də miqdar göstərən ədədlər daxildir. Təqvim tarixini göstərən ədədləri birbaşa hesablamaya daxil etmək mümkün olmadığından, bu ədədləri miqdar göstərən ədədlərə çevirmək lazımdır.

Hər hansı hadisənin baş verdiyi vaxtı göstərən ədədə təqvim tarixi (ədədi) deyilir. Təqvim tarixi "bu hadisə nə vaxt olmuşdur?" sualına cavab verir.

Bir andan o biri ana qədər keçmiş müddəti göstərən ədəd miqdar göstərən ədəddir. Miqdar göstərən ədədlər "nə qədər", "neçə" suallarına cavab verir. Təqvim tarixini miqdar göstərən ədədə çevirmək eramızın (əsrin, ilin, ayın və s.) başlanğıcından məlum hadisəyə kimi nə qədər vaxt keçmiş olduğunu hesablamaq deməkdir.

Məsələn: 10 oktyabr 1991-ci ilə 1990-cı il 9 ay 9 gün ədədi uyğundur. Bu o deməkdir ki, yeni eranın başlanğıcından bu tarixə kimi 1990-cı il 9 ay 9 gün keçmişdir.

Miqdar göstərən ədədi təqvim tarixinə çevirmək, yəni bizim eranın (ilin, ayın və s.) başlanğıcından bir hadisə kimi nə qədər vaxt keçdiyini bilərək, bu hadisənin nə vaxt baş verdiyini təyin etməkdir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 43-45
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 43-45
DOI: https://doi.org/10.36719/2023/3/2

Məsələn: Böyük Vətən müharibəsi qurtarana kimi yeni eranın başlanğıcından 1944 il 4 ay 8 gün keçmişdir ədədinə uyğun təqvim tarixi (ədədi) 9 may 1945-ci il olar. Deməli, Böyük Vətən müharibəsi 9 may 1945-ci ildə qurtarmışdır.

Təqvim tarixini miqdar göstərən ədədə çevirmək əsasında həll edilən məsələlər həllinə baxaq.

Məsələ 1. Azərbaycan Xalq şairi Səməd Vurğun 21 mart 1906-cı ildə anadan olmuş və 27 may 1956-cı ildə vəfat etmişdir. Səməd Vurğun nə qədər yaşamışdır?

Məsələnin planlı həlli:

1) Səməd Vurğun anadan olana kimi yeni eranın başlanğıcından nə qədər vaxt keçmişdir?

Səməd Vurğun anadan olana kimi yeni eranın başlanğıcından 1905 il 2 ay 20 gün keçmişdir.

2) Səməd Vurğun ölənə kimi yeni eranın başlanğıcından nə qədər vaxt keçmişdir?

Səməd Vurğun ölənə kimi yeni eranın başlanğıcından 1955 il 4 ay 26 gün keçmişdir.

3) Səməd Vurğun nə qədər yaşamışdır?

1955 il 4 ay 26 gün - 1905 il 2 ay 20 gün = 50 il 2 ay 6 gün

Cavab: Səməd Vurğun 50 il 2 ay 6 gün yaşamışdır.

Məsələ 2. Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov 63 il 2 ay 5 gün yaşamış və 23 noyabr 1948-ci ildə vəfat etmişdir. Üzeyir Hacıbəyov nə vaxt anadan olmuşdur?

Məsələnin planlı həlli:

1) Üzeyir Hacıbəyov ölənə kimi yeni eranın başlanğıcından nə qədər vaxt keçmişdir?

Üzeyir Hacıbəyov ölənə kimi yeni eranın başlanğıcından 1947 il 10 ay 22 gün keçmişdir.

2) Üzeyir Hacıbəyov anadan olana kimi yeni eranın başlanğıcından nə qədər vaxt keçmişdir?

1947 il 10 ay 22 gün - 63 il 2 ay 5 gün=1884 il 8 ay 17 gün

3) Üzeyir Hacıbəyov nə vaxt anadan olmuşdur?

Üzeyir Hacıbəyov 18 sentyabr 1885-ci ildə anadan olmuşdur.

Cavab: Üzeyir Hacıbəyov 18 sentyabr 1885-ci ildə anadan olmuşdur.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 46-49
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 46-49
DOI: https://doi.org/10.36719/2023/3/2

**Vüqar Seyidzadə**
Bakı Dövlət Universiteti
magistrant
vuqseyidzade@gmail.com

# İNFLYASİYANIN İDARƏ OLUNMASINDA MALİYYƏ MENECMENTİNİN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *maliyyə, inflyasiya, strategiya, idarəetmə, maliyyə menecmenti*
***Keywords:*** *finance, inflation, strategy, management, financial management*

Ölkəmizdə maliyyə sisteminin əsas önəmli strukturlarından biri də maliyyə menecmentidir. İqtsadiyyatın olduqca dalğalı olduğu bir dövürdə maliyyə menecmenti ölkənin və yaxud şirkətin gəlir və xərclərini nəzarətini təmin etmək və onu iqtisadiyyatını inflyasiyanın təsirlərindən qorumaq və onunla mübarizə üçün önəmli bir elm toplusudur. Tezisdə inflyasiyanın iqtisadiyyata təsiri və bu təsirlər nəticəsində iqtisadiyyatda baş verən poblemlərin həlli yolları, müəssisə və şirkətlərin maliyyəsinin səmərəli şəkildə idarə olunmasının üsulları haqqında ətraflı məlumat verlmişdir.

Maliyyə menecmenti dedikdə, ölkənin fəaliyyəti və iqtisadiyyatı üçün önəmli faktor və prosseslərdən biridir. İnflyasiya dövlətin iqtisadiyyatında dövriyəsi ümumilikdə yaxşı təsiri olmayan bir prosesdir, bu da təbiidir ki, ölkədə iqtisadiyyatının bir neçə sferasında özünü biruzə verir (Hacıyev, 2020).

Ölkəmizdə maliyyə menecmenti əsasən iqtisadiyyatda əsaslı stabillik inşa etmək üçün vacibdir. Bu zəruriyyətə çatmaq üçün dövlətin pul və maliyyə siyasətini və yaxud maliyyə sənayesini yaxşılaşdırmaq və mənfi təsirləri kiçildərək

DOI: https://doi.org/10.36719/2023/3/2

maliyyə bazarında güvənirliliyi və qorunaqlılığı təmin edilməsi zərurdir. Daha spesifik yolla desək, inflyasiya ökədə valyutanın dəyərini aşağı salır və bu da daxili bazarda məhsulların qiymətinin yüksəlməsinə səbəb yaradacaq faktordur. Bu da öz növbəsində fərdlərin və bizneslərin işini olduqca çətinləşdirir.

Ümumilikdə toxunduğumuz bütün bu çatışmazlıqların və məsələlərin həll olunmasında və onların düzgün idarə edilərək yoluna qoyulmasndakı ən böyük rolu sözssüzdür ki, maliyyə menecerləri oynayırlar.

Bu məqsədlədə maliyyə meneceri maliyyə sistemindəki pirinsiplərin təkminləşdirilməsini, maliyyə mexanizminin optimal olaraq idarə edilməsi, ölkə büdcəsinin düzgün bir qayda ilə idarə olunması, eyni zamanda kredit sahəsindəki məhdudlaşdırılmış imkanlardan istifadə edərək həyata keçirir.

Maliyyə menecmenti, inflyasiya şəraitində bəzi strateji həllərə əl ata bilər. Bu strategiyalar fərqli ola bilər. Buna misal göstərək: şəxsi mənfəət, müəssisə mənfəəti və dövlət mənfəətini qeyd etmək olar. Lakin bu strategiyalar hər birinə müxtəlif ola bilər (Ələkbərov, Vəliyev, Purhanı, 2013).

Bəzi əsas strategiyalara isə aşağıdakıları göstərmək mümkündür:

Likvidlik idarəetməsi: İnflyasiya şəraitində maliyyə menecerləri həmişə müəssisənin və yaxud təşkilatın likvidliklərinin müvafiq idarə olunmasına diqqət yetirməlidirlər. Bura həm maliyyə müəssisələrinin borc, həm də özəl mənfəətləri də əlavə etməklə bütün qısa müddətli öhdəliklərini ödəməyə qadir olmasını təmin etməkdən ötrü lazımlıdır.

Qiymət artımı ilə mübarizə: Bildiyimiz kimi inflyasiya dövründə qiymətlərin həddindən artıq bahalaşması ortaya çıxır ki, bu bahalaşmaya qarşı maliyyə menecerləri qiymətləri

DOI: https://doi.org/10.36719/2023/3/2

mümkün qədər stabil saxlamaq və yaxud qiyməti düşürmək üçün uyğun addımlar atırlar.

Bundan başqa onuda demək olar ki, inflyasiya zamanı maliyyə sahəsindəki riskləri doğru qaydada idarə olunması üçün fərqli strategiyalarında tədbiq edilməsi tələb edilir. Buna misal kimi biz inflyasiyadan mühafizəli investisiya vasitələri (sabit faizli depozitlər, dövət qazancları sənədləri və s.) istifadə etmək və yaxud daha yaxşı məhsuldarlığa çatmaq üçün inkişaf planı hazırlamaq olduqca önəmlidir.

İnflyasiya dövründə maliyyə menecmentinin təhlükəsizliyini qorunulması üçün şirkətlər, təşkilatlar və ya ölkə önəmli tədbirlər görməlidir.

Əsas tədbirlərə aşağıdakıları misal çəkmək mümkündür:

Yerli valyutadan istifadə və ölkədə istehsal edilən, yəni yerli istehlak mallarının dəstəklənməsi infilyasiyanın idarə edilməsinə əsaslı kömək göstərir. Bu da öz növbəsində dövlətin xaricdə idxalını azaldır və yerli istehlak mallarının qiymətinin yüksətməyə imkan yaradır.

Vəsaitlərin xərclənməsinin ətraflı və düzgün qeydiyyatının aparılması, maliyyə menecmentinin və infilyasiyanın idarə olunmasında əhəmiyyətli mövqedədir. Bu, sərf edilən vəsaitlərin haraya və nə üçün sərf edildiyini və hər bir sərfə ödənilən pulun qarşılığını məlumatlandırmağa kömək edir.

Maliyyə menecmenti, bütün iş və proseslərin ətraflı şəkildə şəffaflıq sahibi olmasını təmin etməlidir. Şəffaflıq nəticəsində sərf edilən vəsaitlərin hardan gəldiyini və hara gedəcəyini dəqiq olaraq görməyə kömək edir (İmran, 2007).

Ümumilikdə xərclənmələrin optimallaşdırılması və boş yerə sərf edilən vəsaitlərin düzgün və effektiv şəkildə idarə edilməsi inflyasiya şəraitində maliyyə menecmenti üçün vacibdir. Bu sərf edilən vəsaitlərin qiymətli varlıqlara yatırılması və optimal şəkildə müəyyən olunmasına mövqe təmin edir (Şahbazov, Məmmədov, Həsənov, 2007).

Bundan başqa, maliyyə planlaması və büdcələmə prosesidə inflyasiyanın təsirinin azaldılması üçün önəmlidir. Şirkətlər və təşkilatlar maliyyə planlaması və büdcələmə zamanı daha səmərəli olmalıdırlar, çünki dəyişən qiymət mühitində bütün məhsulların dəyərləri artacaq və ya dəyişəcək, bu səbəblə, şirkətlər və təşkilatlar məhsulun dəyərini, işgüzar məbləğlərini və digər gəlirlərini yenidən qiymətləndirməli olacaqlar.

Bütün bu saydığımız önəmli faktorlar həm müəssisə və təşkilatların, həm də ölkənin infilyasiya şəraitində maliyyə menecerləri tərəfində istifadə olunan və mütləq nəzər yetirilməli olan proseslərdir və bu da öz növbəsində həm şirkətin və təşkilatın, həm də ölkənin iqtisadiyyatı üçün olduqca önəmli və vacibdir.

## Ədəbiyyat

1. Hacıyev, Y. (2020). Maliyyə iqtisadiyyatı. Bakı, s.35.
2. Ələkbərov, Ə.H., Vəliyev, M.Ə., Purhanı, S.H. (2013). Menecment. Bakı, s.6.
3. İmran, A. (2007). Menecment. Bakı, s.41.
4. Şahbazov, K.A., Məmmədov, M.H., Həsənov, H.S. (2007). Menecment. Bakı, s.781.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 50-53
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 50-53
DOI: https://doi.org/10.36719/2023/3/2

**Toğrul Hüseynov**
Bakı Biznes Universiteti
magistrant
togrul.huseynov @gmail.com

# BÜDCƏ DAXİLOLMALARINDA VERGİTUTMA VƏ AUDİTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *vergi auditi, vergitutma, büdcə gəlirləri, dövlət büdcəsi, vergi sistemi*
***Keywords:*** *tax audit, taxation, budget revenues, state budget, tax system*

Tezisdə müasir şəraitdə vergitutma və auditin inkişaf istiqamətlərindən bəhs edilir. Onların hər biri üzrə audit nəzarətinin reallaşmasının başlıca mərhələləri və xüsusiyyətləri açıqlanır. Son illər ölkəmizdə beynəlxalq təcrübəyə əsaslanan müasir vergitutma sahəsində aparılan davamlı iqtisadi islahatlar çox məqsədəuyğundur. Məqalədə eyni zamanda təhlil nəticəsində tədqiq olunan sahə üzrə mövcud problemlər təyin edilmişdir. Hal-hazırkı vaxtda Azərbaycanın maliyyə təşkilatlarının beynəlxalq kapital bazarına qoşulması, xarici investorlar üçün cazibədar investisiya mühitinin yaradılması, ölkəmizdə mövcud olan maliyyə sisteminin beynəlxalq aləmdə qəbul olunan şərtlərə uyğulaşdırılması nöqteyi-nəzərindən audit və vergi sisteminin mütərəqqi şərtlər səviyyəsində yenidən qurulması ən aktual problemlər kimi qarşıya çıxmışdır. Hal-hazırda da gündəlik həyatımızda rast gəldiyiməz iqtisadi cinayətlərin və dövlət vəsaitlərindən qanunsuz istifadə hallarının minimumlaşdırılmasında dövlətin vergi nəzarətinin daha da gücləndirilməsi mühüm rol oynayır.

Büdcə büdcəsinin gəlirlərinin formalaşmasında dövlət büdcəsindən hesablanmış vergi yığımları əhəmiyyətli tərzdə

vergi ödəyicilərinin qaydasına-qanunlara yanaşması, onların qanunvericilikdən istifadə etdiyi tələblərə ciddi şəkildə baxılan bilavasitə vəsaitləri. Beləliklə, vergtutma bir səmtdən gərəkli maliyyə ehtiyatlarının dövlət büdcəsinə tələb olunan vaxtda daxilini reallaşdırır, digər prizmadan isə vergi ödəyicilərinin intizamlı davranışına nəzarəti gerçəkləşdirir. Vergitutma dövlətin səmərəli fəaliyyətinin gücləndirilməsinin tərkib hissəsi hesab edilib, hökumətlər və vətəndaşlar dairəsində sosial müqavilə, arasında dialoqu təşviq etməklə dövlətlər və onların vətəndaşları üçün vergitutma prosesi daha effektiv və hesabatlı olmaq üçün mərkəzdir. Vergi inzibatçılığında başlayan islahatlar ictimaiyyətin digər hissələrinə şaxələnməsi realdır.

Sahibkarlıq fəaliyyətinin bir növü olan audit dövlətin və biznesmenlərin mənafeyi ilə bağlı məsələlərin effektiv həllinə imkan yaradan obyektiv, qərəzsiz və müstəqil analitik-nəzarət infrastrukturudur (Abbasov, Abbasov, 2017). Ümumiyyətlə, bazar infrastrukturları içərisində auditin özünəməxsus layiqli yeri, mövqeyinin mövcudlugun desək yanılmarıq. Auditor yoxlamaları müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin hüquqi normativ aktlara uyğunluğunu, mühasibat hesabatlarının və əmlakın qiymət-ləndirilməsinin düzgünlüyünü müəyyən etmək, çatışmamazlıqları aşkara çıxarmaq, mühasibat uçotu qurmaq, vergilərin hesablanması və bəyannamələrin hazırlanması, həmçinin sahibkarların fəaliyyətlərinin təkmilləşdirilməsinin perspektiv inkişaf istiqamətlərinə dair təklif və tövsiyələr irəli sürmək məqsədi güdür.

Vergi auditi dövlət qulluğunun idarəetmə funksiyasının üsullarından biri olmaqla ödəyicilərin təsərrüfat-maliyyə işini optimal vəziyyətə gətirmək, vergi qanunvericiliyinə qanun çərçivəsində əməl etmək məqsədi daşıyan müşahidə sistemidir. Vergi yoxlamasının əsas əsas prinsipləri qanunçuluq, mütəşəkkillik, ödəyiciyə zərər vurmamaq prinsipi, qanun

pozuntularının qarşısının alınması və vergi xidmətinin gündəlik işinə nəzarətdir. Uzunmüddətli perspektivdə təsərrüfat subyektlərinin səmərəli iş tərəqqisini, strateji inkişaf tempinin təmin edilməsini və rəqabət qabiliyyətinin gücləndirilməsini şirkətlərdə audit sistemi əhəmiyyətli dərəcədə müəyyən edir.

Vergitutmadan əldə edilən gəlirin məbləği bilavasitə vergi potensialı ilə bağlıdır. Vergi yığımında əsas ümummilli məqsədlərin həlli, antiböhran layihələrin artımı və sabit məhsuldar iqtisadi inkişafa yiyələnməkdən ötrü vergi potensialının obyektiv qiymətləndirilməsi potensialı ortaya çıxır ki, bu zaman verginin vəziyyəti haqqında ekstrospektiv məlumatlara ciddi ehtiyac duyulur (Musayev, Kəlbiyev, 2002).

Belə ki, vergi nəzarəti bir istiqamətdən dövlət büdcəsinə lazımi maliyyə vəsaitlərini lazımi vaxtda reallaşdırır, digər tərəfdən isə vergi ödəyicilərinin intizamlı davranışına nəzarət edir. Vergi nəzarəti səlahiyyətli dövlət orqanlarının tam və məqsədyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə əsaslanır və vergiyə dair tələblərin həyata keçirilməsi ilə bağlı məlumatların toplanmasına və təhlilinə yönəldilir. Bu nəzarət növünün son məqsədi vergi qanunvericiliyinin pozulması hallarını operativ şəkildə aşkar etmək, onlara qarşı qəti tədbirlər görmək və son nəticədə bütün sahibkarlıq subyektləri üçün bərabərlik və ədaləti təcəssüm etdirən əlverişli vergi mühitinin yaradılmasıdır.

Respublikada iqtisadi artımın bərqərar olması, qeyri-neft sektorunda diqqət cəlb edən pozitiv tendensiyalar, həmçinin biznes mühitində müşahidə olunan davamlı tərzdə şəffaflaşması dövlət büdcəsinə vergi daxilolmalarının dinamikası göstəricisindən müsbət töhfə verməklə yan ötüşməmişdir. Ötən illə müqayisəyə gətirildikdə 2022-ci ildə vergi daxilolmaları önəmli şəkildə yüksələrək 2021-ci illə müqayisəyə gətirildikdə 82,2 faiz artaraq, ilk dəfə rekord

həddlə 15 milyard manatı ötüb. Qeyri-neft-qaz sektorundan daxilolmalar isə özlüyündə 27,9 faiz artaraq 8 milyard 134,9 milyon manata səviyyəsinə qədər yüksəlib.

Xüsusilə büdcə gəlirlərinin aparıcı mənbəyi kimi ölkənin neftdən asılılığının minimuma endirilməsi vergi nəzarəti sahəsində əsaslı dəyişikliklər tələb edir. Belə bir şəraitdə, xüsusilə pandemiya dövründə neft gəlirlərinin azaldığı bir vaxtda, dövlət büdcəsinin gəlirlərinin azalması ilə paralel olaraq, dövlət büdcəsinin digər mühüm sahələrində də vergi pozuntularının baş vermə ehtimalı yüksəkdir. Sadəcə olaraq büdcə qanunvericiliyini sərtləşdirmək və ya yumşaltmaqla uçurumu aradan qaldırmaq real görünmür.

İqtisadi sferada respublikamızda uğurla gerçəkləşdirilən məqsədyönlü islahatlar dövlətin idarəetmə funksiyalarının, xüsusən də vergitutma və audit fəaliyyətinin yenidən qurulmasını zəruririyyətə çevirir. Bu yanaşmadan, beynəlxalq sferada vergi nəzarətinin təşkili praktikasının kompleks araşdırılması və onun ölkəmizdə tətbiqi imkanlarına aydınlıq gətirilməsi özlüyündə böyük önəm əks etdirir.

## Ədəbiyyat

1. Abbasov, A.B., Abbasov, S.A. (2017). Biznesin əsasları. Dərs. Monoqrafiya, 385 s.
2. Musayev, A.F., Kəlbiyev, Y.A. (2002). AR vergi xidməti: islahatlar və nəticələr. Bakı: “Təfəkkür”, 324 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 54-57
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 54-57
DOI: https://doi.org/10.36719/2023/3/2

**Şəbnəm Rüstəmli**
Azərbaycan Universiteti
magistrant
shabnamrustamlii@gmail.com
**Səbinə Orucova**
Azərbaycan Universiteti
magistrant
sabina.orujova@student.au.edu.az
**Elçin Həsənov**
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
elgafgas@yahoo.com

# İQTİSADİ İNFORMASİYA SİSTEMİNDƏ İNFORMASİYA TƏMİNATININ TƏRKİBİ VƏ MƏZMUNU

***Açar sözlər:*** *informasiya bazası, iqtisadi informasiya sistemi, istinad faylları, arxiv faylları, infobaza*

***Keywords:*** *information base, economic information system, reference files, archive files, infobase*

Bildiyimiz kimi, istənilən bir mühitdə qərarların hazırlanmasını və qəbul edilməsini təmin etmək üçün informasiya proseslərini həyata keçirən aparat və proqram vasitələrinin, informasiya resurslarının, inzibati xidmətlərin əlaqəli məcmusu inormasiya sistemi adlanır. Bu sistemin, tələblərə uyğun olaraq öz zamanında işləməsi real dünyada obyektin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması, işlənməsi və yayılmasından ibarət olması ilə müəyyən edilir və bu sistem konkret obyekt üçün yaradılır. Real dünyanın iqtisadi obyekti nəzərdən keçirilməsi onun

iqtisadi informasiya sistemi (EIS) kimi tanınmasına zəmin yaradır (1).

İnformasiya sisteminin əsas hissəsi informasiya bazasıdır və kompüter sisteminin yaddaşında müəyyən bir qaydada toplanaraq fayllar şəklində saxlanılan bu informasiya bazası vasitəsi ilə idarəetmə proseslərinin və tapşırıqlarının informasiya ehtiyaclarının ödənildiyi məlumatların məcmusudur. Fayl iqtisadi problemləri həll etmək üçün nəzərdə tutulmuş homojen struktura sahib qeydlər toplusudur. Qeyd - ümumi açar sahəsi ilə birləşdirilən müəyyən formatlı sahələr toplusudur. Bütün EIS fayllarını müəyyən meyarlara görə təsnif etmək olar: a) emal mərhələləri; b) daşıyıcıların növü üzrə; c) məlumatların tərkibinə görə; d) təyinatına görə; e) məntiqi təşkilatın növünə görə; f) fiziki təşkilatlanma üsulu ilə (2).

Daxiletmə faylları verilənləri daxil etmək və ya əsas faylları yeniləmək üçün ilkin sənədlərdən yaradılır. Nəticəvilik informasiyası olan fayllar çap və ya rabitə kanalları vasitəsilə ötürülmək üçün nəzərdə tutulub və uzunmüddətli saxlanmaya məruz qalmır. Məlumat bazasında saxlanılan əsas fayllara əsas, işçi, aralıq, xidmət və arxiv faylları daxildir. Əsas fayllar vahid qeyd strukturuna malik olmalıdır və operativ və kəsintili məlumatı olan qeydləri ehtiva edə bilər. Əməliyyat faylları bir və ya bir neçə daxiletmə faylı əsasında yaradıla və bir və ya bir neçə ilkin sənədlərin məlumatlarını əks etdirə bilər. Şərti daimi məlumatı olan fayllarda il ərzində 40 %-dən çox olmayan və buna görə də sabitlik əmsalı ən azı 0,6 olan arayış, qiymət, cədvəl və digər növ məlumatlar ola bilər.

Arxiv məlumat faylları maddi istehsal elementlərinin (materiallar, xammallar, əsas vəsaitlər, əmək ehtiyatları və s.) bütün xüsusiyyətlərini əks etdirməlidir. Bir qayda olaraq, kataloqlar təsnifatçılar haqqında məlumat və maddi sferanın elementləri, məsələn, qiymətlər haqqında əlavə məlumatlar

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 54-57
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 54-57
DOI: https://doi.org/10.36719/2023/3/2

ehtiva edir. Standart və qiymət sənədlərində əməliyyatların və xidmətlərin yerinə yetirilməsi üçün istehlak dərəcələri və qiymətlər haqqında məlumatlar olmalıdır. Elektron cədvəl faylları uzun müddət ərzində sabit hesab edilən iqtisadi göstəricilər haqqında məlumatları ehtiva edir, məsələn, saxlama dərəcələri, ayırmalar və s. Plan faylları bütün plan dövrü üçün saxlanılan plan rəqəmlərini ehtiva edir.

Arxiv fayllar verilənlərin emal vaxtını azaltmaq üçün bir neçə əsas fayldan məlumat çıxarmaqla əsas fayllar əsasında xüsusi problemləri həll etmək üçün yaradılır. İstinad faylları iş fayllarından onunla fərqlənir ki, onlar iqtisadi məsələlərin həlli nəticəsində formalaşır, başqa məsələlərin həlli üçün sonrakı istifadə məqsədi ilə saxlanılır. Bu fayllar, eləcə də işləyən fayllar tez-tez istifadə olunarsa, əsas fayllar kateqoriyasına da köçürülə bilər.

Xidmət faylları əsas fayllarda məlumat axtarışını sürətləndirmək üçün nəzərdə tutulmuşdur və bunlara kataloqlar, indeks faylları və kataloqlar daxildir. Arxiv faylları analitik problemlərin həlli üçün istifadə olunan, məsələn, proqnozlaşdırma, problemlər kimi əsas fayllardan tarixi məlumatları ehtiva edir. Arxivləşdirilmiş məlumatlar məhv edildiyi təqdirdə infobazanın bərpası üçün də istifadə edilə bilər.

İnfobazada faylların saxlanmasının təşkili aşağıdakı tələblərə cavab verməlidir: a) bütün idarəetmə funksiyalarını yerinə yetirmək və iqtisadi problemləri həll etmək üçün saxlanılan məlumatların tamlığı; b) saxlanılan məlumatların bütövlüyü, yəni İS-ə məlumat daxil edilərkən məlumatların ardıcıllığının təmin edilməsi; c) məlumatların bütün nüsxələrində məlumatların yenilənməsinin vaxtında və eyni vaxtda olması; d) sistemin elastikliyi, yəni İS-in dəyişən informasiya ehtiyaclarına uyğunlaşması; e) IS strukturunun tələb olunan mürəkkəblik dərəcəsini təmin edən sistemin

DOI: https://doi.org/10.36719/2023/3/2

mümkünlüyü; f) sistemin istifadəçi sorğularına tam uyğun gələn məlumatları axtarmaq və təqdim etmək qabiliyyətinə aid olan informasiya təhlükəsizliyinin aktuallığı; g) informasiya təhlükəsizliyinə tez bir zamanda sorğu tərtib etməyə imkan verən dil interfeysinin rahatlığı; h) giriş hüquqlarının fərqləndirilməsi, yəni hər bir istifadəçi üçün mövcud qeyd növlərinin, sahələrin, faylların və onlar üzərində əməliyyat növlərinin müəyyən edilməsi (3).

Hər bir obyektin dəyəri olduğu kimi, informasiya sistemlərinin iqtisadi qiymətləndirilməsini 3 istiqamətdə aparmaq olar: a) *ənənəvi* – iqtisadi tələbin, xalis gəlirin və mülkiyyətin ümumi dəyəri ilə müəyyən edilən *ənənəvi* maliyyə üsullarıdır; b) *keyfiyyət* – buraya informasiya itisadiyyatını, göstəricilərin balanslaşdırma sistemi və aktiv göstəricilərin idarə edilməsini qiymətləndirilmə metodlarını aid etmək olar; c) *ehtimal* – tətbiq edilən informasia texnologiyaları üçün ədalətli qiymətləndirmə tətbiq edilir (4). Göstərilən qrupların hər birinin öz əhatə dairəsi, konstruktivliyi və müəssisənin inkişaf strategiyasına inteqrasiya imkanları var və bu iqtisadi informasiya mühitini məqsədə uyğun formalaşdırır.

## Ədəbiyyat

1. https://shorturl.at/csAUZ
2. https://studfile.net/preview/9376120/page:20/
3. http://bseu.by/it/tohod/lekcii_3.htm
4. https://fb.ru/article/448852/ekonomicheskie-informatsionnyie-sistemyi-opredelenie-ponyatie-i-struktura

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 58-61
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 58-61
DOI: https://doi.org/10.36719/2023/3/2

**Rahid Bağırzadə**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
rahidbagirzade9@gmail.com
UOT: 379.85

# TURİZM SAHƏSİNDƏ İNNOVATİV FƏALİYYƏTLƏR: MAHİYYƏTİ VƏ SPESİFİKLİYİ

***Açar sözlər:*** *turizm, innovasiya, sənaye, iqtisadiyyat, turizm bazarı*
***Keywords:*** *tourism, innovations, industry, economy, tourism market*

İnnovasiyalar elmi fikrin nailiyyətlərinin həyata keçirilməsi və tətbiqi vasitəsidir. Bu nöqteyi-nəzərdən turizm mürəkkəb sektorlararası sosial-iqtisadi sistem olduğu üçün innovasiya üçün müstəsna dərəcədə geniş sahədir. Turizm təkcə yeni məhsul və ya xidmət yaratmır, həm də idarəetmənin digər sahələrində tətbiq edilən yeniliklərdən istifadə edir. Məsələn, informasiya texnologiyaları sahəsindəki inkişaflardan mehmanxana şirkətləri, turizm agentlikləri, nəqliyyat şirkətləri tərəfindən geniş istifadə olunur. Turizm məhsulunun yaradılması, turistlərə xidmət göstərilməsi, avia və dəmir yolu biletlərinin bronlaşdırılması − bütün bu proseslər informasiya texnologiyaları sahəsində ən son nailiyyətlərin tətbiqi ilə keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir.

İnformasiya texnologiyalarının səmərəli əməkdaşlığı təmin etməsi və qloballaşma üçün alətlər təqdim etməsi turizm sənayesində çalışan menecerlər üçün yeni tətbiq sahələri yaratdı. Gündəlik fəaliyyətlərin həyata keçdiyi müəssisələrdə

məlumatın yaradılması, toplanması, işlənməsi və ötürülməsi həyati əhəmiyyət kəsb edir və bunun sayəsində informasiya texnologiyaları gözlənilmədən turizm müəssisələrinin ən vacib elementlərindən birinə çevrildi. Həm turizm təklifinin, həm də turizm tələbinin sürətli inkişafı informasiya texnologiyalarını bu sənayenin əsas tərəfdaşına çevirdi və buna görə də informasiya texnologiyaları turizmin marketinqi, paylanması, təşviqi və koordinasiyasında getdikcə daha mühüm rol oynayır (Coshkun, Yuksek, 2010).

Turizmin innovativ inkişafına təsir edən əsas amillərə aşağıdakılar daxildir:

- elmi-texniki inkişafın səviyyəsi, iqtisadi və siyasi sabitlik, müasir qanunvericilik bazasının mövcudluğu və digər xarici amillər;
- tələb olunan miqdarda təbii, maliyyə və digər resursların olması;
- turizm infrastrukturunun inkişaf səviyyəsi;
- turizm bazarında mövcud vəziyyət, habelə rəqabətin dərəcəsi və növü;
- turizm fəaliyyətinin bütün sahələrində yüksək ixtisaslı kadrların olması.

Qeyd etmək lazımdır ki, sosial-iqtisadi sistemin innovativ potensialına təsir edən ən mühüm amil təkcə bütün növ resursların tələb olunan həcminin mövcudluğu deyil, həm də onların keyfiyyəti, strukturu, tarazlığı və istifadəsinin rasionallığıdır. Bu göstəricilərin təkmilləşdirilməsi istifadə olunan resursların miqdarını artırmadan resurs potensialını artıra bilər.

Turizm sahəsində innovativ fəaliyyətin əsas istiqamətlərini ayıraq:

Müasir dövrdə xüsusilə inkişaf etmiş ölkələrdə tələb gözləntiləri yüksək olan və daha çox məlumatlılaşan turizm

istehlakçılarının məhdud vaxta sahib olması, turizm məhsulları haqqında etibarlı və dəqiq məlumat əldə etmək və qısa zaman ərzində rezervasiya edə bilməsi üçün texnologiya və internetdən istifadə bir zərurətə çevrilmişdir. Turistik məhsul haqqında geniş məlumat əldə edə bilən turistik istehlakçıları, axtardıqları məhsulları asanlıqla seçə bilirlər. Bundan əlavə, texnoloji inkişaflar turistlərə təklif olunan imkanları artırır və bunun sayəsində onların səyahət təcrübələrini daha da maraqlı edir (Yilmaz, Yilmaz, 2004: 157:175).

İstənilən sənayedə innovativ fəaliyyətin özünəməxsus xüsusiyyətləri vardır və turizm sənayesi də istisna deyil. Bu, turist xidmətlərinin xüsusiyyətləri, onlara olan tələb və təkliflə bağlıdır. Turizm sahəsində innovasiya prosesinin spesifikliyini müəyyən edən amilləri nəzərdən keçirək.

1. Turist xidmətləri, hər hansı digər xidmətlər kimi, saxlama qabiliyyətinə malik deyildir. Nəticə etibarilə, turizm şirkətlərinin menecerləri turizm məhsulunu ciddi şəkildə müəyyən edilmiş vaxt çərçivəsində satmalıdırlar ki, bu da onları daim yeni bazarlar və turizm məhsulunu tanıtmaq üçün yeni yollar axtarmağa məcbur edir.
2. Əksər istiqamətlərin turizm xidmətlərinin satış həcmi mövsümi dalğalanmalara məruz qalır. Mövsümdənkənar dövrlərdə əlavə təkliflər, qiymət siyasəti, təklifin diversifikasiyası və s. köməyi ilə tələbi əlavə stimullaşdırmaq lazımdır. Fikrimcə, turizm xidmətlərinin xüsusiyyətlərinə təkcə mövsümi tərəddüdlərə məruz qalmağı deyil, həm də siyasi, iqtisadi, ekoloji və digər xarici amilləri aid etmək lazımdır.
3. Turist xidmətinin göstərilməsi müəyyən bir yerə, məsələn, hava limanına, otelə, sərgi obyektinə və s. bağlıdır.
4. Turist xidməti almaq üçün istehlakçı müəyyən məsafə qət etməli, daimi yaşayış yerini tərk etməlidir.

5. İstehlakçı və turist xidmətləri istehsalçısı turizm bazarında coğrafi olaraq səpələnmişdir, buna görə də geniş auditoriyanı əhatə edən tanıtım tədbirləri istehsalçı üçün xüsusilə aktuallaşır.

Göründüyü kimi, turizm fəaliyyəti daim yeni yollar və həll yolları axtarışından, nəticə etibarilə innovasiyalardan ibarətdir. İnnovativ ideyaları və inkişafları həyata keçirmək üçün müasir bazar tələblərinə cavab verən çevik, adaptiv çoxsəviyyəli idarəetmə sistemi formalaşdırmaq lazımdır.

## Ədəbiyyat

1. Coshkun, I.O. & Yuksek, G. (2010). Information Technologies in Tourism Enterprises TUROFED, V. 51.
2. Yilmaz, B.S. and Yilmaz, O.D. (2004). The Effects of Globalization and Information Technologies on the Tourism Industry, 1st Balikesir National Tourism Congress Proceedings, p.157-175.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 62-65
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 62-65
DOI: https://doi.org/10.36719/2023/3/2

**Nigar Əsgərzadə**
Bakı Dövlət Universiteti
magistrant
asgnigar@gmail.com

# AZƏRBAYCANDA İNNOVASİYA TƏYİNATLI İQTİSADİYYATIN FORMALAŞDIRLMASI

***Açar sözlər:*** *innovasiya sferası, innovasiya fəaliyyəti, strategiya, innovasiyalı inkişaf, rəqabət qabilliyyəti*
***Keywords:*** *sphere of innovation, innovation activity, strategy, innovative development, competitiveness*

Tezisdə Azərbaycan iqtisadiyyatın innovasiyalı inkişafı üçün dövlətdövlət dəstəyinin əhəmiyyəti və onun səciyyəvi əlamətləri açıqlanmışdır. Ölkə iqtisadiyyatının modernləşdirilməsi və innovasiyalı inkişaf yoluna keçməsi məqsədilə dövlətin inkişaf strategiyasının formalaşdırılmasının əsas istiqamətləri əsaslandırılmış və onların reallaşdırılmasının təşkilati-iqtisadi və maliyyə mexanizmləri işlənib hazırlanmışdır.

Müasir dövrdə dominatlaşan və rəqabət üstünlüyü ilə səciyyələnən innovasiyalı iqtisadiyyat şəraitində təsərrüfat subyektləri bazar seqmentinə uyğun yüksək keyfiyyətli məhsul istehsalının genişləndirilməsi, material aktivlərinin rolunun artırılması və intellektual kapitalın investisiyalaşdırılması məsələlərinə xüsusi diqqət yetirməlidirlər. Bu gün müəssisə və təşkilatlar arasında rəqabət mübarizəsi kapital bazarlarına və maddi qiymətlərə malik olmaq uğrunda deyil, innovasiyaların işlənməsi və tətbiqinin sürətləndirilməsini təmin etmək uğrunda getməlidir. Qeyd etmək lazımdır ki, son illər Azərbaycan Respublikasında dövlət və elmi ictimaiyyət iqtisadiyyatın innovasiyalı inkişaf məsələlərini daim diqqət

DOI: https://doi.org/10.36719/2023/3/2

mərkəzində saxlamış, elmi-tədqiqat və təcrübə konstruktiv işlərinin (ETTKİ) təşkili istiqamətində müəyyən stimillaşdırıcı və tənzimləyici tədbirlər həyata keçirmişlər. Lakin aparılan iqtisadi və institusional islahatların lazımi nəticələr verməməsi müasir çağırışlar kontekstində milli iqtisadiyyatın innovasiyalı inkişafı üçün əlverişli mühitin yaradılmasını və dövlət tənzimlənməsi mexanizminin təkmilləşdiriilməsini zəruri edir.

İqtisadiyyatın innovasiyalı inkişafı müasir dünyada hər bir ölkə üçün iqtisadi üstünlüyü təmin edən əsas vasitə kimi çıxış edir. Əhalisinin hər nəfərinə düşən Ümumi Daxili Məhsulun (ÜDM-nin) həcminə görə öndə olan dünya ölkələri (ABŞ, Sinqapur, İsveçrə və s.) yüksək iqtisadi nəticələrə məhz innovasiya imkanlarından geniş istifadə etmək nəticəsində nail olmuşlar. İqtisadi parametrlərin təhlili göstərir ki, innovasiyalı inkişaf yolu ilə gedən ölkələrin iqtisadiyyatı təbii resurslardan istifadəyə əsaslanan ölkələrinkindən əhəmiyyətli dərəcədə irəlidədir.

Milli iqtisadiyyatın inkişafının stimullaşdırıcı qüvvəsi innovasiyalar hesab olunur və respublikamızda rəqabət qabiliyyətinin yüksəldilməsinin əsaslarını innovasiyaların inkişafı təşkil edir. İnnovasiyalar ölkənin iqtisadi artımında əhəmiyyətli rol oynayır. Yeni məhsulların və istehsal fəaliyyətinin üzə çıxarılması, mövcud məhsulların və ya istehsal fəaliyyətinin təkmilləşdirilməsi yolu ilə iqtisadi səmərə yaratmaq mənasını verən innovasiya, davamlı iqtisadi artımın və ölkələrin rəqabət qabiliyyətinin təmin edilməsində böyük əhəmiyyət kəsb edir. İnnovasiyaların mövcudluğu qlobal rəqabət qabiliyyətinin əldə edilməsində, məhsuldarlığın artırılmasında, iqtisadi artımın və bununla da sosial rifahın və həyat keyfiyyətinin yüksəldilməsində ən fundamental elementlərdən biri kimi qəbul olunur. Son 25 ildə xüsusilə inkişaf etmiş ölkələrin iqtisadi artımına innovasiyaların

**ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 62-65**
**SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 62-65**
**DOI: https://doi.org/10.36719/2023/3/2**

töhfəsinin 50 %-dən çox olması bunun ən bariz göstəricilərindən biri hesab olunur .

Hər bir ölkədə məşğulluğun təmin olunması sosial-iqtisadi siyasətin əsas tərkib hissələrindən biri olmaqla, əhalinin sosial təminatının yaxşılaşdırılmasında ən mühüm vasitədir. Eyni zamanda, məşğulluq, təkcə işləyən əhalinin deyil, həmçinin işləyərək sığorta sistemində iştirak edənlərin də bu əsasda pensiyaya çıxdıqdan sonra pensiya təminatında müsbət rol oynayır. Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi də əhalinin səmərəli məşğulluq imkanlarının artırılmasıdır. Bunun nəticəsi olaraq Azərbaycanda yeni iş yerlərinin yaradılması daimi xarakter almışdır, 2003-2018-ci illərdə ölkəmizdə yeni yaradılan iş yerlərinin sayı 2 milyondan çoxdur. Ölkənin demoqrafik inkişaf perspektivlərinə, ölkənin iqtisadi prioritetlərinə əsaslanan "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir. 2005-ci illə müqayisədə 2018-ci ildə ölkəmizdə iqtisadi fəal əhalinin sayı 17,2 faiz artaraq 4,380 milyon nəfərdən 5,133 milyon nəfərə, iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların sayı isə 20,0 faiz artaraq

4,062 milyon nəfərdən 4,879 milyon nəfərə çatmışdır. 2005-ci illə müqayisədə 2018-ci ildə iqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların xüsusi çəkisi artmış, işsizlərin xüsusi çəkisi isə ciddi şəkildə azalaraq 4,9 faizə enmişdir.

"Məşğulluq haqqında" Qanuna görə qeyri-formal məşğulluq – Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi (kontrakt) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsidir. Qeyri-formal məşğulluq daha çox özünü qeyri-dövlət sektorunda, xüsusilə də, tikinti və xidmət sektorunda göstərir. Bu, bütün dünya ölkələri üçün xarakterikdir. Dünya Bankının hesablamalarına görə dünyada pərakəndə satış, tikinti və bu kimi bəzi sahələrdə məşğul olanların 80 faizini qeyri-leqal fəaliyyət göstərənlər təşkil edir. Ümumiyyətlə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının araşdırmalarına görə dünyada 1 milyard 800 milyondan artıq insan qeyri-formal əmək bazarının iştirakçısıdır. Qeyri-formal məşğulluğun 93 faizi inkişaf etməkdə olan ölkələrin payına düşür. Qanunvericiliyə görə, əmək müqaviləsi, xidməti müqavilə ilə çalışanlar, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, torpaq mülkiyyətçiləri daxil olmaqla qanuni əmək və yaxud sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər kəs (ev təsərrüfatı subyektləri) məcburi dövlət sosial sığorta ödənişi etməlidir. Qeyri-formal məşğulluq işçini sosial təminat hüquqlarından (işsizliyə görə qanunvericiliklə müəyyən

olunmuş dövlət təminatını almaq, iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək, sosial məzuniyyət ala bilmək, gələcəkdə pensiya almaq və s.) məhrum edir. Həmçinin qeyri-formal məşğulluq vergi və sosial sığorta daxilolmalarına ciddi ziyan vurur. Ona görə də hər bir işəgötürən və işçi arasında əmək münasibətləri rəsmiləşdirilməlidir. Əhali arasında bu məsələ ilə bağlı ciddi maarifləndirmə işləri aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu istiqamətdə ardıcıl və məqsədyönlü işlər görür. Bu işlər, həmçinin nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin xətti ilə mütəmadi olaraq işəgötürənlər və işçilərin iştirakı ilə əmək qanunvericiliyi, onun tətbiqi ilə bağlı, həmçinin qeyri-formal məşğulluğunun qarşısının alınması mövzularında maarifləndirici tədbirlərin təşkil olunması təqdirəlayiqdir. Nümunə üçün, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə 2020-ci ildə QHT layihələrinin maliyyələşməsi ilə bağlı qrant müsabiqəsi elan etmişdir. Bu qrant müsabiqəsinin mövzularından bir neçəsi də məhz qeyri-formal məşğulluğa həsr olunmuşdu. Düşünürəm ki, maarifləndirmə prosesinə vətəndaş cəmiyyəti institutlarının cəlb olunması işin səmərəliliyini daha da artıracaq.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 195-198
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 195-198
DOI: https://doi.org/10.36719/2023/3/2

**Murad Qürbətov**
Bakı Biznes Universiteti
magistrant
qurbetovm@gmail.com

# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA VERGİTUTMA MEXANİZMİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *vergi siyasəti, işğaldan azad olunmuş ərazilər, vergi güzəştləri, investisiya təşviqi sənədi, vergitutma mexanizmi*

***Keywords:*** *tax policy, territories exempted from occupation, tax benefits, investment promotion document, taxation mechanism*

Ölkəmizdə 2014-cü ildən ardıcıl olaraq qəbul olunan regional inkişaf proqramlarının icrasının nəticəsi olaraq regionlarımız, rayon və kəndlərimizin sosial-iqtisadi vəziyyətində əhəmiyyətli dərəcədə inkişafa nail olunmuş, əhalinin maddi və sosial durumu yaxşılaşmış, regionlarda çalışan sahibkarlar üçün əlverişli investisiya mühiti yaradılmış, istər vətəndaşlar istərsə də, sahibkarlıq subyektləri üçün iqtisadi, sosial və mədəni infrastrukturun yaradılması təmin olunmuşdur. Məhz ölkədə son illərdə həyata keçirilən bu uğurlu siyasətin məntiqi nəticəsidir ki, digər sahələrdə olduğu kimi ölkəmizin hərbi qüdrəti də artmış və bunun sayəsində 44 gün davam edən İkinci Qarabağ müharibəsində ordumuz düşmənin layiqli cavabını verərək əzəli torpaqlarımızı düşmən tapdağından azad etmişdir. Ərazilərimiz işğaldan azad olunduqdan sonra qısa müddətdə ərazilərimizin bərpası işinə başlanılmış və bu sahədə görülən işlər hal-hazırda da uğurla davam etməkdədir. Adı çəkilən ərazilərin iqtisadi

imkanlarından, təbii resurslarından və əlverişli turizm potensialından düzgün formada istifadə olunmaqla inkişaf proqramlarının hazırlanması və bu işlərin səmərəli idarəetmə mexanizminin təşkil olunmasının zərurililiyi azad olunmuş ərazilərimizin iqtisadi rayonlar üzrə bölgüsü məsələsinə yenidən nəzər salınmasını meydana çıxarmışdır.

Qeyd olunanlar ilə əlaqədar olaraq ölkə başçısı tərəfindən 07 iyul 2021-ci il tarixdə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanmış və Fərmana əsasən ölkənin yeni iqtisadi rayonunlarının bölgüsü müəyyən edilmiş və iqtisadi rayonların sayı 10-dan 14-ə artırılmışdır. İşğaldan azad olunan əraziləri də özündə ehtiva edən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yeni yaradılmışdır. Qarabağ iqtisadi rayonu Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını özündə birləşdirir. Yeni təşkil olunmuş Şərqi Zəngəzur iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxil edilmişdir.

İşğaldan azad olunmuş ərazilərin bərpasına və inkişafına yönəlik iqtisadi siyasətin həyata keçirilməsi üçün təbii ki, ilk növbədə maliyyə resurslarına ehtiyac vardır. Bu məqsədlə bir çox maliyyə resurslarından, əsasən dövlət büdcəsindən, Neft fondunun vəsaitlərindən, beynəlxalq kredit ittifaqları tərəfindən ayrılan kreditlər, qrant və ianələr, həmçinin qanunla istifadəsi məhdudlaşdırılmayan digər maliyyə vəsaitlərindən istifadə oluna bilər. Artıq indidən görünür ki, xarici şirkətlərin və investorların bərpa quruculuq işlərinə maraqları böyükdür və bir çox layihələrin icrasında artıq iştirak da edirlər.

Bərpa quruculuq işləri yekunlaşdıqdan sonra iqtisadiyyatın qısa müddətdə canlanması üçün regionda xüsusi stimullaşdırıcı və təşviqedici iqtisadi siyasətin həyata keçirilməsi zəruridir. Təbii ki, dövlət bu stimullaşdırıcı tədbirləri həyata keçirmək üçün əsas iqtisadi alətlər olan vergi və gömrük güzəştlərindən,

azadolmalarından istifadə etməklə həyata keçirə bilər. Regionda yeni yaradılacaq sənaye parklarının rezidentləri üçün artıq qanunvericilikdə bu güzəştlər öz əksini tapmışdır. Belə ki, ilk növbədə parkın rezidentləri AR VM-ə əsasən böyük güzəştlər ilə əhatə olunmuşdur. VM-nin 13-cü maddəsində ilk olaraq sənaye parkının rezidenti anlayışı verilmişdir (AR Vergi Məcəlləsi, 2021).

Daha sonra isə VM-nin 102.1.21-ci və 106.1.13-cü maddələrinə əsasən parkların rezidenti olan fiziki şəxslərin gəlirləri və hüquqi şəxslərin mənfəətləri sənaye parkında uçota durduğu hesabat ilindən etibarən 10 il tarixə gəlir və mənfəət vergisini ödəməkdən azad edilirlər. Təbii ki, 10 il müddətinə gəlir və mənfəət vergisindən azad olunma sahibkarlarda bu parklarda fəaliyyət göstərməyə böyük maraq yaratmaqla, eyni zamanda əldə etdikləri mənfəəti yenidən investisiya şəklində fəaliyyətlərinin genişləndirilməsinə sərf etmək imkanı yaradır. Bu isə dövlət tərəfindən bu sahibkarlara əlavə maliyyə resursu təqdim etməsi anlamına gələ bilər. Digər çox önəmli bir güzəşt isə parkın rezidentlərinə əlavə maliyyə resursu sərf etmədən,başqa sözlə maliyyə vəsaitlərinə qənaət etməklə istehsal yerlərinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi, həmçinin idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı AR VM-nin 164.1.16-cı maddəsinə əsasən əlavə dəyər vergisindən azad olunur. Bundan da əlavə, VM-nin 164.1.28-ci maddəsinə əsasən parkın rezidentləri müəyyən olunmuş fəaliyyətinə uyğun olaraq, bu fəaliyyətin həyata keçirilməsi üçün tələb olunan bütün malların idxalı 2016-cı il mayın 1-dən 10 il müddətinə əlavə dəyər vergisindən azad olunur (AR Vergi Məcəlləsi, 2021).

Qeyd olunan gəlir, mənfəət və ƏDV üzrə verilmiş güzəştlərdən əlavə əmlak və torpaq vergisi üzrə də tam həcmdə vergi azad olmaları verilmişdir. Belə ki, AR VM-nin 199.7-ci

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 195-198
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 195-198
DOI: https://doi.org/10.36719/2023/3/2

və 207.3-cü maddələrinə əsasən parkın rezidentləri parkın ərazisində uçota durduqları ildən etibarən fəaliyyətləri üzrə istifadə olunan əmlak və torpaq sahələrinə görə 10 il müddətinə vergi ödəməkdən azad olunurlar.

Vergi güzəştlərindən əlavə parkın rezidentləri üçün istehsal prosesində istifadə olunacaq qurğuların, avadanlıqların və istehsal vasitələrinin idxalı Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanununun 20.0.19-cu maddəsinə əsasən parkın ərazisində qeydiyyata alındıqdan sonra 7 il müddətinə, istehsal fəaliyyətləri üzrə bağlı tələb olunan bütün növ malların idxalı üzrə isə bu qanunun 20.0.20-ci maddəsinə əsasən 2016-cı ilin 1 may tarixindən 10 il müddətə gömrük rüsumları ödəməkdən azad olunurlar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Vergi Məcəlləsi". (2001). Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 199-202
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 199-202
DOI: https://doi.org/10.36719/2023/3/2

**Orxan Nağıyev**
Bakı Biznes Universiteti
magistrant
nagiyevorxan2000@gmail.com

# İSTEHSALIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN MAHİYYƏTİ VƏ MEYARI

***Açar sözlər:*** *istehsal, iqtisadi səmərəlilik, meyar, istehsalın məqsədi, ölçü*
***Keywords:*** *production, economic efficiency, criterion, goal of production, measure*

Məlumdur ki, ictimai istehsalın məqsədi − cəmiyyət üzvlərinin və cəmiyyətin özünün ehtiyaclarını müxtəlif əmək məhsulları və xidmətlərlə təmin etməkdir. Bu məqsədə nail olmaq üçün, ilk növbədə, cəmiyyətin malik olduğu iqtisadi potensialdan tam istifadə olunmalı, ictimai istehsalın iqtisadi səmərəliliyi yüksəldilməlidir. İctimai istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi isə iqtisadi, sosial, təşkilati-texniki tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi ilə yanaşı, "istehsaldankənar" tədbirlərin tətbiqini də tələb edir. Başqa sözlə, ictimai istehsalın iqtisadi səmərəliliyini düzgün qiymətləndirmək üçün onun meyan və göstəriciləri elmi-nəzəri və metodoloji cəhətdən dəqiq əsaslandırılmalıdır. Çünki hər hansı bir sosial-iqtisadi prosesin kəmiyyət və keyfiyyət cəhətlərini özündə tam və dəqiqliklə əks etdirən meyar və göstərici (yaxud göstəricilər sistemi) olmadan həmin prosesin idarə edilməsi qeyri-mümkündür.

Ümumiyyətlə, meyar dedikdə hər hansı şeyə qiymət və tərif vermək, yaxud onu təsnif etmək üçün əsas əlamət nəzərdə tutulur. Məlumdur ki, hər hansı bir məhsulun hazırlanması prosesi maddiləşmiş və canlı əmək məsrəfləri nəticəsində baş

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 199-202
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 199-202
DOI: https://doi.org/10.36719/2023/3/2

verir. Müxtəlif istehsal şəraitində məhsul vahidinin istehsalı üçün müxtəlif miqdarda ictimai əmək sərf edilə bilər. Deməli, məhsul istehsalı üçün müxtəlif istehsal şəraitində müxtəlif miqdarda ictimai əmək sərf edilir. Beləliklə, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinin iqtisadi məzmunu məhsul vahidinin hazırlanması üçün ictimai əmək məsrəflərinin aşağı salınmasından ibarətdir.

İstehsalın iqtisadi səmərəliliyini müəyyən edərkən iki növ məsrəfləri: cari və birdəfəlik məsrəfləri fərqləndirirlər.

Cari məsrəflər müəssisənin il ərzində məhsul istehsalına çəkdiyi bütün xərcləri səciyyələndirir və ona görə də bəzən buna istehsal xərcləri də deyilir. Müəssisə miqyasında cari məsrəflərə il ərzində sərf edilmiş bütün canlı və maddiləşmiş əmək məsrəfləri aid edilir. Cari məsrəflərdən fərqli olaraq, birdəfəlik məsrəflərə əsas fondların yaradılması və onların geniş təkrar istehsalı üçün istehsalın yeni texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi məqsədinə yönəldilmiş investisiya qoyuluşu şəklində bütün vəsaitlər aiddir.

İqtisadi ədəbiyyatlarda “İqtisadi səmərə” və “İqtisadi səmərəlilik” anlayışları fərqləndirilir. İqtisadi səmərə ictimai istehsalın səmərəliliyinin artınimasına yönəldilmiş bu və ya digər tədbirlərin həyata keçirilməsi sayəsində əldə edilən nəticəni xarakterizə edir. Özü də bu nəticə iqtisadi səmərədən başqa sosial və texniki-iqtisadi şəkildə də ola bilər. Əgər bu və ya digər tədbirin həyata keçirilməsi nəticəsində müəssisənin istehsal-təsərrüfat fəaliyyətini səciyyələndirən iqtisadi göstəricilər yaxşılaşarsa, onda əldə edilən səmərə iqtisadi; əmək kollektivinin sosial şəraiti yaxşılaşarsa − sosial səmərə və nəhayət, maşın və avada-nlıqların texniki parametrləri və buraxılan məhsulun keyfiyyət göstəriciləri, yəni texnikanın məhsuldarlığı, gücü, sürəti, istismar rahatlığı, yanacaq işlətmə qabiliyəti və s. yaxşılaşarsa − texniki-iqtisadi səmərə adlanır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 199-202
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 199-202
DOI: https://doi.org/10.36719/2023/3/2

İqtisadi səmərənin ölçüsü bu və ya digər tədbirin səmərəlilik dərəcəsi ilə ifadə olunur. Məsələn, yeni texnikanın tətbiqinin iqtisadi səmərəliliyi vaxt vahidi ərzində (vaxt vahidi kimi il, rüb, ay qəbul edilə bilər) əldə edilən iqtisadi səmərənin nəticəsinin sərf olunan canlı və maddiləşmiş əməyin kəmiyyətinə nisbəti kimi təyin edilir. Adətən, ictimai istehsalın iqtisadi səmərəlilik meyan kimi ictimai əmək məhsuldarlığının səviyyəsi götürülür. Çünki onun yüksəldilməsi istehsal həcminin artmasına, canlı və maddiləşmiş əmək məsrəfləri arasındakı nisbətlərin dəyişməsi ilə bir vaxtda məhsul vahidinə düşən əmək məsrəflərinin ixtisar edilməsinə (azaldılmasına) gətirib çıxarır. Bu onu göstərir ki, ictimai əməyə mütləq qənaət edildikdə, məhsul vahidinə sərf olunan maddiləşmiş əməyin xüsusi çəkisi nisbətən artır və canlı əməyin payı isə, əksinə, azalır. Bunu əsas götürərək bəzi iqtisadçılar hazırda iqtisadi səmərənin əldə edilməsində canlı əməyin rolunu azaldırlar. Onlar göstərirlər ki, iqtisadiyyatda canlı əməyin payı azaldığı çün, o, iqtisadiyyatın inkişafında artıq əsas amil kimi çıxış etmir. Bu zaman işçi (fəhlə) maşınların, cihazların və qurğuların işinə baxmaq və ona nəzarət etmək, onları sazlamaq və təmir etmək funksiyalarını yerinə yetirir.

Hazırda sənaye müəssisələrində çalışan işçilərin sayı istehsalın mexanikləşdirilmə və avtomatlaşdınlması səviyyəsinin yüksəldilməsi nəticəsində getdikcə azalır, yəni canlı əmək sərfi azalır, istehsal əsas fondların dəyəri isə artır. Lakin bunun əsasında iqtisadiyyatın inkişafında canlı əməyin həlledici rola malik olduğunu inkar etmək düzgün deyildir. Bütün hallarda istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi iqtisadi cəhətdən əsaslandırılmalıdır. Bir tərəfdən, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılmasının lazımi səviyyədə olmaması əmək məhsuldarlığını yüksəltməyin bütün imkanlarından istifadə olunmasına imkan vermir, digər tərəfdən isə − əgər əmək

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 199-202
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 199-202
DOI: https://doi.org/10.36719/2023/3/2

tutumunun azaldılması lazımi əlavə əsaslı vəsait qoyuluşunun ödənilməsini təmin etmirsə, mexanikləşdirmə və ya istehsalın avtomatlaşdırılması özünü doğrultmaya bilər.

Müxtəlif növ məsrəflərin iqtisadi səmərəliliyi istehlak edilmiş ehtiyatlardan istifadə olunması səviyyəsi, istehsalın son nəticələrinin aşkar edilməsi və qiymətləndirilməsi, həmçinin optimal variantın seçilməsi üçün müəyyən edilir. Lakin ictimai istehsalın səmərəliliyinin müəyyən edilməsində özünün miqyasına, öyrənilmə tarixinə, müəssisənin iqtisadi potensialının artırılmasmdakı roluna, iqtisadi inkişaf və sosial tərəqqidəki əhəmiyyətinə və s. əlamətlərə görə investisiya qoyuluşu əvəz edilməzdir. Çünki investisiya qoyuluşunun iqtisadi səmərəliliyi, müəssisənin əsas fondlanmn genişləndirilməsi və sadə təkrar istehsalına çəkilən xərclə bundan alınan nəticə arasındakı əlaqə və kəmiyyət asılılığını səciyyələndirən göstəricidir. İnvestisiya qoyuluşunun bilavasitə nəticəsi istehsal gücünün genişləndirilməsi və qeyri-istehsal obyektlərinin işə salınmasından ibarət olduğu halda, onun son nəticəsi − məhsul istehsalının və sənaye xarakterli xidmətlərin həcminin artmasıdır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 203-206
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 203-206
DOI: https://doi.org/10.36719/2023/3/2

**Nicat Mikayılov**
Bakı Biznes Universiteti
magistrant
nijatmikayilovv@gmail.com

# İNSAN KAPİTALININ İNKİŞAFINDA ALİ TƏHSİLİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *insan kapitalı, təhsil, klassik çaşqınlıq, təcrübə, mükafat*

***Keywords:*** *human capital, education, classical confusion, experience, award*

İnsan kapitalı ideyası XVIII əsrə gedib çıxır. Adam Smit bir millətin sərvətini, biliyini, təlimini, istedadlarını və təcrübələrini tədqiq etdiyi "Millətlərin sərvətinin təbiəti və səbəblərini araşdırmaq" kitabında konsepsiyaya istinad etdi. Adams təklif edirdi ki, təlim və təhsil vasitəsilə insan kapitalının təkmilləşdirilməsi cəmiyyətin kollektiv sərvətinə əlavə dəyər qataraq daha təkmil formaya gətirib çıxarır. Smitin fikrincə, bu, cəmiyyətin qazandığı qələbədir.

İnsan inkişafı konsepsiyası insan həyatının təkcə iqtisadi tərəflərini yox, eyni zamanda onun sosial aspektlərini (təhsil, səhiyyə, ekologiya, demoqrafiya, mədəniyyət, ailə və məişət və s. ) əhatə edir.

İnsan inkişafı – insanları həyatın bütün aspektlərində daha geniş seçim imkanları ilə təmin etmə prosesidir. Bu anlayış heç də birdəfəlik müəyyənləşdirilmiş, məzmunca dəyişməz qalan anlayış deyil və zaman keçdikcə məzmunca daha da zənginləşirrək yeni çalarlar əldə edir.

İnstitusional amillər və karyera uğuru İnsan kapitalı nəzəriyyəsini müxtəlif kontekstlərə universal olaraq tətbiq oluna bilən kimi qəbul edilir. Ó Riain tərəfindən qeyd edildiyi

kimi, insan kapitalı ilə bağlı tədqiqatlar əsasən işəgötürən-işçi münasibətlərinə yönəlmişdir. Universalist nəzəriyyənin diqqət mərkəzində insan kapitalının formalaşmasını fərdi davranış və maraqlarda əsaslandıran "metodoloji fərdiyyətçilik" dayanır. Beləliklə, iqtisadi və sosial mühitin müxtəlif aspektləri insan kapitalının yığılması ilə fərdi gəlirlər, o cümlədən kontekstli dinamizm və əmək bazarının şərtləri, məsələn, həmkarlar ittifaqı səviyyəsi, minimum əmək haqqı, rəqabət səviyyəsi arasındakı əlaqəyə təsir göstərə bilər. Burada biz insan kapitalı nəzəriyyəsinin ilkin olaraq inkişaf etdirildiyi mühiti formalaşdıran iki əsas institusional faktora diqqət yetiririk. Nəzəriyyə 1950-1970-ci illər arasında ABŞ-da işlənib hazırlanmışdır.

Həmin dövrdə ABŞ-da iqtisadi şərait qeyri-adi dərəcədə əlverişli idi, çünki ölkə çiçəkləndi və təhsil vasitəsilə sosial hərəkətlilik imkanları mövcud olduğundan və geniş şəkildə istifadə olunduğundan gəlir bərabərsizliyi azaldı. İmkanların və sosial mobilliyin bu genişlənməsi insan kapitalı iqtisadçılarını nəzəriyyənin həmişə təhsil və iş arasındakı əlaqəni izah edəcəyini təklif etməyə sövq etdi. Bu institusional amillərə uyğun olaraq, modelimizə daxil etdiyimiz iki dəyişən ümumi ölkənin inkişafı və gəlir bərabərsizliyidir. Ölkənin inkişaf səviyyəsi ölkənin sərvətini müəyyən etdiyi halda, gəlir bərabərsizliyi bu sərvətin necə bölüşdürüldüyünü təsvir edir. Beləliklə, hər iki dəyişən fərdlərin öz insan kapitalına investisiya etmək qabiliyyətinə təsir göstərə bilər.

Xüsusilə, tədqiqatlar göstərir ki, təhsildən əldə olunan gəlirin özəl dərəcələrində fərqlər var (adətən yüksək əmək haqqı ilə ölçülür). Bu fərqlərin nə üçün mövcud olduğunu izah edən ədəbiyyat olduqca incədir, lakin daha inkişaf etmiş ölkələrdə gəlirlərin daha yüksək olduğunu göstərir. Daha inkişaf etmiş ölkələrdə biz daha yaxşı təhsil və digər inkişaf resursları hesabına işçilərin yüksək potensiallı olduğunu görə

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 203-206
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 203-206
DOI: https://doi.org/10.36719/2023/3/2

bilirik. İşçilər öz bilik, bacarıq və təcrübələrinə uyğun daha yaxşı maaşlı imkanlar axtarırlar. Başqa sözlə, daha çox inkişaf etmiş ölkələr daha yaxşı iqtisadi və sosial infrastruktura və fərdləri daha çox insan kapitalı toplamağa təşviq etməklə yanaşı, həm də bu cür kapital yığımının gəlirlərini daha yüksək maaşlarda tutmaq üçün şərait yaradan daha əlverişli mühitə malik olurlar. İnsan kapitalı termini işçinin təcrübə və bacarıqlarının iqtisadi dəyərini ifadə edir. İnsan kapitalına təhsil, təlim, zəka, bacarıqlar, sağlamlıq kimi aktivlər və işəgötürənlərin sədaqət və punktuallıq kimi dəyər verdiyi digər şeylər daxildir.

Beləliklə, o, şirkətin balans hesabatında qeyd olunmayan (və ola da bilməz) qeyri-maddi aktiv və ya keyfiyyətdir. İnsan kapitalı məhsuldarlığı və beləliklə də gəlirliliyi artırmaq üçün qəbul edilir. Bir şirkət işçilərinə nə qədər çox sərmayə qoyarsa, onun məhsuldarlığı və uğur şansı daha yüksək olur.

- İnsan kapitalı şirkətin balansında qeyd olunmayan qeyri-maddi aktivdir.
- İnsan kapitalının işçinin təhsil, təcrübə və bacarıqları kimi keyfiyyətləri ehtiva etdiyi deyilir.
- Bütün əmək bərabər hesab edilmədiyi üçün işəgötürənlər öz işçilərinin təliminə və təhsilinə investisiya qoymaqla insan kapitalını təkmilləşdirə bilərlər.
- İnsan kapitalının iqtisadi artım, məhsuldarlıq və gəlirlilik ilə əlaqəsi olduğu qəbul edilir.
- Hər hansı digər aktiv kimi, insan kapitalı da uzun müddət davam edən işsizlik, texnologiya və innovasiya ilə ayaqlaşa bilməməsi nəticəsində dəyər itirmək qabiliyyətinə malikdir.

İnsan kapitalı, xüsusən də qlobal iqtisadiyyatlarda miqrasiyaya meyllidir. Buna görə də tez-tez inkişaf etməkdə olan yerlərdən və ya kənd yerlərindən daha inkişaf etmiş və

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 203-206
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 203-206
DOI: https://doi.org/10.36719/2023/3/2

şəhər ərazilərinə keçid olur. Bəzi iqtisadçılar bunu beyin axını və ya insan kapitalının qaçması adlandırıblar. Bu, müəyyən sahələrin zəif inkişaf etdiyi halda, digərlərinin daha da inkişaf etdiyi prosesi təsvir edir. İnsan kapitalı ilə iqtisadi artım arasında güclü əlaqə var. Bu əlaqə insanların təhsilinə nə qədər investisiya qoyuluşu ilə ölçülə bilər. Bəzi hökumətlər insan kapitalı ilə iqtisadiyyat arasında bu əlaqənin mövcud olduğunu qəbul edir və buna görə də onlar ali təhsili az və ya heç bir xərc çəkmədən təmin edirlər.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 207-209
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 207-209
DOI: https://doi.org/10.36719/2023/3/2

**Nicat Sətdarov**
Bakı Biznes Universiteti
magistrant
sattarov165@gmil.com

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ MÜƏSSİSƏLƏRİNDƏ HESABATLILIQ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *mühasibat uçotu, hesabatlıq sistemi, registr, ikili yazılış, sintetik və analitik uçot, maliyyə uçotu, idarəetmə uçotu, vergi uçotu*

***Keywords:*** *accounting, accountability system, register, binary spelling, synthetic and analytical accounting, financial accounting, account management, tax accounting*

Kiçik və orta sahibkarlıq şirkətlərində hesabatlıq və mühasibat uçotunun təkmilləşdirilməsini və inkişaf mərhələləri anlayışını anlamaq üçün, uçot gedişatını və tətbiqinin mərhələlərlə inkişafını araşdırmaq lazımdır.

Mühasibatlıq və ümumi hesabatlıq ilk olaraq, harada, nə zaman, nə cür meydana gəlməsi tam dəqiq olaraq bilinmir və nə qədər köhnə olduğu hələ bizlərə məlum deyil. Bununla belə mühasibat uçotu alimləri və tarixini araşdıranlar yazının və rəqəmlərin meydana gəlməsini belə mühasibatlıqla əlaqələndirirlər.

Kiçik və orta sahibkarlıq müəssisələrində həm hesabatlıq sistemi həmdə mühasibat uçotu bütün şirkətin fəaliyyətində mühüm vasitəkimi çıxış etməklə yanaşı planlaşdırmada, müəssisənin təsərrüfat və maliyyə vəziyyətinin tənzimlənməsində, xidmətin və əmlakının daha yüksək səviyyədə təşkil olunmasında əsaslı rol oynayır. Müasir hesabatlıq sisteminin bazar iqtisadiyyatı tələblərinə uyğun və

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 207-209
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 207-209
DOI: https://doi.org/10.36719/2023/3/2

bu şirkətin rəqibləri ilə rəqabət aparması həmçini uzun müddətli fəaliyyətinin təşkili bilavasitə mühasibat uçotunun və hesabatlığın beynəlxalq uçot tələblərinə uyğun inkişafı və təkmilləşdirilməsi ilə əlaqələndirilir. Belə həcmli bütün müəssisələr hesabatlığın və mühasibat uçotunun təşkilində müəssisənin önündə duran əsas vəzifələri aşağıdakılardır:

– Bu müəssisənin əmlakının, öhdəliklərinin, kapitalının və bütün təsərrüfat əməliyyatlarının mühasibat uçotunun və hesabatlığının mövcud qanunvericiliyə uyğun işlənib düzəldilməsi mühasibat uçotu standartlarına, mühasibat uçotunun hesablar planına, ikili yazılışa və başqa normativ sənədlərə uyğun hesablar sistemində və ümumi hesabatlıqda, mühasibat uçotu hesablarında qarşılıqlı əlaqədə ikili yazılış üsulu ilə aparılması;
– illik,rüblük və.s dövrlər üzrə hesabatın mövcud vəziyyətinin və əmlakın, öhdəliklərin, kapitalın, qarşılıqlı hesablaşmaların və digər mövcud əmlakının auditinin nəticələrinin uçotda tam və düzgün əks etdirilməsi;
– burada baş verən bütün xidməti əməliyyatlarının öz növbəsində ardıcıl olaraq uçot registrlərində düzgün qeydiyyatının aparılmasının düzgünlüyünün təmin edilməsi;
– müəssisənin göstərdiyi fəaliyyət dövrü cərçivəsində bütün əməliyyatların hesabatlıqla müəyyənləşdirilən gəlir və xərclərin smetasının hesabat dövrünə dair düzgün uçotunun aparılması;
– müəssisənin maliyyə orqanları, banklar, vergi orqanları, investorlar, debitorlar, kreditorlar, dövlət orqanlarının və digər marağı olan təşkilatlar və şəxslər tərəfindən operativ rəhbərlik və idarəetməni həyata keçirmək, təqdim ediləcək maliyyə mühasibat hesabatının tətbiqi üçün, həmçinin müəssisənin göstərdiyi bütün fəaliyyət prosesləri və maliyyə-hesabat fəaliyyəti haqqında zəruri

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 207-209
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 207-209
DOI: https://doi.org/10.36719/2023/3/2

olan hesabatların tam, vaxdında və düzgün formalaşdırmasını təmin etməkdən ibarətdir.

KÖS-də uçotun təşkili, mühasibatlığın düzgünlüyü, hesabatlığın düzgün tərtibi və vaxtında yuxarı təşkilata təqdim edilməsi məsuliyyəti birbaşa olaraq baş mühasibin üzərinə düşür. Mühasib sözünün mənası ərəb mənşəli olub hesab aparan, hazırlayan şəxs mənasına gəlir.

Baş mühasib müəssisə tərəfindən həyata keçirilən bütün fəaliyyət boyu görülən əməliyyatlarının hesabatlıq sisteminə, mühasibat uçotu hesabına düzgün uçotunun aparılmasının, maliyyə və mühasibat uçotu hesabatlarının müəyyən edilmiş müddətlərdə tərtib edilməsinin və təqdim edilməsi, rəhbərlik tərəfindən qoyulan standartlara uyğunluğunun, hesabatın iqtisadi təhlilini həyata keçirilməsini təmin edir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 210-212
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 210-212
DOI: https://doi.org/10.36719/2023/3/2

**Nigar Rəcəbli**
Bakı Biznes Universiteti
magistrant
receblinigar441@gmail.com

# YEYİNTİ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *yeyinti, yeyinti sənayesi, yeyinti sahəsinin inkişafı, dövlət tənzimlənməsi, ərzaq təhlükəsizliyi*
***Keywords:*** *food, food industry, development of food sector, state regulation, food safety*

Kənd təsərrüfatının müəyyən üsul və vasitələrlə inkişaf etdirilməsi yeyinti sənayesinin inkişafına da məqsədyönlü şəkildə öz təsirini gəstərir. Bu üsul və vasitələrin məcmusu bütünlükdə yeyinti sənayesinin inkişafının dövlət tənzimlənməsi metodu hesab olunur. Dövlətin iqtisadiyyatın tənzimlənməsi istiqamətində görüləcək tədbirlərin icrası həm iqtisadi (dolayı), həm də inzibatı (birbaşa) yolla mümkündür. İnzibati və iqtisadi yollarla reallaşan tədbirlər kompleksi iqtisadiyyata bütünlükdə təsir göstərərək ölkənin sosial-iqtisadi inkişafının əsasını təşkil edir. İnkişaf etmiş ölkələrdə dövlətin iqtisadiyyatı tənzimləmə mexanizması böhran və ya durğunluq dövründə inzibati və iqtisadi yollarla müdaxiləni özündə əks etdirdiyi halda, iqtisadi sabitlik dövründə təsirlərin azaldılması və bazar mexanizminin işə düşməsinə şərait yaradılır

Regionlarda yeyinti sənayesinin inkişafı təkcə yerli özünüidarəetmə orqanlarınının deyil eyni zamanda dövlətin səlahiyyətlərinə aiddir.

Regionlarda yeyinti sənayesinin inkişafı məqsədilə müstəqillik illərində "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişaf"ı üzrə dövlət proqramaları (2004-2008,

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 210-212
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 210-212
DOI: https://doi.org/10.36719/2023/3/2

2009-2013, 2014-2018-ci illər üçün) qəbul edilmişdir, bu proqramın müddəalarını ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi qiymətləndir bilərik:

1. Regionlarda mövcud olan yeyinti sənayesi müəssisələrinin iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi;
2. Regionlaradakı yeyinti sənayesi müəssisələrinin mövcud (real) vəziyyətinin təhlili;
3. Regionlarda mövcud olan yeyinti sənayesindəki struktur problemlərin müəyyənləşdirilməsi və həlli istiqamətində tədbirlərin görülməsi;
4. Reginlardakı əhalini maddi-rifah halının yaxşılaşdırılmasında ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması;
5. Regionlarda mövcud olan maddi-texniki bazası olan yeyinti sənayesi müəsssisələrinin yenidən qurulması istiqamətindəki tədbirlərin görülməsi.

Ölkəmizdə ərzaq təminatının yaxşılaşdırılması və strateji məhsul sayılan qidalarla ölkədaxili təminetmə səviyyəsinin artırılması və idxaldan asılılığın azaldılması məqsədilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının” təsdiqi bu sahədə yeni bir səhifə açmışdır. Proqramın əsas məqsədi respublikamızın hər bir fərdinin sağlam həyat tərzi üçün qəbul edilmiş standartlara uyğun olan qida məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Dövlət proqramının əhatə etdiyi illər ərzində aşağıdakı vəzifələrin icrası nəzərdə tutulur:

– Ölkənin tələbatın tam şəkildə ödəmək qabiliyyətinə malik olmaq məqsədilə qida məhsullarının istehsalının artırılması;
– Əhalinin dünyanın beynəlxalq sağlamlıq normalarına uyğun gələn təhlükəsiz (insan saglamlığı üçün təhlükə yaratmayan) və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmə səviyyəsinin yüksəldilməsi və s. (1).

DOI: https://doi.org/10.36719/2023/3/2

Əhalinin ərzaq məhsulları ilə fasiləsiz təmini və onların sosial həyat səviyyəsinin yüksəldilməsi üçün lazım olan ərzaq məhsullarının istehsalının düzgün planlaşdırılması məqsədi ilə icra hakimiyyəti orqanları tərəfindən hər il dövlət və regional ərzaq balansları hazırlanır. Ərzaq bazarlarının potensial imkanlarının artırılması iqtisadi üsullarla həyata keçirilir və aşağıdakılardan ibarətdir:

1. Ərzaq məhsullarının istehsalının stimullaşdırılması, keyfiyyətinin yüksəldilməsi;
2. tədbirlərinin həyata keçirilməsi;
3. Yeyinti sənayesi məhsullarının istehsalının, satışının, tədarükünün, idxal və ixracının uçotunun aparılması;
4. Ərzaq bazarlarında sağlam rəqabət mühitini təşkili haqsız rəqabət hallarının aradan qaldırılması;
5. Məhsulun istehsalından istehlakına qədər olan dövr intervalında onun keyfiyyətinə və təhlükəsizliyinə nəzarət;
6. Ərzaq bazarı potensialını artırmaq məqsədi ilə proqramların hazırlanması və maliyyələşdirilməsi.

Yuxarıda qeyd olunan tədbirlərin ardıcıl və nizami qaydada yerinə yetirilməsi ölkədə sabit və ədalətli ərzaq təşkilinin formalaşmasına, istehsal və satış infrastrukturunun təkmil şəkildə inkişafına, ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsinə və keyfiyyətə nəzarət sistemlərinin geniş miqyaslı inkişafına və bununla da ərzaq təhlükəsizliyi probleminin həllinə şərait yaradacaq.

## Ədəbiyyat

1. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, 2008-ci il 25 avqust.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 213-216
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 213-216
DOI: https://doi.org/10.36719/2023/3/2

**Murad Orucov**
Bakı Biznes Universiteti
magistrant
muradoruj@gmail.com

# "BANK OF BAKU"NUN KREDİT ƏMƏLİYYATLARININ TƏHLİLİ

***Açar sözlər:*** *işgüzar aktivlik, iqtisadi təhlükəsizlik, maliyyə təhlilləri, biznes fəaliyyəti, maliyyə sabitliyi, iflas*
***Keywords:*** *business activity, economic security, financial analysis, business activity, financial stability, bankruptcy*

"Bank of Baku" hazırda iki əsas istiqamətdə kreditləşmə həyata keçirir:

- nağd pil krediti;
- ipoteka krediti.

Nağd pil kreditləri bir neçə istiqamətdə olmaqla əsasn müştəri kütləsinin genişləndirilməsinə hədəflənib. Bankın aktiv kredit təklifləri əsasən aşağıdakı istiqamətlərdədir.

"Bank of Baku"dan bahar kampaniyası − bu kredit xəttinin əsas kütlə hədəfi dövlət və özəl müəssisə əməkdaşları və (və ya) təqaüdçülərdir. Əmək haqqı üzrə minimum tələb olmasa da yaş həddi və iş stajı məsələsində tələblər var. Belə ki, minimum 6 ay iş stajı və kreditin son ödənişi tarixinə maksimum yaş həddi 70 yaşdır. Kreditin rəsmləşdirilməsi üçün şəxsiyyət vəsiqəsi, iş yerindən arayış və ya rəsmi gəlirləri təsdiq edən digər sənədlər (maaş kartı hesabından çıxarış, elektron arayış ) və eyni zamanda 30000 manatdan çox məbləğə zaminlik tələb olunur.

Hər kəsə kredit – bu kredit xətti üzrə bank təhsil işçilərinə 12,5 faizlə 30000 manatdək zaminsiz kredit təklif edir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 213-216
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 213-216
DOI: https://doi.org/10.36719/2023/3/2

Daşınmaz əmlak krediti − hədəf kütləsi bütün özəl və dövlət müəssisələrdə çalışan şəxslər, təqaüdçülər və (və ya) ölkə ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər olan bu kredit min. 500, maks. 100000 AZN məbləğində təklif olunur. 3-36 ay müddətində nəzərdə tutulun kreditin illik faiz dərəcəsi 17 faizdir.

Avtomobil krediti − daşınmaz əmlak kreditinin həzərdə tututlduğu müştərilərə verilməsi nəzərdə tutuln bu kredit növü 500 AZN-dən 50000 AZN dək nəzərdə tutulmuşdur. İllik faiz dərəcəsi 16 %-dən başlayan kreditin müddəti 3 ildir.

Tibb işçilərinə özəl 2 % ENDİRİM − kreditin bu növü tibb sahəsində çalışan əməkdaşlar üçün nəzərdə tutulub. 30000 AZN-dək olan bu kredit 12.5 %-lə 3 ay-59 ay müddətinə verilir. Bütövlükdə "Bank of Baku" ASC-nin təqdim etdiyi nağd pul kreditləri Cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**
**"Bank of Baku" ASC-nin təqdim etdiyi nağd pul krediti strukturu**

| Sıra | Kredit | Hədəf kütləsi | Maksimum məbləğ | Müddət | Faiz dərəcəsi |
|---|---|---|---|---|---|
| 1 | Qış endirimi | Dövlət və özəl müəssisə əməkdaşları və ya təqaüdçülər | 30000 | 3-59 ay | 12,5 |
| 2 | Hər kəsə kredit | Müraciət hər kəsə | 30000 | 3-59 ay | 12,5 |
| 3 | Təminatlı istehlak krediti | Müraciət hər kəsə | 3000-70000 | 3-48 ay | 15 |
| 4 | Lombard krediti | Müraciət hər kəsə | 300-30000 | 3-36 ay | 24 |
| 5 | Təhsil krediti | Ödənişli əsaslarla təhsil alanlara | 300-20000 | 3-59 ay | 16 |
| 6 | Daşınmaz əmlaka kredit | Müraciət hər kəsə | 500-1000000 | 3-36 ay | 17 |
| 7 | Avtomobil krediti | Rəsmi iş yeri olan hər kəsə | 500-50000 | 3-36 ay | 16 |
| 8 | Maaşa özəl | Dövlət və özəl | 300000 | 3-59 ay | 13 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | kredit | müəssisə əməkdaşları | | | |
| 9 | Tibb işçilərinə özəl 2 % endirim | Tibb sahəsində çalışan əməkdaşlar | 30000 | 3-59 ay | 12,5 |
| 10 | Vergi işçilərinə özəl kredit | Vergi sahəsində çalışan əməkdaşlar | 30000 | 3-59 ay | 12,5 |

*Mənbə: https://www.bankofbaku.com/kreditler/nagd-pul-krediti/tibb-iscilerine-ozel-kredit*

Bank ipoteka kreditlərini iki istiqamətdə təklif edir:

- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka kreditləri;
- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən güzəştli (MİDA) ipoteka kreditləri.

Bankın kredit əməliyyatları ən riskli olması ilə yanaşı eyni zamanda ən gəlirli bank əməliyyatlarıdır. Bank kreditlərinin təhlili bir neçə ardıcıl mərhələdə aparılması bu sahədə əhatəli informasiyanın əldə edilməsinə və dəqiq qiymətləndirmənin aparılmasına şərait yaradır.

“Bank of Baku”nun kredit əməliyyatlarının təhlli aşağıdakı nəticələrin əldə edilməsinə şərait yaradır. Belə ki, bankın verdiyi kreditlərin onun aktivlərinin ümumi həcmində xüsusi çəkisinin müəyyən edilməsi zamanı məlum olur ki, “Bank of Baku”nun 2019-2021-ci illərdə verilmiş kreditlərin aktivlərdə xüsusi çəkisi 83-89 faiz aralığı olmuşdur. 2019-cu ildə 338158,72 min manat kredit verilmişdir ki, həmin kreditlərin aktivlərdə xüsusi çəkisi 89 %, 2020-ci ildə 337946,34 minmanat verilən kredit aktivlərin 83 %-ni, 2021-ci ildə isə verilən kreditlərin həcmi artmasına baxmayaraq xüsui çəkisi dəyişməmişdir.




**Qrafik 1. "Bank of Baku"nun verilmiş kreditlərin aktivlərdə xüsusi çəkisi**

*Mənbə: "Bank of Baku"nun rəsmi məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

## Ədəbiyyat

1. https://www.bankofbaku.com/

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 217-219
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 217-219
DOI: https://doi.org/10.36719/2023/3/2

**Qabil Həmidli**
Bakı Biznes Universiteti
magistrant
gabilhamidli@gmail.com

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İDARƏETMƏSİNDƏ BALANSLAŞDIRILMIŞ GÖSTƏRİCİLƏR SİSTEMİNİN TƏTBİQİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *biznes prosesləri, avtomatlaşdırılma, innovativ layihələr, effektiv idarəetmə, balanslaşdırılmış göstəricilər sistemi*

***Keywords:*** *business processes, automation, innovative projects, effective management, balanced indicators system*

Müasir mərhələdə rəqəmsal texnologiyalar informasiya inqilabı və qloballaşma prosesləri əsasında fəal şəkildə inkişaf edir. Hazırda bazar subyektlərinin fəaliyyətinin əsas amili biznes proseslərinin və idarəetmə proseslərinin rəqəmsallaşdırılmasıdır. Beləliklə, transformasiya iqtisadiyyatın bütün səviyyələrində, sektorlarında və sahələrinə təsir göstərir. Biznes proseslərinin rəqəmsallaşdırılması təsərrüfat subyektlərinin fəaliyyətinin effektivliyini artırır və iqtisadi inkişafa böyük köməklik potensialına malikdir. Rəqəmsal iqtisadiyyat şəraitində innovativ layihələrin rolu informasiyadan istifadə kimi xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal texnologiyalar, bazarın subyektlərinin səmərəliliyini və rəqabət qabiliyyətini artrır və innovativ inkişafa təkan verir.

İnformasiya şirkətinin məlumatına görə, yaxın 3-5 il ərzində “Big data”, əşyaların internet, bulud hesablamaları, robottexnika, və s. kimi fəaliyyətlər aktual olacaq. Müasir bizneslər İT həllinin istehsalda tətbiqinə uyğunlaşır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 217-219
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 217-219
DOI: https://doi.org/10.36719/2023/3/2

Məsələn, 2012-ci ildə "Qazprom Neft"də kəşfiyyat və hasilat avtomatlaşdırılması səviyyəsinin artırılmasına yönəlmiş aktivlərin elektron proqramı işə salmışdır.

Hal-hazırda ölkədə innovativ inkişaf məsələlərinə əsas diqqət yetirildiyi 2017-2030-cu illər üçün informasiya cəmiyyətinin inkişaf strategiyası həyata keçirilir.

Bununla əlaqədar olaraq, rəqəmsal iqtisadiyyat şəraitində innovativ inkişafin yüksək aktuallığı nəzərə alaraq, müəlliflər innovativ layihələrin səmərəliliyinin qiymətləndirilməsində mövcud yanaşmaların tətbiqi xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə tədqiqat aparırlar.

İnnovativ layihələrin səmərələliyinin qiymətləndirilməsinin innovasiyanın idarə edilməsi edilməsi məexanizmində mərkəzi həlqə olmalıdır. Müasir şəraitdə innovasiyaların idarə edilməsi mexanizm yerli təşkilatlarda idarəetmənin təşkilati-iqtisadi strukturunun zəif həlqəsidir. Bu yalnız xarici mühitin yüksək dərəcədə dəyişikliyi, təşkilatın bütün xidmətlərinin sistemsiz işləməsi ilə deyil, həm də innovativ fəaliyyətin qiymətləndirilməsinə sistemli yanaşmanın olmaması, həmçinin şirkət cari məqsədləri ilə əhəmiyyətli dərəcədə uyğunsuzluğu ilə izah olunur.

Müasir alimlər balanslaşdırılmış göstəricilər sistemini tamamlayır, proqnozları genişləndirir və əlavə göstəricilər daxil edir. Bununla da Kaplan və Norton tərəfindən təklif olunan BGS-i dəyişdirirlər. Bu sahədə tədqiqatçıların işlərinin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, daha tez-tez innovativ komponent balanslaşdırılmış göstəricilər sistemində ayrıca aspekt kimi qeyd olunur.

Bu gün innovativ layihənin səmərəliliyinin qiymətləndirilməsi yalnız maliyyə nöqteyi-nəzərdən, yəni əsasən keyfiyyət və kəmiyyət göstəriciləri ilə razılaşdırılmadan, tədqiqat, texnoloji, istehsalat, kadr, bazar, müştəri və s. yeniliklərin qəbulu zamanı bizim fikrimizcə vacib

olan digər komponentlər. Biz innovasiyaları proseslə alırıq. İnnovasiya proseslərin idarə idarə edilməsi modelinə əsasən, əsas mərhələlər tədqiqat və inkişaf təşkil edir.

İnkişafın indiki mərhələsində vahid müəssisə və ya sənaye qruplarında innovativ fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi məsələləri aktual olaraq qalır. Bununla əlaqədar, müəlliflər sahə xüsusiyyətlərini nəzərə alaraq bu yanaşmanın milli iqtisadiyyatın bəzi spesifik sahələrinə genişlənməsini planlaşdırırlar.

Balanslaşdırılmış göstəricilərin struktur sistemi işlənib hazırlanmışdır. Sənaye, tikinti və ya logistika təşkilatlarının ümumi fəaliyyət sistemində kompleksdə (maliyyə, proseslər, müştərilər və inkişaf) ən vacib alt sistemləri əks etdirən bir-biri ilə əlaqəli kəmiyyət və keyfiyyət, elmi-texniki, əməliyyat, marketinq göstəricilərinin optimal dəsti kimi sistemdir.

Balanslaşdırılmış göstəricilər sistemi təşkilatda idarəetmənin effektivliyini artırır, konkret işçi davranışını şirkət rəhbərliyinin qarşıya qoyduğu vəzifələrə optimal uyğunlaşdırmağa imkan verir. Nəticədə, effektiv və strateji idarəetmə format yaradan balanslaşdırılmış göstəricilər sistemi formalaşır ki, bu da həm idarəedici, həm müəssisənin innovativ və səmərəli inkişafı, həm də işçi heyəti və onun rifah halının normal olaraq qalmasına səbəb olur.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 220-222
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 220-222
DOI: https://doi.org/10.36719/2023/3/2

**Cavid Qasımov**
Bakı Biznes Universiteti
magistrant
javid.qasimov@gmail.com

# AZƏRBAYCANIN İNTEQRASİYA PROSESLƏRİNDƏ İŞTİRAKININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *qlobal, inteqrasiya, davamlı inkişaf, xarici ticarət, spesifik xüsusiyyətlər*
***Keywords:*** *global, integration, sustainable development, foreign trade, specific characteristics*

Qlobal amillər ölkə həyatının demək olar ki, bütün sahələrində – iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərin axınına nüfuz edir. Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional (region ölkələrinə xas olan), yaxud ölkədaxili xarakter daşıyan amillər mövcuddur ki, onların da ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir. İqtisadi həyatın beynəlmilliləşməsi, Azərbaycanın müasir dünya ilə inteqrasiyasının bütün istiqamətlərində yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb etməsi zərurətindən aktual olan məsələlərdəndir.

Müasir dövrümüzün əsas amilləri şərti olaraq aşağıdakı kimi qruplaşdırıla bilər:

1. Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsi ilə bütün dünyada iqtisadi proseslərin dəyişmə tempi, innovativ yeniliklərin patentləşməsi, onların istehsal sahəsində tətbiqi sürətlənir və yaxın perspektivdə dünya iqtisadiyyatının artımı məhz bu amilin təsiri nəticəsində baş verəcəkdir.

2. Dünya üzrə ticarətin istehsala nəzərən daha yüksək sürətlə artacağı, qloballaşma ilə birlikdə regional inteqrasiyaların da genişlənəcəyi gözlənilir. Beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və beləliklə yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətə davamlılıqlarının artacağı gözlənilir.

3. Azərbaycanın qarşısında duran əsas məsələ, ilk növbədə, iqtisadiyyatda karbohidrogen ehtiyatların ixracından mövcud asılılığı aradan qaldırmaqla orta və uzunmüddətli perspektivdə beynəlxalq iqtisadiyyatın xammal əyalətinə çevrilmək təhlükəsinin qarşısını almaq kimi mühüm məsələnin daim diqqət mərkəzində saxlanılmasını tələb edir. Karbohidrogen ixracı amili son onillikdə iqtisadi artımın əsas aparıcı qüvvəsi olsa da, hazırki mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun sürətli inkişafına nail olmaq, iqtisadiyyatın rəqabətqabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etməkdir.

Tezisdə beynəlxalq ticarətin istehsala nəzərən daha yüksək sürətlə artacağı, qloballaşma ilə birlikdə regional inteqrasiyaların da genişlənəcəyi gözlənilir və qloballaşmanın inkişaf xüsusiyyətləri, amilləri tədqiq olunur. Karbohidrogen ixracı amili son onillikdə iqtisadi artımın əsas aparıcı qüvvəsi olsa da, hazırki mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 220-222
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 220-222
DOI: https://doi.org/10.36719/2023/3/2

sektorunun sürətli inkişafına nail olmaq, iqtisadiyyatın rəqabətqabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etməkdir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 223-225
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 223-225
DOI: https://doi.org/10.36719/2023/3/2

**Ravi Ağamaliyev**
Bakı Biznes Universiteti
magistrant
raviagamaliyev@gmail.com

# "AZƏRSUN HOLDİNG" MMC-DƏ HESABATLILIĞIN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Azərsun, holdinq, hesabatlılıq, rəqabət, səmərəlilik*

***Keywords:*** *Azersun, holding, accountability, competition, efficiency*

Minimum xərclə gəlir nə qədər çox olarsa, səmərəlilik də bir o qədər yüksək olur. Ancaq bu hamısı deyil, eyni əlavəya daxil olan bir neçə başqa şərt var:

- istehsal sürətinin artması;
- ətraf mühitə tullantıların minimuma endirilməsi;
- istehsalını və sürətini.

Bundan əlavə, Azərsun holdingin məhsuldarlığını və inkişafını təmin edən başqa amillər də var. Bu məqamlar bir istehsalın rentabelliyinin nə qədər yüksək olduğunu anlamağa imkan verir. Bunlara daxildir:

- yeni texnologiyalardan istifadə istehsalın səmərəliliyi;
- yeni məhsullar təzyiq dövriyyəsinin artımı;
- holdingin istifadəsindən səmərəli istifadə etmək imkanı.

Bir qayda olaraq, istehsal artımının keyfiyyətini yaxşılaşdırmaq üçün işin maliyyə tərəfinə diqqət yetirir. Bu heç də özündən öz bəhrəsini vermir, bu cür yanaşma tədarük olunan malların və ya xidmətlərin dövriyyəsinə zərər verə bilər. Bu vəziyyətdə, dəyişdirilməsi çox çətin olan müəyyən nəticə əldə edilir.

İstehsal fəaliyyətinin inkişaf üsulları baxımından çox məhsuldar hesab olunur:

- Güclü rəqabət. Nəticələriniz bazardakı dəyişikliklərdən sonra müəyyən müddətə uyğundur.
- Maliyyə göstəricilərinin artımı analoji müəssisə və firmalarla xeyli azaldın.
- Təşkilat yeniləşmələrə və dəyişikliklərə investisiya istifadə etməklə çox vaxt boş resurslar var .

İnkişaf və istehlakçıların ehtiyaclarına uyğunluq hər hansı bir təşkilatın işinə ehtiyac var. Səviyyəniz müasir tələblərə tam cavab olaraq yüksək holdingin səmərəliliyi neytral səviyyədə qalır. Hər bir şöbənin tam nəticə üçün çalışması vacibdir. Yalnız bu halda həqiqətən yüksək hədəflərə çata bilərsiniz.

Hər bir təşkilat şirkəti üçün sırf fərdi olaraq düzgün inkişaf yolunu seçməlidir. Onlardan hər hansı bir kömək olan yalnız bir neçə əsas qaydalar var.

İstehsalın keyfiyyətinə təsir edən maya dəyərinin azaldılması. Bir çox menecerlər bu maşın işçi heyətini ixtisar almaq və ya daha ucuz materiallarla təchiz edirlər. Bu vəziyyətdə, sürətli iqtisadi vəziyyətə və təşkilatın itirməsinə diqqət yetirmək lazımdır.

- İş sisteminin modernləşdirilməsi və avtomatlaşdırılması. Bu, yalnız ətraflı performans təhlilindən sonra. Təsərrüfat və istehsalat şöbələri ən çox belə yeniləmələrə ehtiyac duyurlar.
- Təşkilat və idarəetmə məsələlərinin yeni yollarını axtarın. Liderlik yeniləməsi yeni ideyalar gətirməyə kömək edəcək və gəlirli layihələrin həyata keçirilməsinə yeni güc mümkündür.
- Düzgün marketinq. Reklam şirkət dövriyyəsinin böyük rol oynayır. Müştəriləri cəlb etmək üçün yaxşı hazırlanmış sxem aşağı qiymətə çoxlu gəlir gətirə bilər (Hacıyev, Əliyev, 2011: 94).

Bu aspektlərin hər birinin təfərrüatları istənilən nəticəni verə bilər. Ancaq unutmayın ki, hər hansı bir şirkət ilk növbədə orada çalışan insanlardır. İşçilərin təşəbbüsünü etməyə, yaxşı ideyalara görə mükafat dəyər (Kazımov, Namazova, 2012: 32). Bu vəziyyətdə, müəssisəni bütün səviyyələrdə tanıtmaqda maraqlı bir komanda əldə edəcəksiniz.

Holdingin idarəediciliyini artırmağın yollarını axtararkən, hansısa şəkildə biznesinizə aid ola biləcək bütün aspektlərə diqqət yetirin. Əvvəla, bu, daxili problem və onun həlli yollarıdır. Birbasa və ya dolayısı ilə firmanın işi ilə bağlı olan xarici mühitin məlumatında da qaçırmamaq vacibdir.

Sonda vurğulamaq lazımdır ki, planlaşdırma dövründə holdingin öz kapitalını artırmaq üçün yalnız daxili mənbələrdən mümkün qədər istifadə edilməlidir. Holdingin xalis mənfəətinin formalaşmasının təhlilinə, çəkilmiş xərclərin dinamikasını və əsaslılığını qiymətləndirməyə xüsusi diqqət yetirilməlidir.

## Ədəbiyyat

1. Hacıyev, F.Ş., Əliyev, Ş.Q. (2011). Audit. Dərs vəsaiti. Bakı: İndiqo, 246 s.
2. Kazımov, R.N., Namazova, C.B. (2012). Praktiki audit. Dərslik. Bakı: Elm və təhsil, 246 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 226-229
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 226-229
DOI: https://doi.org/10.36719/2023/3/2

**Rəşad Vəliyev**
Bakı Biznes Universiteti
magistrant
resadveliyev1305@gmail.com

# SƏNAYE PARKLARININ MAHİYYƏTİ, NƏZƏRİ ANLAYIŞI VƏ ELMİ ƏSASLARI

***Açar sözlər:*** *sənaye parkı, iqtisadiyyat, infrastruktur, əlaqə, inkişaf, texnologiya, ağır sənaye*
***Keywords:*** *industrial park, economy, infrastructure, communication, development, technology, heavy industry*

Əhalinin rifahını təmin edən əsas istiqamətlərdən biri iqtisadiyyatdır. İqtisadiyyatın əsasını isə hazırki dövrdə sənaye və onun ayrı-ayrı sahələri əhatə edir. Beləki sənayenin inkişafı ölkənin maddi rifahı və vətəndaşların yaşam səviyyəsini əks etdirir. Buna görə də sənaye parklarının yaradılması və inkişaf etdirilməsi önəmli məsələlərdən biridir. Sənaye parkları özlüyündə sənaye obyekti olub, biznes-ticarət məqsədli olsa da daha ciddi bir anlayışdır. Ciddi sənaye istiqaməti olması onu ağır sənayeyə yaxın bir sahə etsədə əsasən nisbətdə daha yüngül sənaye sahəsi kimi başa düşülür. Sənaye parklarında vacib olan bir çox detallar və amillər var. Bunlara yaxşı nəqliyyat infrastrukturu, şəhər mərkəzindən kənarda yerləşməsi, 3 fazalı elektrik enerjisi və aidiyyatı olaraq sahə üzrə modern texnologiya ilə təmin olunmalıdır.

"Həmçinin sənaye parkları institusional, siyasi, iqtisadi, sosial və son nəticədə texnoloji zəifliklərin çeşidini yüngülləşdirmək üçün ideal alət hesab olunur və çox vaxt inkişaf strategiyalarının mərkəzini təşkil edirlər. Bununla belə, sənaye və texnologiya parklarının, xüsusən də inkişaf etməkdə olan ölkələrdə real təsiri hələ də yaxşı başa düşülmür".

Sənaye parklarının tərkibində texnoparklar və eko parklar da var. Eko parklar isə digər sənaye parklarından resurs istifadəsinə görə fərqliliklər gösdərir. “Eko-sənaye parkı ümumi mülkiyyətdə birlikdə yerləşən istehsal və xidmət müəssisələrinin icması kimi müəyyən edilə bilər. Üzv müəssisələr ətraf mühit və resurs məsələlərinin idarə edilməsində əməkdaşlıq yolu ilə ekoloji, iqtisadi və sosial performansı artırmaq istəyirlər”. Beynəlxalq təcrübəyə görə sənaye parkları planlanmasına, fəaliyyət formasına və strukturuna görə bir neçe tipə ayrılır. Aşağıdakı şəkil 1-də bunu daha aydın müşahidə edə bilərik:




**Şəkil 1. Sənaye parklarının tipləri**

Sadaladığımız sənaye parklarının aşağıda qeyd olunduğu kimi xarakteristikası var:

- ***Müstəqil:*** Sənaye məhəllələri lazımi dəstək infrastrukturu ilə təchiz olunmuş ana şəhərlərindən ayrılır.
- ***Hərtərəfli:*** Sənaye məhəllələri müxtəlif pu və sənayenin müxtəlif kateqoriyaları üçün nəzərdə tutulmuşdur.
- ***Üstün:*** Sənaye məhəllələri daha yaxşı planlaşdırma və dəstək sayəsində daha yaxşı infrastruktur və investisiyalardan istifadə edirlər.
- ***İntensiv:*** Onların fəaliyyətləri adətən kapital, yenidən və texnologiya baxımından intensivdir.
- ***Konsentrasiya:*** Sənaye məhəllələri şərq sahillərində və orta və böyük.

DOI: https://doi.org/10.36719/2023/3/2

Sənaye parklarının müxtəlifliyinin çox olması onun geniş sahələri əhatə etməsi mütəxəssislərin nəzərində sənaye parklarının mahiyyətini rənga-rəng edir. Belə ki, bildirəcəyimiz fikirlər bizə bu fərqlilikləri aydın göstərəcək. “Sənaye parkları inkişaf etməkdə olan dünyada qıt olan maliyyə və insan kapitalını cəmləşdirir, səyləri cəmlənmiş məkanda cəmləşdirir, nəqliyyat və kommunikasiya xərclərini azaldır və ümid edirəm ki, ətraf ərazilərə yayılan iqtisadi çoxilliklərlə böyümə qütbü yaradır”. Digər bir fikir isə: “Əmək tutumlu məhsullar üzrə ixtisaslaşmış (neo-) Marşal sənaye məhəllələri xüsusilə aşağı maaşlı iqtisadiyyatların rəqabətinə məruz qalırlar. Alimlər uzun müddətdir ki, sənaye məhəllələrinin qloballaşmanın getdikcə daha güclü qüvvələri qarşısında sağ qalıb-qalmayacağı ilə maraqlanırdılar”. Başqa bir mütəxəssisə görə də sənaye parkları daha ticarət yönümlü bir bucaq altında təqdim olunur. “Sənaye parkı, həmçinin ticarət obyekti və ya sənaye məhəlləsi kimi tanınan sənaye parkı sənayenin inkişafı məqsədi ilə ayrılan, planlaşdırılan və zonalaşdırılan bir hissədir. O, ofis/biznes parkının ağır çəkili versiyası hesab edilə bilər” (Alexandrina Maria Pauceanu PhD, Körfəz Əməkdaşlıq Şurasında Sahibkarlıq üzrə, 2016).

Buradan belə aydın olur ki, sənaye parkları tipindən və fəaliyyət dairəsindən aslı olmayaraq inkişaf və rifah üçün nəzərdə tutulub. İş prinsipinə və ya istiqamətinə görə fərqliliklər göstərsə də, əsasən cəmləşmə, həmçinin mərkəzi idarəetmə üçündə bir obyektdir.

Sənaye parklarının fəaliyyətinin təşkil olunmasında enerji xüsusi rola malikdir.Bunun səbəbi sənaye parklarının texnoloji və elmtutumlu məhsulların istehsalına önəm verməsi, habelə yüksək voltaj tələb edən qurğu və aparatlardan istifadə etməsidir. İxtiyari bir sənaye məhəlləsindəki elektrik və istilik enerjisi yüklərinə kv (kilo vat) ölçüsü ilə aşağıdakı şəkil 2-də baxaq.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 226-229
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 226-229
DOI: https://doi.org/10.36719/2023/3/2




**Şəkil 2. Sənaye parkında bir müəssisənin enerji təminatının payı**

Son olaraq onu deyə bilərik ki, sənaye parkları iqtisadiyyatın inkişafı, qeyri neft sektoruna dəstək verən önəmli bir sahədir. Bu parkların yaradılması yerli sənayemizin də inkişafına gətirib çıxaracaq. Lakin bu parklar yaradılarkən əvvəlcədə dediyimiz kimi standartlara uymalı və müasir texnologiyadan istifadə etməliyik.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 230-233
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 230-233
DOI: https://doi.org/10.36719/2023/3/2

**Rüfət İslamzadə**
Bakı Biznes Universiteti
magistrant
rufat.islamzada@gmail.com

# MİLLİ İQTİSADİYYATIN VƏ XARİCİ TİCARƏT DÖVRİYYƏSİNİN DİVERSİFİKASİYALAŞDIRILMASI PROBLEMLƏRİ

***Açar sözlər:*** *iqtisadiyyat, milli iqtisadiyyat, ticarət, dövriyyə, problem*

***Keywords:*** *economy, national economy, trade, circulation, problem*

Ölkə iqtisadiyyatının inkişafında ən mühüm meyillərdən biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Bu sahədə sabit və davamlı dövlət siyasətinin yürüdülməsi diqqəti cəlb edir. Son 10 ildə xüsusilə geniş miqyaslı tədbirlər həyata keçirilmiş, Dövlət proqramları reallaşdırılmışdır. Bu sahədə ilk dövlət proqramı çərçivəsində regionlarda infrastruktur obyektlərinin geniş şəbəkəsinin qurulmasına başlanılmışdır. II Dövlət Proqramında isə regionların ənənəvi iqtisadiyyat sahələrinin dirçəldilməsi və müasir, modern müəssisələr şəbəkəsinin formalaşdırıması prioritetləri daha çox diqqət mərkəzində olmuşdur. Nəhayət, ölkə regionlarının iqtisadi inkişaf prioritetlərini özündə cəmləşdirən hazırkı III Dövlət Proqramında mühüm prioritetlərə regionların sənaye potensialının gücləndirilməsi, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili və sairlər aiddirlər. Bu dövlət proqramlarının əsas mahiyyəti regionun güclü iqtisadi subyektə çevrilməsi aqrar və sənaye sahələrinin müasir subyektləri kimi

çıxış etməsi, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və ixrac potensialının gücləndirilməsi, sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə qaldırılması ilə bilavasitə bağlıdır.

Azərbaycan iqtisadiyyatının digər mühüm tendensiyalarından biri də turizm sektorunun inkişafı ilə bağlıdır. Son illərdə ölkədə yüzlərlə turizm obyektləri, müasir otellər, istirahət mərkəzləri, turizm-rekreasiya kompleksləri tikilib istismara verilmişdir. Bakıda və regionlarda (Quba, Qusar, Qəbələ, Şəki, Şəmkir, Gəncə və s.) dünya şöhrətli brend otellərin analoqu istifadəyə verilmiş, idman turizm kompleksləri yaradılmışdır. Turizmin inkişafı üzrə qanunvericilik bazası gücləndirilmiş və bu sahənin inkişafı ilə bağlı Dövlət Proqramı hazırda icra olunmaqdadır. Ölkə iqtisadiyyatının inkişafı proseslərində ortaya çıxan ciddi problemlərdən biri də qeyri-neft sənaye sahələrinin inkişafı məsələləridir. Hələ SSRİ dövründə Azərbaycanda rəqabətqabiliyyətli və güclü ixrac potensialına malik sənaye sahələri fəaliyyət göstərmişdir (metallurgiya, cihazqayırma, kimya və neft-kimya, neft-kimya maşınqayırması və s.).

Azərbaycan iqtisadiyyatının müasir iqtisadi inkişaf tendensiyalarından biri də ölkədə İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sektorunun inkişafını təmin etməkdir. Ölkədə müasir İKT infrastrukturunun formalaşdırılması genişləndirilib, bu sahədə məhsulların çeşidi çoxalıb, xidmətlər diversifikasiyalaşdırılıb, innovasiya funksiyalarının tətbiqi intensivləşib və s. Hazırda bu iqtisadiyyat sektorunun neft-qaz sektorundan sonra əsas prioritet qeyri-neft sektoruna çevrilməsi üçün ciddi tədbirlər müəyyənləşdirilib və strateji vəzifələr qarşıya qoyulmuşdur. Qeyri-neft sahəsində yüksək artım tempinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektoru payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 230-233
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 230-233
DOI: https://doi.org/10.36719/2023/3/2

neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləşdirilmişdir. Bu hədəflərə çatmaq üçün iki istiqamətdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasıı və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi təklif olunur. Eyni zamanda xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdəndir (Abdullayev, 2003).

İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. Əslində professor Ə.Muradovun bu fikirləri reallıqda Azərbaycan iqtisadiyyatının hazırkı və yaxın perspektivdəki inkişaf tendensiyalarını, prioritet istiqamətləri və strateji vəzifələrini özündə əks etdirmişdir (Allahverdiyev, 2007).

Yaxın perspektivdə ölkəmizin rəqabətqabiliyyətinin artması və bu sahədəreytinqinin yüksəlməsi gözlənilir. Qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının çoxşaxəliliyi və rəqabətqabiliyyətinin artırılması problemləri də müasir dövrün geniş diskussiyaya məruz qalan məsələlərindən biridir. Akademik A.Nadirov Azərbaycanın gələcək inkişafında aşağıdakı iqtisadi amillərin vacibliyini bildirmişdir:

- Qeyri-neft sektorunun genişlədirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olunması;
- İqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndiriməsinin genişləndirilməsi;

- Ölkənin ÜDM-nin tərkibində dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi;
- İqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü inotivesiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi və s.

Azərbaycanda ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasını ilk növbədə neft emalı hesabına genişləndirməyi vacib hesab edən bir qrup tədqiqatçıların fikirləri ciddi maraq doğurur. Bu sahədə güclü potensialın olması məlumdur və sahənin rəqabətqabiliyyətliyi şübhə doğurmur. Tədqiqatçılar bu problemlərin aradan qaldırılmasında bir qrup mühüm vəzifələrin reallaşdırılmasını vacib sayır:

- Neft emalı sənayesinin infrastruktur bazasının istehsal potensialı və ondan istifadə səviyyəsi araşdırılmalıdır;
- Neft emalı zavodlarının məhsul istehsalı quruluşu genişləndirilməlidir;
- -Neft emalı məhsullarının ixracının quruluşu və coğrafiyası diversifikasiyalaş-dırılmalıdır;
- Neft emalı sənayesinin perspektiv inkişaf istiqamətləri reallaşdırılmalıdır.

## Ədəbiyyat

1. Abdullayev, A.P. (2003). İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 216 s.
2. Allahverdiyev, H.A. (2007). Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: ADİU, 792 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 234-239
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 234-239
DOI: https://doi.org/10.36719/2023/3/2

**Ruslan Səmədov**
Bakı Biznes Univesiteti
magistrant
rsamedov103@gmail.com

# AZƏRBAYCANDA TEXNOPARKLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

***Açar sözlər:*** *texnoparklar, texnoparkların növləri, texnoparkların formalaşması əsas funksiyaları, region tipləri, sosial-iqtisadi inkişaf*

***Keywords:*** *technoparks, types of technoparks, main functions of forming technoparks, types of regions, socio-economic development*

Texnoparklar, dünyada yeni texnologiyaların yaradılması, istehsalı və satışı üçün yaradılmış və ixtisaslaşdırılmış bölgələrdir. Azərbaycanda ilk texnopark 2009-cu ildə Bakıda yaradılmışdır. Bu texnopark, "High Tech Park" adlandırılmışdır və Azərbaycandakı informasiya və kommunikasiya texnologiyalarının inkişafını sürətləndirmək, yeni bir sənaye yaratmaq və genişləndirmək məqsədilə yaradılmışdır. Daha sonra Azərbaycanda digər texnoparklar da yaradılmışdır.

Son illərdə, Azərbaycanda texnoparkların inkişafı ciddi sürətlərdə davam edir. 2016-cı ildə Azərbaycanda 5 texnopark fəaliyyət göstərir. Bu texnoparkların əksəriyyəti informasiya və kommunikasiya texnologiyaları ilə bağlıdır. Həmçinin Azərbaycanda inkişaf edən texnoparklar arasında bio-texnologiya, enerji, turizm, kosmik texnologiyalar və digər sahələr də var.

Regionun xüsusiyyətlərini nəzərə alaraq bu və ya digər funksiyalara istiqamətlənərək texnoparkları digər növlərə bölə bilərik:

1. İnnovasiya
2. Marketinq
3. İnvestisiya
4. İstehsalat
5. Paylaşmış
6. Kompleks

| Növ | Əsas funksiyaları | Regionun tipi |
|---|---|---|
| İnnovasiya texnoparkı | İnnovasiya fəaliyyəti sahəsində hakimiyyət orqanları ilə birgə region üçün innovasiya proqramının işlənməsi, innovasiya ideyalarının və layihələrinin işlənməsi və mütəxəssislərin hazırlanması | İnnovasiya məhsulunun yaradılması və onun kommersiyalaşdırması üçün sərbəst istehsalat və maliyyə ehtiyatlarına malikdir |
| Marketinq texnoparkı | İnnovasiya məhsullarının sertifikatlaşması, patentləşməsi və hərəkəti kommersləşmə prosesində dəstəklənmə | İnnovasiya ideyaların qenerasiya edən quruluş üstünlük təşkil edir və innovasiya məhsulunun hazır nümunələrinin hazırlanması |
| İnvestisiya texnoparkı | İnnovasiya layihələrinin maliyyələşməsi, maliyyə mənbələrinin axtarışı, investisiya layihələrinin hazırlanmasına kömək | Elmi və istehsalat quruluşu üstünlük təşkil edir, həmçinin |

| | | |
|---|---|---|
| | | yaradıcı kollektivlər |
| İstehsalat texnoparkı | Təcrübə konstruktor işlərinin aparılması, innovasiya məhsullarının təcrübi nümunələrinin yaradılması | İnnovasiya fəaliyyətinin təcrübi istehsalat bazası olmayan subyektləri üstünlük təşkil edir |
| Vertual texnopark | Regionda innovasiya prosesinin bütün iştirakçıları arasında informasiya fəaliyyəti və əlaqələrinin təşkili | Vahid informasiya infrastrukturunda inteqrasiya oluna bilən paylanmış innovasiya ehtiyatlarına malikdir |
| Kompleks texnoparkı | Bütün innovasiya dövrünün həyata keçməsi | Pis inkişaf etmiş innovasiya potensialına malik region |

Struktur və funksional şəkildə texnopark modelləri araşdırıldığında ölkədən ölkəyə hətta eyni ölkənin içindəki bir texnoparkdan digərinə fərqliliklər göstərdiyi görülməkdədir.

Texnopark modellərini beş qrupa bölmək olar:

1. Dövlət əsaslı – texnoparkın quruluşunu birbaşa dövlət öz üzərinə götürür.
2. Universitet əsaslı – Universitetlərin öz başlarına ya da dövlətdən dəstək alaraq qurduqları, idarə edərək faydalandıqları texnoparklardır.

3. Özəl sektor əsasında − Universitetlər və maliyyə strukturu güclü firmalar tərəfindən əməkdaşlıq ilə qurulan texnoparklardır.
4. Yerli rəhbərliyə dayalı − Bəzi böyük şəhərlərdə bölgənin iqtisadi inkişafına töhfə vermək məqsədiylə yerli rəhbərliklər tərəfindən qurulub dəstəklənən parkları.
5. Qarışıq model − Dövlət və özəl sektorun birlikdə qurduğu texnoparklardır.

Dünyada olan 600-ə yaxın texnoparkların arasından arxitekturasına görə 3 modeli ayıra bilərik:

- Nöqtəvi model − maksimal kompakt kompozisiya, funksiyalar dəstəsi məhdud.
  - Kompleks model – böyük faiz yaşıllaşma və sosial ərazisi olan binalar və tikililər qrupu. Tərkibində və ya yaxınlığında universitet olur.
  - Meqa (İmkanlı) model – geniş funksiyaya (sosial, yaşayı, təhsil, istehsal) malik, əraziyə görə nəhəng model. Universitet ərazidə yerləşə bilər.

Beynəlxalq təcrübənin təhlilinə görə texnoparkın 3 tipinin açıqlanmasını verək:

Nöqtəvi texnopark şəhərdə kiçik sahədə yerləşir. Adətən onu əhatə edən şəhər infrastrukturu yaxşı inkişaf etməlidir. Funksional quruluşun tərkibi əsas element qrupları ilə kifayətlənə bilər: kommunikasiya, elmi-tədris, təbiət-park, adminstirativxidməti və işgüzar ofis və s. Nöqtəvi modelin əsas üstünlüyü kompaktlığıdır ki, bu da işçilərin üzvləri və ətrafda yerləşən universitet və ya elmi-tədqiqat institutları, tələbə, xidmət şirkətləri ilə intensiv əlaqə imkanı verir. Nöqtəvi texnopark modeli bazası əsasında inkubator növ texnopark yayılmağa başlamışdır. Bu modelin çatışmazlığı, həcminin kiçik olması, ərazi məhdudiyyəti və genişlənmə imkanının olmaması, inkişaf etmiş funksional quruluşun olmamasıdır. Texnoparkın nöqtəvi modelinin dinamik xüsusiyyətləri yalnız

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 234-239
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 234-239
DOI: https://doi.org/10.36719/2023/3/2

təşkilat səviyyəsində özünü göstərir: texnopark icarəçilərinin dəyişməsi, interyerin dəyişməsi (Əliyev, 2019).

Kompleks texnopark şəhərin tərkibində kifayət qədər sərbəst sahədə yerləşir. Nöqtəvi modeldən fərqli olaraq bu model ərazisində geniş funksiyalara malik bina və tikililərin yerləşməsinə geniş-tam park zonasının salınmasına imkan verir. Bu modeldə ilk növbədə texnoparkın nüvəsi təşkil edilir. Texnoparkın nüvəsinin tərkibinə elmi- tədris, administratır və inkubator biznesi, laboratoriya-istehsalat zonaları aiddir. Nüvənin işə salınmasından sonra hər 3-5 il orta ölçülü uyğun şəraitin təşkilini tələb edən şirkət yaradılır (paralel olaraq ərazi elmtutumlu şirkətlərin inkişafına təkan verən ərazilərlə (şirkətlərin texnologiyası və elmtutumlu məhsullarını təqdim etmək üçün ticarət-sərgi kompleksi, sosial obyektlər, satış və kommersiya obyektləri)).

Meqa texnopark − şəhərdən müəyyən məsafədə, ilkin infrastrukturu və kommunikasiyası olmayan ərazidə yerləşir. Ona görə də ərazidə çox elementləri "sıfırdan" başlamalıdır. Texnoparkın salınmasının ilkin mərhələsində məsrəflər tələb edir, lakin sonralar inkişaf üçün geniş ehtiyatlara malik olur.

Bura digər zonalar daxil ola bilər:

1. İstehsal-anbar obyektləri və loqistik kompleks zonası. Bu zona nəqliyyat vasitələri ilə təmin edilməlidir. Bura tədqiqat-labaratoriya kompleksi, məlumat mərkəzləri, elektroenerji zonaları aid olur.
2. İri şirkətlər zonası. Bu zona texnoparkla avtodayanacaq və labaratoriya platforma sistemi ilə birləşən ofis binalarından ibarət olur.
3. İdman-əyləncə mərkəzi.
4. Ticarət-sərgi mərkəzi, mehmanxana.
5. Orta şirkətlərin yerləşmə zonaları, sosial təminat təşkilatları.
6. Yaşayış zonası.

7. Elmi-tədris, mədəni və texnoparkın administrativ nüvə zonası (universitet, elmitədqiqat təşkilatı, müəllim və alimlərin yaşayış binaları, texnologiya muzeyi, kitabxana, mədəni mərkəz, banklar, administrativ və xidməti müəssisələr).
8. Konqress-mehmanxana, universal zal.
9. Biznes-inkubator, kiçik şirkətlər işçilərin yaşayış yerləri və əhalinin xidmət sistemləri quruluşu zonaları.

## Ədəbiyyat

1. Əliyev, T. (2019). Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Bakı: Elm və Bilik, 535 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 240-243
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 240-243
DOI: https://doi.org/10.36719/2023/3/2

**Rüstəm Rüstəmli**
Bakı Biznes Universiteti
magistrant
rustamli2000@list.ru

# KƏND TURİZMİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *rəqəmsal texnologiya, kənd turizmi, mövcud vəziyyətin təhlili, potensialın qiymətləndirilməsi, turistlər*
***Keywords:*** *digital technology, rural tourism, current situation analysis, potential assessment, tourists*

Turistlərin gəliş-gediş yerləri, demoqrafik və iqtisadi göstəriciləri müxtəlifdir, onların maraqları və səyahət “motivləri” də müxtəlifdir. Ümumiyyətlə, turistlərin səfərlərinin təşkilində onların mənəvi (emosional) ehtiyacları əsas rol oynayır.

Aqroturizm yeni praktiki kənd təcrübələrini və təsərrüfatları, kənd nəqliyyatını təqdir edən turistlər üçün istirahətdən daha maraqlıdır. Bu turistlərin öz sakit kəndləri, kənd təsərrüfatı heyvanları, təbiəti, bitkiləri, yerli insanları və mövcudluğu ilə daha güclü emosional əlaqəsi var və bu amillər onların turizm məkanı seçiminə xüsusi təsir göstərir. beləliklə, aqroturizm fəaliyyətinə başlamaq və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən müxtəlif insanlarla turistləri cəlb edə bilərsiniz (İbrahimov, 2017: 2).

Bugünkü iqtisadiyyat elektronika və telekommunikasiya erasının formalaşmasıdır və biz hazırda elektron iqtisadiyyatda yaşayırıq. Elektron idarəetmə həm neft, həm də qeyri-neft sektorunda üstünlük təşkil edir. Qeyri-neft sektorunun köklü və

inkişaf etmiş sahəsi olan turizm sahəsində elektronlaşdırma işləri davam etdirilir. Məsələn, bir çox mobil proqramlar artıq bir çox turistə öz zövqünə, keyfiyyətinə və büdcəsinə uyğun olaraq istədikləri regionda gecələmək üçün otellərdə və ya mehmanxana tipli müəssisələrdə yerləri əvvəlcədən bron etməyə imkan verir. Siz hətta onlayn bankçılıq proqramından istifadə edərək əvvəlcədən ödəniş edə bilərsiniz. Məhz bu formada turistlər vaxtaşırı bazara və büdcələrə nəzarət edə bilirlər. Bundan əlavə, onlar mütəmadi olaraq alınan bağlamalar haqqında məlumat ala bilərlər. Hazırda dünyada bir çox məşhur səyahət mobil proqramları mövcuddur. Bu mobil proqramlara Booking.com və Trivago daxildir.

Araşdırmadan da göründüyü kimi, rəqəmsal idarəetmə turizm sahəsində böyük müsbət nəticələr verir. Bu üstünlüyün gənc turizm sənayesi olan aqroturizmə də tətbiqi vacib hesab edilir. Bu günədək bu sahədə bir sıra layihələr hazırlanıb və onların bir çoxu artıq istifadəyə verilib. Azərbaycanda bu istiqamətdə aparılan işlərdən biri də “Agritour” rəqəmsal platformasıdır. Bu yeni platformanın mahiyyəti ondan ibarətdir ki, həm yerli, həm də xarici turistlər “Agritour” layihəsi çərçivəsində ölkəmizin turizm potensialına malik olan aqrar rayonları ilə yaxından tanış ola biləcəklər. Bu layihənin həyata keçirilməsi həm də ölkəmizin aqrar sektoruna xarici sərmayənin cəlb edilməsinə kömək edəcək.

Agritur turistləri kənd təsərrüfatı müəssisələrinə, aqroparklara, istehsal sahələrinə, fermalara və digər kənd təsərrüfatı komplekslərinə cəlb edəcək rəqəmsal platformadır. Ölkəmizdə kənd təsərrüfatı və turizm sahələrinə böyük diqqət yetirilir və turistlərin böyük marağına səbəb olacaq infrastrukturun olması layihənin perspektivlərini artırır. Layihənin məqsədi turistləri ölkəmizin aqrar sektoru ilə yaxından tanış etmək, onların müəyyən bilik və bacarıqlara yiyələnməsinə şərait yaratmaq, kiçik və orta sahibkarlığın bu

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 240-243
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 240-243
DOI: https://doi.org/10.36719/2023/3/2

sektora daxil olmasına həvəsləndirmək, yerli turizmə dəstək verməkdir. turizm resurslarından maksimum istifadə etmək. Həmçinin əcnəbi turistlərə kənd təsərrüfatı turları və xidmətlərin göstərilməsi nəzərdə tutulur. Bu da öz növbəsində xarici turistləri Azərbaycanı, onun kənd təsərrüfatı sahəsini tanımağa, təbii kənd təsərrüfatı məhsullarını sınamağa, kənd təsərrüfatı müəssisə və şirkətləri ilə işgüzar tərəfdaşlıq imkanlarını araşdırmağa sövq edəcək. Ona görə də layihə ölkəmizin kənd təsərrüfatı sahəsinə xarici investisiya cəlb edə bilər.

Bundan əlavə, ölkəmizdə rəqəmsal aqroturizm istiqamətində yeni layihə olan Tovil-lage.az platformasının beta versiyası istifadəyə verilib. Portalın yaradılmasında əsas məqsəd yerli və xarici turistləri Azərbaycanın müxtəlif bölgələrindəki kəndli təsərrüfatları ilə yaxından tanış etmək, alternativ asudə vaxtlarını turistlər üçün daha əlçatan etmək, ölkəmizdə aqroturizmin inkişafını təmin etmək, eyni zamanda turizmin inkişafına töhfə verməkdir. regionlarda yaşayan əhalinin fərdi sahibkar kimi sosial rifahı .

Turistlər bu portal vasitəsilə Şamaxı, Quba, İsmayıllı, Zaqatala, Şəki və Lənkəran rayonlarında təşkil olunan turlara qoşula bilərlər. Onlar həmçinin öz maraqlarına uyğun fərdi turlar sifariş edə bilərlər. Portalda aqroturun təşkil olunduğu hər bir təsərrüfat haqqında ətraflı məlumat var. Tur sifariş etmək istəyənlər səfərin proqramı ilə tanış ola bilərlər.

Digər turlardan fərqli olaraq "Şəhərdən kəndə" şüarı ilə hazırlanan turlara qoşulan səyahətçilər burada kənd evləri, təsərrüfatlar, kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan müəssisələr vasitəsilə səyahət edirlər. Tur iştirakçıları müxtəlif bölgələrdən gələn təbii kənd təsərrüfatı məhsulları və yerli mətbəxlərdən yemək yeyir, müxtəlif fermer sahələri ilə tanış olur, mövsümdən asılı olaraq meyvə yığımı, ağacəkmə, at

sürmə, balıqçılıq və digər fəaliyyətlərdə iştirak edir, həmçinin fermerlərdən kənd təsərrüfatı məhsullarını ala bilərlər.

Layihə çərçivəsində müxtəlif rayonlarda fəaliyyət göstərən 300-dən çox kəndli-fermer təsərrüfatı və aqrar sahibkarlarla görüşlər təşkil edilmiş, onlara layihənin məqsəd və prinsipləri barədə ətraflı maarifləndirici məlumatlar verilmişdir.

Hazırlanan bu layihəyə maraq böyük idi. İndiyədək görüşlərin təşkil olunduğu təsərrüfatların 200-ə yaxın sahibi birbaşa və ya internet səhifəsi və sosial media hesabları vasitəsilə layihədə iştirak etmək üçün müraciət edib. Layihədə iştirak edən fermerlər yerli və xarici mütəxəssislər tərəfindən təlim keçiblər. Turistlərin bu sahədə marağını nəzərə alaraq qeyd etmək olar ki, bu sahədə rəqəmsal texnologiyalardan istifadə də sürətlə inkişaf edir .

Araşdırma nəticəsində məlum olub ki, aqroturizmdə rəqəmsal idarəetməni tətbiq etməklə turistlər tez və rahat şəkildə istirahət istiqamətlərini seçə və bununla da öz xərclərini idarə edə bilirlər. Dünya təcrübəsində onlar bu yeniliyi tətbiq etməkdə artıq xeyli irəliləyiblər. Azərbaycanda aqroturizmə rəqəmsallaşmanın tətbiqi ilə bölgələrdə fermerlərin turizmin bu növünə marağı bərpa olunub.

## Ədəbiyyat

1. İbrahimov, İ.H. (2017). Azərbaycanda aqroturizmin inkişaf perspektivləri. Az. KTİETİ. Elmi əsərləri. Bakı, № 3, s.136-141.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 244-246
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 244-246
DOI: https://doi.org/10.36719/2023/3/2

**Şahin Alxasov**
Bakı Biznes Universiteti
magistrant
salxasov420@gmail.com

# AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN HÜQUQİ BAZASININ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *sahibkarlıq, hüquqi baza, tənzimlənmə, iqtisadi siyasət, məhsul*
***Keywords:*** *entrepreneurship, legal framework, regulation, economic policy, product*

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neftsektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə kiçik və orta sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılmasıdır. Beynəlxalq təcrübə göstərir ki, kiçik və orta sahibkarlığın səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə istehsal olunan məhsul və xidmətlərin yarıdan çoxu, elmi texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin 80 %-i, hər yeni açılan 3 iş yerindən ikisi həmin sahənin payına düşür. Eyni zamanda kiçik və orta sahibkarlıq subyektləri əhalinin tələbatına daha həssas olduğundan, bazar konyukturunun dəyişikliklərinə operativ reaksiya verib, istehal və istehlak sferalarındakı müvafiq boşluqları daha dolğun və səmərəli şəkildə doldura bilirlər. Bundan əlavə, kiçik və orta sahibkarlıq orta təbəqənin formalaşmasının əsas mənbəyi kimi cəmiyyətdə zəruri sabitlik təmin edərək, ölkədə həyata

keçirilən demokratik yönümlü, mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəklənməsinin sosial bazasını genişləndirir

Beynəlxalq təcrübədən o da məlumdur ki, səmərəli fəaliyyət göstərən, oturuşmuş və güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli bir proses olub, xeyli dərəcədə dövlət hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilən iqtisadi, hüquqi, siyasi və s. şəraitin əlverişlilik, həm də dövlətin sahibakrlığın və cəmiyyətin partnyorluğunun səmərəlilik dərəcəsindən asılıdır.

Azərbaycanda planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid prosesində bazar münasibətlərinə əsaslanan təsərrüfatçılıq sistemi üçün səciyyəvi qanunvericilk bazası yaradılmışdır. Özəlləşdirmə və aqrar islahatlara dair qanunlar qəbul edilmiş, qiymətlərin və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, valyuta bazarının formalaşdırılması, müəssisələrin təsərrüfat fəaliyyətində dövlətin rolunun məhdudlaşdırılması və sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılmasına yönələn hüquqi normativ aktlar qəbul edilmişdir.

Ölkədə bazar institutlarının formalaşdırılması, valyuta birjası, kredit, qiymətli kağızlar, sığorta və lizinq bazarlarının yaradılması istiqamətində zəruri işlər görülmüşdür. Sahibkarlığın inkişafında əhəmiyyətli dövlət dəstəyi mexanizmi olan xüsusi iqtisadi zonaların yaradılmasının qanunvericilik bazası formalaşdırılmışdır. Həyata keçirilən islahatlar nəticəsində ÜDM-də özəl sektorun payı 2020-ci ildə 84 %-ə çatmışdır. Belə ki, ölkəmizdə məşğul əhalinin 76 faizi özəl sektorda çalışır. Hazırda ölkə üzrə 142 min müəssisə və ya təşkilatın 130 mini (91,4 faizi) məhz özəl sektorun əhatə dairəsinə daxildir. İqtisadiyyatın şaxələndirilməsi və neft amilindən asılılığın aradan qaldırılması ilə bağlı tədbirlər sırasında kənd təsərrüfatı mühüm yer tutur. 2019-cu ildə

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 244-246
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 244-246
DOI: https://doi.org/10.36719/2023/3/2

iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz artıb. Əlavə dəyərin 6,2 faizi məhz kənd təsərrüfatının payına düşür. 2019-cu ildə kənd təsərrüfatının faktiki qiymətlərlə dəyəri 7 milyard manat təşkil edib ki, onun da təxminən 3,5 milyard manatı heyvandarlıq, 3,5 milyard manatı isə bitkiçilik məhsullarına aiddir. 2019-cu il ərzində kənd təsərrüfatının ümumi məhsulu ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,3 faiz artıb.

Azərbaycanda planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçid prosesində kiçik və orta sahibkarlığın inkişafı istiqamətində xeyli iş görülmüşdür. Ölkədə 200 mindən artıq kiçik sahibakrlıq subyekti, o cümlədən 14 mindən artıq kiçik müəssisə fəaliyyət göstərir. Bununla belə, hələlik Azərbaycanda istehsal olunan məhsulda kiçik sahbklarlığın xüsusi çəkisi, eləcə də qabaqcıl texnika və texnologiyanın istehsala tətbiqi və s. bu cür mühüm göstəricilər üzrə kiçik və orta sahibkarlığın payı sosial-iqtisadi tərəqqiyə güclü təkan vermək səviyyəsinə çatmayıb. Fərdi sahibkarın təsərrüfat fəaliyyətinin nəticələrini də bura əlavə etsək, yenə kiçik sahibkarlığın səmərəli fəaliyyətini xarakterizə edən həmin beynəlxalq göstəricilərdən çox uzağıq. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Aparılan sosioloji tədqiqatların nəticələri göstərir ki, 10 il bundan əvvəl sahibakarlığın inkişafına mane olan amillərin bir hissəsi bu gün də həmin sahənin inkişafına mane olmaqda davam edir. Burada korrupsiya, sağlam rəqabət mühitinin yetərli səviyyədə olmaması, vergi yükünün ağırlığı və son vaxtlar bu sahədəki müdaxilələrinin artması, hüquqi-normativ baza sahəsindəki çatışmamazlıqlar daha ciddi xarakter daşıyır. Həmin problemlərin həllinin sürətləndirilməsində digər şərtlərlə yanaşı, kiçik və orta sahibkarlığın hüquqi bazasının təkminləşdirliməsi məsələləri xüsusi aktuallıq kəsb edir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 247-250
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 247-250
DOI: https://doi.org/10.36719/2023/3/2

**Səadət Beydullayeva**
Bakı Biznes Universiteti
magistrant
beydullayevasaadat@gmail.com

# AZƏRBAYCANDA AQRAR SİYASƏTİN YENİ MƏRHƏLƏSİ

***Açar sözlər:*** *kənd təsərrüfatı, istehlak bazarı, aqrar iqtisadiyyat, qeyri-neft sektoru, aqrar islahat*

***Keywords:*** *agriculture, consumer market, agrarian economy, non-oil sector, agrarian reform*

Dövlət müstəqilliyi şəraitində həyata keçirilən əsaslı aqrar islahatlardan sonra ölkəmizin kənd təsərrüfatının yeni iqtisadi sistem daxilində və ekzogen amillərin təsiri ilə inkişaf şərtlərinin mərhələlər üzrə əsaslı dəyişməsi rejimində fəaliyyət göstərməsi, öz növbəsində, sahədə artım mənbələrinin formalaşmasında və artım templərinin dinamikasında xüsusiyyətlərin əmələ gəlməsinə səbəb olmuşdur. Aqrar sahədə artım dinamikası istifadə olunan istehsal resurslarının həcminin ardıcıl surətdə, həm də miqyaslı genişlənməsi şəraitində formalaşmışdır. Belə vəziyyətdə ölkənin kənd təsərrüfatında artımın resurs aspekti diqqəti xüsusi cəlb edir. Məsələnin bu cəhətinin empirik araşdırılması artım amilləri və şərtlərinə baxışların dəqiqləşdirilməsinə, aqrar istehsalın artım templərinin formalaşmasında hər bir resurs növünün rolunun aydınlaşdırılmasına imkan açmaqla yanaşı, sahənin gələcək inkişaf dinamikasının müəyyən olunması yoluna işıq tuta bilər.

Eyni zamanda əhalinin real gəlirlərinin dinamik artımı meylinin qarşıdakı dövrdə də davam edəcəyi nəzərə alınmaqla, yüksələn tələbin səmərəli şərtlərlə ödənilməsi, habelə dünya bazarına rəqabətqabiliyyətli məhsul çıxarılmasının ardıcıl

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 247-250
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 247-250
DOI: https://doi.org/10.36719/2023/3/2

genişləndirilməsi kənd təsərrüfatının dinamik inkişafı probleminin prioritetliyinin gözlənilməsi zəruriliyini şərtləndirir. Bununla əlaqədar, aqrar istehsalın artım potensiyalının yüksəldilməsi ilə bağlı məsələlərin araşdırılması aktuallığını saxlamaqdadır (Əhmədov, 2015).

Qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatında da son 5 ildə həyata keçirilən hərtərəfli islahatlar sayəsində davamlı inkişaf əldə edilib. Dövlət başçısı tərəfindən qəbul edilmiş müvafiq qərarlara uyğun olaraq kənd təsərrüfatının dayanıqlı inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurulub, aqrar sahənin potensialının artırılması üçün innovativ texnika və texnologiyaların tətbiqi və istehsalda yeni mütərəqqi üsullara keçidin əhatə dairəsi daha da genişləndirilib. Bu görülən işlər hesabına ölkədə ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına daha da gücləndirilməsi və idxaldan asılılığın azaldılması, bir sıra məhsullar üzrə ixracın artırılması istiqamətində mühüm nəticələr əldə olunub.

Son illərdə aqrar sahənin inkişafı üçün görülən işlər sırasında kənd təsərrüfatının rəqəmsallaşdırılması yönündə atılan ən vacib və əhəmiyyətli addım kimi Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) yaradılmasını göstərmək olar.

EKTİS kənd təsərrüfatı sahəsi üzrə geniş əhatəli informasiya bazasının qurulmasına zəmin yaradan vahid sistem, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi tədbirlərinin bütün mərhələləri ilə bağlı biznes prosesləri əhatə edən şəffaf və operativ idarəetmə alətidir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na əsasən, 2020-ci ildən başlayaraq bitkiçilik və heyvandarlıq sahəsində fermerlərə subsidiyalar alternativsiz olaraq yalnız

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 247-250
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 247-250
DOI: https://doi.org/10.36719/2023/3/2

EKTİS vasitəsilə verilir. Bu, fermerlərə dair daha detallı məlumatların əldə edilməsi və sistemləşdirilməsinə şərait yaradır. Belə ki, əkinlərini bəyan edən fermerlərin rayon və kəndlər üzrə sayı, bəyan edilən ərazi, təsərrüfat profili, həmçinin məhsul və heyvan subsidiyasına dair məlumatlar strukturlaşdırılaraq təhlil olunur.

Son illərdə aqrar sahədə aparılan islahatlara ən böyük töhfələrdən biri də ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdir.

Kənd təsərrüfatının inkişafı istiqamətində daha bir mühüm addım dövlət dəstəyi ilə yaradılan aqrar sığorta mexanizmidir. Bununla bağlı Prezident İlham Əliyev 2019-cu il avqustun 19-da “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və “Aqrar Sığorta Fondunun yaradılması barədə” Fərman imzalayıb. Bununla da aqrar sığorta sahəsində bir neçə ölkədə tətbiq olunan modellər öyrənilib, bu modellər əsasında Aqrar Sığorta Fondu yaradılıb, aqrar sığorta mexanizminin tətbiqi təmin edilib.

Aqrar sahədə davamlı inkişafın təmin olunması üçün Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini 3 prinsip üzərində – fermerlərə yaxınlıq, düzgün idarəçilik və innovasiyaların tətbiqi prinsiplərinə əsasən qurub. Son illər aqrar sahədə həyata keçirilən institusional islahatlar da bu prinsiplərə əsaslanır. Bu istiqamətdə görülən işlərdən biri də fermerlərə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, bu xidmətlərə əlçatanlığın artırılması ilə bağlıdır. Bunun təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olmuş 4 qurumun – Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq

Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında 2019-cu ildə Aqrar Xidmətlər Agentliyi (AXA) yaradıldı.

Aqrar sahədə həyata keçirilən islahatların bir istiqaməti də kadr potensialının gücləndirilməsi, peşəkar kadrların yetişdirilməsidir. Bu proses əsasən, Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) həyata keçirilir. Son illərdə rəqabətədavamlı kadr hazırlığının təmin edilməsi məqsədilə Universitetin maddi-texniki bazası xeyli müasirləşdirilib.

## Ədəbiyyat

1. Əhmədov, R.K. (2015). "Aqrar sektorun maliyyə təminatının yüksəldilməsində vergi güzəştlərinin rolu". "Azərbaycanın vergi jurnalı", № 5 (125), s.89-102.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 251-254
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 251-254
DOI: https://doi.org/10.36719/2023/3/2

**Səbinə Məhərrəmova**
Bakı Biznes Universiteti
magistrant
1919sebine@gmail.com

# SIĞORTA ŞİRKƏTLƏRİNDƏ DAXİLİ AUDİT KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *sığorta, qiymətləndirmə, daxili audit, keyfiyyət, audit*
***Keywords:*** *insurance, assessment, internal audit, quality, audit*

Daxili nəzarət sisteminin qiymətləndirilməsi auditor tərəfindən üç istiqamətdə aparılır:

- sığorta təşkilatının daxili nəzarət sistemi ilə ümumi tanışlıq;
- daxili nəzarət sistemi etibarlılığının ilkin qiymətləndirilməsi;
- daxili nəzarət sistemi qiymətləndirməsinin etibarlılığının təsdiqlənməsi.

Daxili nəzarət sistemi səmərəliliyi barədə auditorun rəyi audit prosedurlarının detallığı və seçmə dərəcəsini planlaşdırmaq üçün əsasdır. Daxili nəzarət sistemindəki ciddi çatışmazlıqları, onların aradan qaldırılması üçün tövsiyələri, auditor yazılı məlumatda yoxlanılan sığorta təşkilatının rəhbərliyinə təqdim etməlidir. Yoxlanılan sığorta şirkətinin idarəetmə keyfiyyətinin qiymətləndirilməsi, sığorta şirkətlərinin sığorta fəaliyyətlərini necə həyata keçirmələri, sığorta ehtiyatlarının formalaşdırılması və yerləşdirilməsi, sığortaolunan qarşısında öhdəliklərin vaxtında yerinə yetirilib yetirilməməsindən asılıdır.

Sığorta şirkətinin idarəetmə keyfiyyətinin qiymətləndirilməsi aşağıda müəyyənləşdirdiyimiz doqquz istiqamət əsasında aparıla bilər:

- fəaliyyətin nəticələri (sığorta təşkilatının öhdəliklərini nə qədər uğurla yerinə yetirdiyinə görə qiymətləndirilir);
- təşkilati və texniki məsələlərdə səlahiyyət;
- tətbiq olunan qanuna uyğunluq;
- sığorta şirkətinin fəaliyyətini planlaşdırmaq və yeni şərtlərə uyğunlaşmaq imkanı;
- idarəetmə məlumatlandırma və daxili nəzarət sisteminin effektivliyi;
- daxili siyasətə uyğunluq;
- tənzimləyici orqanların yoxlamaları və müstəqil auditorların yoxlamaları nəticəsində görülən tədbirlər;
- idarəetmənin davamlılığını təmin etmək;
- bölgədəki sığorta xidmətlərinə olan tələbatı ödəməyə hazır olmaq.

Nizamnamə kapitalının formalaşmasını yoxlayarkən, auditor, bütün təsisçilərin qanunvericiliyə və təsis sənədlərinə uyğun olaraq nizamnamə kapitalına töhfələrinin vaxtında verilməsi və nizamnamə kapitalının formalaşmasının qanuniliyi və etibarlılığına əmin olmalıdır. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının formalaşması yoxlanılarkən nizamnamə kapitalının formalaşdırılması və qeydiyyatı qaydasına diqqət yetirilməlidir. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının formalaşdırılması qaydası və metodlarını tənzimləyən qaydalara əməl edilməməsi cəmiyyətin özü və səhmdarları üçün ciddi fəsadlara səbəb ola bilər və müəyyən edilmiş qaydada qeydiyyata alınmayan səhmlərlə aparılan əməliyyatlar etibarsız sayıla bilər. Nizamnamə kapitalının kapital mənbələrinin ümumi həcmində hansı nisbətdə olacağını müəyyən etmək də tövsiyə olunur. Sığorta şirkətlərində uçot siyasətinin auditi zamanı auditor,

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 251-254
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 251-254
DOI: https://doi.org/10.36719/2023/3/2

mühasibat uçotu və hesabatların vaxtında və tam şəkildə aparılması tələblərinə uyğun mühasibat uçotu üçün zəruri olan sintetik və analitik hesabları özündə əks etdirən mühasibat uçotu sənədlərinin iş qrafiki, ilkin mühasibat sənədlərinin standart formaları təqdim edilməyən maliyyə və təsərrüfat əməliyyatlarının işlənməsi üçün istifadə olunan ilkin uçot sənədlərinin formaları, habelə daxili maliyyə hesabatları üçün sənəd formaları, inventarizasiyanın aparılması qaydası, əmlak və öhdəlik növlərinin qiymətləndirilməsi üsulları və maliyyə və təsərrüfat əməliyyatlarının monitorinqi qaydası, habelə mühasibat uçotunun təşkili üçün zəruri olan digər qərarlara aid sənədlərlə tanış olmalıdır. Daha sonra auditor mühasibat uçotu siyasətində aşağıdakıların əks olunub-olunmadığını yoxlayır:

1. Sığorta ehtiyatlarının formalaşdırılması növləri və üsulları:
   - həyat sığortasından başqa hər bir sığorta növü üçün texniki ehtiyatlar;
   - həyat sığortası növü üzrə ehtiyatın formalaşdırılması üsulu;
   - onların yaradılması nəzərdə tutulursa, yanğın təhlükəsizliyi fondlarına qoyuluşların faizi.

2. Verilmiş, lakin iddia olunmayan zərərlərin ehtiyatının formalaşdırılması üçün hesabat dövrü və ayırmaların həcminin müəyyən edilib-edilməməsi.

3. Profilaktik tədbirlərin ehtiyatına ayrılan məbləğin miqdarı.

4. Sığorta və təkrar sığorta əməliyyatlarının auditi.

Daha sonra auditor, sığorta şirkəti tərəfindən göstərilən sığorta növünün mövcud sığorta qaydalarına uyğun olaraq sığorta şirkəti tərəfindən həyata keçirilə bilərmi sualına cavab tapır. Auditor alınan sığorta haqlarının uçotda əks olunmasının, təkrarsığorta əməliyyatlarının uçotunda əks olunmasının, tarif dərəcələrinin düzgün tətbiqi və sığorta haqlarının hesablanması qaydalarını, alınmış ödənişlər üzrə sığorta müqavilələrinin uçot jurnalında qeydlərin düzgün və vaxtında aparılmasını və alınan

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 251-254
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 251-254
DOI: https://doi.org/10.36719/2023/3/2

(hesablanmış) sığorta haqlarının maliyyə nəticələri haqqında hesabatda əks olunmasının düzgünlüyünü yoxlayır və qiymətləndirir. Siğorta ödənişlərinin auditini aparakən, auditor sığorta ödənişlərinin etibarlılığını yoxlayır, yəni, siğorta hadisəsinin baş verməsini təsdiqləyən bütün təsdiqedici sənədlər mövcud olmalıdı: siğortalıların ifadəsi, sığorta şəhadətnaməsi, yol polisi, tibb təşkilatı, istintaq orqanlarından müvafiq sənəd və s.

Auditor sığorta şirkətlərində xərclərin auditini yoxlayarkən, şirkətin fəaliyyəti üçün xərclərinin tərkibini və xərclərin düzgün bölüşdürülməsini müəyyənləşdirir. Daha sonra müəyyənləşdirdiyi xərcləri təsdiqləyən əsas sənədlərin mövcudluğunu yoxlayır. Vergilərin auditi, əlavə dəyər vergisinin (ƏDV) auditi vergi hesablamasının tamlığı və düzgünlüyünü yoxlamağı əhatə edir. "Əlavə dəyər vergisinin hesablanması və ödənilməsi qaydası haqqında" qanuna əsasən, sığorta və təkrarsığorta əməliyyatları əlavə dəyər vergisindən azaddır. Əsas vəsaitlər və qeyri-maddi aktivlər amortizasiya məbləğləri vasitəsilə müəy-yən edilmiş qaydada silinməklə vergi məbləği də daxil olmaqla uçota alınır. Gəlir vergisinin auditi zamanı sığortaçının gəlirləri düzgün müəyyən edilməli və hesablanmalıdır. Gəlir vergisi üçün vergi bazasının hesablanması zamanı nəzərə alınan sığortaçıların gəlirlərinə, sığortaçının gəlirləri və digər fəaliyyətdən gəlirlər daxildir.

Qiymətləndirmə, həmçinin struktur bölmə və ya YSO ilə əks əlaqəni təmin etmək və keyfiyyətin daxili audit prosesini yaxşılaşdırmaq üçün keyfiyyətin daxili auditi yoxlanılan struktur bölmə və ya YSO tərəfindən qiymətləndirilir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 255-258
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 255-258
DOI: https://doi.org/10.36719/2023/3/2

**Sərraf Babayev**
Bakı Biznes Universiteti
magistrant
serrafbabayev24@gmail.com

# PUL VƏSAİTLƏRİNİN SƏMƏRƏLİ İSTİFADƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *pul, vəsait, səmərə, istifadə, təkmilləşdirmə, istiqamət*

***Keywords:*** *money, means, effect, use, improvement, direction*

Müvafiq olaraq, cari nəzarəti maliyyə əməliyyatlarının icrası sövdələşmələr zamanı həyata keçirilərək əsasən mühasibatlıq qismində çıxış edir deyir. İlkin maliyyə nəzarəti isə maliyyə əməliyyatlarını icra edilməsindən əvvəl yerinə yetirilir və bu, xüsusilə də maliyyə pozuntularının qarşısının alınması məqsədi ilə baş verir. Burada pul vəsaitlərinin səmərəli istifadə etmək üçün maliyyə nəzarəti əsas amil kimi götürülür.

Pul vəsaitlərinin və onların ekvivalentlərinin audit yoxlanmasından keçirilməsi üçün auditor ilkin sənədlərdən (kassa mədaxil orderi, kassa məxaric orderi, tabellər, əmək ödənişi cədvəli, bank hesablarından çıxarışlar) və digər uçot registrlərinin (1 və 2 №-li jurnal orderlər, 1-2 №-li cədvəllər, kassa kitabı, baş kitab) rəqəm məlumatlarından istifadə edir. Audit yoxlamasının məqsədi isə pul vəsaitlərinin və onların ekvivalentlərinin mədaxil edilməsi, saxlanması və məxaric edilməsi zamanı qüvvədə olan normativ hüquqi sənədlərə, təlimat və göstərişlərə, müəssisənin özünün uçot siyasətinin prinsiplərinə nə dərəcədə riayət olunmasını aşkara

çıxarılmasından ibarətdir. Yoxlama zamanı auditor sərəncamverici və icraedici sənədlərin qanunvericilik aktlarının tələbləri ilə nə dərəcədə uzlaşmasına və mədaxil, məxaric edilən pul vəsaitlərinin həmin əməliyyatları özündə əks etdirən ilkin sənədlərdən sonrakı uçot registrlərinə düzgün köçürülməsi kimi məsələlərə də ciddi fikir verilməlidir (Abbasov, 2013: 33).

XIX əsrdə dünya iqtisadiyyatı elmi-texniki inkişafın yeni mərhələsini formalaşdırmağa cəhd edir. Onun təşkilediciləri olan "bilik iqtisadiyyatın" sürətli inkişafı, yeni texnologiyaların sosial oriyentasiyasının güclənməsi, biliyin, texnologiyanın, məhsul və xidmətlərin yaradılması və istifadəsi qlobal xarakter daşıyır.

Hazırda dünya iqtisadiyyatında altıncı texnoloji sistem formalaşdırılmasına tədricən başlanılır, bunun da əsasını bioinformatika, nanotexnologiya, fotoinformatika, qlobal informasiya şəbəkəsi və CALS texnologiyası təşkil edəcəkdir.

CALS texnologiyası məhsulun həyat tsiklinin yüksək avtomatlaşdırılmış və təmərküzləşmiş idarəedilməsi prosesində sahibkarlıq proseslərinin yenidən qurulmasına dair hökümətin və sənayenin vahid strategiyasıdır. Bu texnologiyanın əsas məqsədi əmtəənin bazara daxil olması vaxtini qısaltmaq, məhsulun həyat tsikli üzrə maya dəyərini azaltmaq və keyfiyyətini yüksəltməkdir.

Dünya iqtisadiyyatının inkişafı müəyyən mərhələlərdən, daha doğrusu həyat tsiklindən (kənd təsərrüfatı dövrü,

industrial sistem, postindustrial sistem) keçmişdir. Son illər yeni qlobal iqtisadi sistemin təşəkkülü müşahidə edilir. İqtisadiyyatın industral ve postindustral sisteminin ava zinə yeni iqtisadi sistem-innovasiya dövrü başlamışdır.

Yeni iqtisadi sistem təsərrüfat subyektlərinin xarici mühitdə davamlı inkişafına imkan verən rəqabət üstünlüyü ilə səciyyələnir. Bu, hər şeydən əvvəl, qeyri-material aktivlərin rolunun artırılmasında və intellektual kapitalın geniş investisiyalaşdırılmasında təzahür edir. Müasir rəqabət kapital resurslarına və maddi qiymətlərə malik olmaq uğrunda deyil, innovasiyanın işlənilməsi və tətbiqinin sürətləndirilməsini təmin etmək uğrunda gedir.

İqtisadi ədəbiyyatda bu proses industrial və postindustrial iqtisadiyyatdan innovasiyalı iqtisadiyyata keçid kimi xarakterizə edilir, bu da XXI əsrdə dominatlaşacaqdır. Sözügedən iqtisadi sistemlərin məzmununda əsas fərq ondan ibarətdir ki, industrial iqtisadiyyatda yeni biliklərin tabii resurslara, avadanlığa və əməyə əlavə edilməsi hesabına məhsulun təkmilləşməsinə nail olunursa, innovasiyalı iqtisadiyyatda isə bu inkişaf yeni biliklərin mövcud olanlara tətbiqi hesabına təmin edilir.

Müasir bazar iqtisadiyyatı şəraitində müəssisənin innovasiyalı inkişaf metodologiyasını işləyib hazırlamadan yeni texologiyaların təsərrüfat dövriyyəsinə cəlb edilməsinin səmərəliliyini artırmaq qeyri-mümkündür. Sahibkarlığın innovasiyalı inkişaf problemləri innovasiyanın tətbiqi bütövlükdə müəssisənin korporativ inkişafı ilə deyil, ayrı-ayn istehsalın funksional idarə olunması ilə eyniləşdirilir. Nəticədə innovasiyanın tətbiqinə kifayət qədər resurs ayrılmır, yəni, texnoloji potensialdan tam və səmərəli istifadə olunmur.

Müasir innovasiya sferasında həll edilməmiş problemlər az deyil. Məsələn, müəssisənin innovasiyalı inkişafı və strateji fəaliyyəti arasında dinamik uyğunluğun təmin edilməsi

problemi bu günə qədər qalmaqdadır. Bu öz növbəsində yeni texnoloji nailiyyətlərin tətbiqinin sürətləndirilməsi, onun nəticəsi kimi məhsulun keyfiyyətinin artırılması, istehlakçıların artan tələbatının ödənilməsi və müəssisənin rəqabətqabiliyyətinin yüksəldilməsi məsələlərinin həllini ləngidir. Hazırda ölkənin sənaye müəssisələrinin cəmi 15 faizində innovasiyanın işlənməsi və tətbiqi həyata keçirilir.

Bu problemin mövcud olması bazar iqtisadiyyatının tələblərini nəzərə almaqla təsərrüfat subyektlərinin innovasiya aktivliyinin artırılmasını və biznesin innovasiyalı inkişafını təmin edən yollar, formalar və metodların tədqiqinə böyük ehtiyac vardır. Təsərrüfat obyektinin innovasiyalı inkişaf prosesi innovasiya məhsulunun təchizat bazarına çıxışı ilə başa çatmır. Belə ki, innovasiya məhsulunun istehsalı prosesində bazar konyukturunun dəyişilməsini nəzərə almaqla, onun fasiləsiz təzələnməsi baş verir. Bununla əlaqədar təsərrüfat obyektinin innovasiyalı marketinq sistemi müxtəlif informasiya mənbələrini öyrənir, onların hər biri üzrə analitik-qiymətləndirmə sənədi hazırlayır və onu təsərrüfat obyektinin müvafiq struktur bölmələrinə təqdim edir.

Marketoloq məhsulun təzələnməsində və yeni məhsul istehsalında öz rəqiblərini qabaqlamaq məqsədilə elmi-texniki inkişafın perspektiv istiqamətlərini müəyyənləşdirir. Bu vəzifəni marketoloq tədqiqatçılar, təsərrüfat obyektinin mütəxəssisləri ilə birgə yerinə yetirir. Marketoloqun ən başlıca vəzifəsi innovasiya məhsulunun təhcizat bazarına çıxışını təşkil etməkdir, bu da çox böyük riskli işdir. Məhz ona görə də innovasiya marketinqi yeni məhsulun kommersiya perspektivliyini tədqiq etməli və bu zaman marketinqin konkret məqsədi innovasiyanın xarakteri ilə müəyyənləşdirilməlidir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 285-289
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 285-289
DOI: https://doi.org/10.36719/2023/3/2

## Ədəbiyyat

1. Əliyev, T.M. (2022). Biznesin (sahibkarlığın) əsasları. Bakı: Bakı mətbəəsi ASC, 468 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 290-293
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 290-293
DOI: https://doi.org/10.36719/2023/3/2

**Xəlil Məmmədov**
Bakı Biznes Universiteti
magistrant
x.mamedov10@gmail.com

# İDARƏETMƏ HESABATI VƏ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *idarəetmə, hesabat, səmərəlilik, yüksəltmə, istiqamət*

***Keywords:*** *management, reporting, efficiency, promotion, direction*

İdarəetmə idarə edən orqanın (şəxsin) idarə edilən obyektin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə onun inkişafına fəal təsir etməsi prosesidir. İdarəetmənin mahiyyəti onun funksiyaları ilə xarakterizə olunur. İdarəetmənin ayrı-ayrı funksiyaları idarəçilik əməyinin bölünməsi və ixtisaslaşması prosesində ayrılıb. Onların əsasını planlaşdırma, uçot, təhlil və tənzimləmə təşkil edir (Cəfərli, 2018: 13).

İdarəetmə hesabatı hər hansı bir təşkilatın vacib funksiyasıdır. Bu, əsaslandırılmış qərarlar qəbul etmələrinə kömək etmək üçün məlumatların toplanması, təhlili və rəhbərliyə təqdim edilməsi prosesini əhatə edir. Effektiv idarəetmə hesabatı idarəetmə komandasına vaxtında və dəqiq məlumat verir, onlara təşkilata müsbət təsir göstərə biləcək strateji və əməliyyat qərarları qəbul etməyə imkan verir.

Bu məqalədə biz idarəetmə hesabatını araşdıracağıq və səmərəliliyin artırılması üçün istiqamətlər təqdim edəcəyik.

İdarəetmə hesabatı: bu nədir?

İdarəetmə hesabatı idarəetmə komandasına fikirlər və təhlillər təqdim edən hesabatlar hazırlamaq üçün məlumatların

toplanması prosesidir. Bu hesabatlar güclü və zəif tərəflərin əsas sahələrini vurğulayaraq təşkilatın fəaliyyətinin qısa təsvirini təqdim edir.

Rəhbərlik hesabatları adətən aylıq, rüblük və ya illik kimi müntəzəm olaraq hazırlanır. Bunlara maliyyə hesabatları, əməliyyat hesabatları və fəaliyyət hesabatları və digərləri daxil ola bilər.

İdarəetmə hesabatının məqsədi qərar qəbul edən şəxslərə vaxtında və dəqiq məlumat verməк, onlara əsaslandırılmış qərarlar qəbul etmək imkanı verməkdir. İdarəetmə hesabatları müvafiq, qısa və asan başa düşülən olmalı, təşkilatın fəaliyyətini yaxşılaşdırmağa kömək edə biləcək anlayışları təmin etməlidir.

Əgər uçotun maliyyə və idarəetmə uçotuna bölünməsi qəbul etsək, onda dövri hesabatları maliyyə hesabatlarına, daxili istifadə üçün nəzərdə tutulan hesabatları isə idarəetmə hesabatlarına aid edilməlidir. Hesabatın tərtibi müəyyən vaxt kəsiyi ərzində (ay, rüb, altı ay, il) müəssisənin təsərrüfat fəaliyyətinin son mərhələsi, eyni zamanda mühasibat uçotunun yekunu hesab olunur. Maliyyə hesabatının göstəriciləri müəssisənin fəaliyyətinin təkcə cari vəziyyətini deyil, həmçinin onun keçmiş hesabat dövrlərinə aid olan informasiyaları əks etdirir. Ona görə də hesabatdan istifadə edən şəxs cari informasiyaları keçmiş hesabat dövrünün informasiyaları ilə müqayisə etmək imkanlarına malik olur.

Beləliklə, seqmentin ilkin formatının seçilməsi şirkətin qərarından asılıdır, çünki idarəetmə hesabatının daxili sistemini o müstəqil surətdə müəyyən edir. Seqmentlərin hansı kateqoriyasının ilkin, hansının isə ikinci formatı kimi müəyyən edilməsi barədə informasiya hesabata qeydlərdə açıqlanır (İsmayılov, Əhmədov, Məmmədov, Həsənova, 2017: 348).

Effektiv idarəetmə hesabatı hər hansı bir təşkilatın uğuru üçün çox vacibdir. İdarəetmə hesabatında səmərəliliyin artırılması üçün bəzi istiqamətlər bunlardır:

1. Aydın məqsədləri və göstəriciləri müəyyən edin.

İdarəetmə hesabatında səmərəliliyin artırılmasının ilk addımı aydın məqsədlərin və ölçülərin müəyyən edilməsidir. Bu, əsaslandırılmış qərarlar qəbul etmək üçün hansı məlumatların tələb olunduğunu və performansı ölçmək üçün hansı ölçülərdən istifadə edilməli olduğunu müəyyən etməyi əhatə edir. Aydın məqsədlər və ölçülər idarəetmə hesabatlarının müvafiq və faydalı olmasını təmin etməyə kömək edir. Onlar məlumatların toplanması və təhlili üçün çərçivə təmin edərək, idarəetmə komandasına diqqəti ən vacib olan məlumatlara yönəltməyə imkan verir.

2. Hesabatı asanlaşdırmaq üçün texnologiyadan istifadə edin.

Texnologiya idarəetmə hesabatı prosesini sadələşdirmək, onu daha səmərəli və effektiv etmək üçün istifadə edilə bilər. Məlumatların toplanması, hesabatların hazırlanması və müvafiq maraqlı tərəflərə paylanması üçün avtomatlaşdırılmış hesabat alətlərindən istifadə edilə bilər. Hesabatları asanlaşdırmaq üçün texnologiyadan istifadə vaxta qənaət edə və xəta riskini azalda bilər. O, həmçinin digər mühüm vəzifələr üçün istifadə oluna bilən resursları azad edə bilər.

3. Məlumatların dəqiqliyini və bütövlüyünü təmin edin.

İdarəetmə hesabatları yalnız onların ehtiva etdiyi məlumatlar dəqiq və etibarlı olduqda faydalıdır. Məlumatların düzgün daxil edilməsini və təhlükəsiz şəkildə saxlanmasını təmin etmək vacibdir.

Məlumatların dəqiqliyi və bütövlüyü verilənlərin yoxlanılması yoxlamalarının həyata keçirilməsi və təhlükəsiz məlumat saxlama üsullarından istifadə etməklə təkmilləşdirilə bilər. Daimi məlumat auditləri də məlumatların dəqiq və aktual olmasını təmin etməyə kömək edə bilər.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 290-293
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 290-293
DOI: https://doi.org/10.36719/2023/3/2

4. Əməkdaşlıq və ünsiyyət qurun.

Əməkdaşlıq və ünsiyyət idarəetmə hesabatlarında səmərəliliyin artırılması üçün açardır. Hər kəsin hansı məlumatın və nə üçün məlumat verildiyini aydın şəkildə başa düşməsini təmin edərək, hesabat prosesinə bütün müvafiq maraqlı tərəfləri cəlb etmək vacibdir. Müntəzəm ünsiyyət təkmilləşdirmələr edilə bilən sahələri müəyyən etməyə kömək edə bilər və hesabat prosesini zamanla dəqiqləşdirməyə imkan verir.

## Ədəbiyyat

1. Cəfərli, H.A. (2018). İdarəetmə təhlili. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 234 s.
2. İsmayılov, M., Əhmədov, Y., Məmmədov, İ., Həsənova, N. (2017). "Maliyyə hesabatının təhlili". Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 294-297
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 294-297
DOI: https://doi.org/10.36719/2023/3/2

**Zirəddin Məmmədov**
Bakı Biznes Universiteti
magistrant
mmmdovzireddin@gmail.com

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SAHİBKARLIQ SAHƏSİNDƏ VERGİ MENECMENTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *vergi, menecment, ölkə iqtisadiyyatı, təkmilləşdirmə, vergi siyasəti, vergi yükü, büdcə gəlirləri*
***Keywords:*** *tax, management, national economy, improvement, tax policy, tax burden, budget revenues*

Vergi menecmentinin sahibkarlıq fəaliyyətinin inkişafında təkmilləşdirilməsində və stimullaşdırılmasında problemlərin mövcudluğu istisna edilmir. Tənzimləmənin daha səmərəli olması üçün, ilk növbədə vergilərin sahibkarlıq fəaliyyətinə təsiri problemləri araşdırmaq lazımdır və bu problemləri araşdırarkən bir sira məsələlər vardir ki, onlara diqqət yetirmək lazımdır. 1) Sahibkarlıq fəaliyyətində verginin rolu müasir şəraitə uyğun müəyyən olunmalıdır. 2) Verginin 2 əsas funksiyası olan fiskal və tənzimləyici funksiyasının rasional mütənasibliyinin təmin edilməsi yolları müəyyən olunmalıdır. Ümumiyyətlə, bildiyimiz kimi, vergilərin əsas funksiyası fiskal funksiyadır. Vergilərin digər funksiyalarıda ,eyni zamanda tənzimləyici funksiyasının səmərəli əhəmiyyətli olmasına baxmayaraq fiskal funksiyanın yerinə yetirilməsindən asılı olaraq reallaşan funksiyalardır. Vergi yükünün optimallaşdırılması vergi sisteminin menecmentsində mühüm rola malikdir. Optimallaşma mühüm rola malik olsa da, əsasən vergi menecmentsində əsas tədbirlər müəssisənin öhdəsində

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 294-297
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 294-297
DOI: https://doi.org/10.36719/2023/3/2

saxladığı vəsaitlərin əldə olunan əlavə gəlirdən daha az olmasıdır. Vergilər bərabərlik və ədalətlilik prinsiplərinə riayət olunmalıdır. Lakin bir sıra baş verən dolayı səbəblərə görə bu prinsiplər problemə çevirilir. Buna görə də vergi yükünü elə sistemləşdirmək lazımdırki vergi sistemini təkmilləşdirərkən büdcəyə daxil olan vergilər ÜDM-nun xüsusi çəkisinə bərabər olsun. Məntiq olaraq əgər biz hər hansısa bir sahənin vergi yükünü azaltsaq digər hansısa bir sahənin vergi yükü artacaq. Respublikamızın vergi sisteminin ən böyük mənfi xüsusiyyətlərindən biri mənfəət vergisinin dərəcəsini digər Avropa ölkələri ilə müqayisə etdikdə daha aşağıdır. Sahibkarlıq fəaliyyətinə ən güclü təsir göstərən vergi mənfəət vergisidir və məənfət vergisi tətbiq edilən zaman məhsulun istehsalı və satışı zamanı resusların azalması eyni zamanda müəssisənin borc öhdəliklərinin artması dövlət tərəfindən tənzimlənir. Mənfəət vergisi sahibkarlıq fəaliyyətinə ən güclü təsir göstərən vergidir. Menecment fəaliyyəti əsaslı, sistemli və elmi əsaslara nəzərən həyata keçirilməlidir. Məsrəflərin formal və iqtsadi əhəmiyyəti var. Əgər məsrəflərin menecmentsi həyata keçiririksə bu sistemli şəkildə yerinə yetirilir.Bu zaman isə menecment iqtisadi əhəmiyyətə malik olur. Amortizasiya ayırmaları məbləği iqtisadi fəaliyyət kimi mənfəət vergisinə çox ciddi təsir göstərir. Amortizasiya ayırmaların hesablanması vergi məcəlləsində dəqiq qaydası və hədləri göstərilməsinə baxmayaraq mühasibat hesabatlarını hazırlayarkən eyni zamanda amortizasiya ayırmalarını vergitutma məqsədi ilə hesablayərkən ciddi çatışmazlıqlar ortaya çıxır. Bu ortaya çıxan çatışmazlıqları aradan qaldırmaq üçün çarə olaraq, müəssisələrin maliyyə hesabatlarını hazırlayarkən hansı qaydada yerinə yetirilirsə vergi uçotunu həmin qaydada yerinə yetirmək lazımdır. Vergi menecmentsi investisiyanın fəaliyyətindədə çox mühüm rola malikdir. Belə ki, vergi menecmentsi investisiya fəaliyyətinin stimullaşdırılmasında və

eyni zamanda ölkə ərazisində səmərəli investisiya şəraiti formalaşdırılmasında əhəmiyyətli rola malikdir. Azərbaycan ərazisində amortizasiya ayırmaları yüksək normalar və azalan qalıq dəyəri vasitəsilə hesablanır. Bu yanaşmanı icra etdikdə ilk illərdə əsas vasitələrə yönəldilmiş sərmayələrin ödənilməsi effektiv şəkildə özünü büruzə verir. Lakin sonrakı illərdə bu amortizasiya hesablanması icra edildiyi zaman artıq əvvəlki illərdəki kimi nəticə əldə etmək olmur. Effektivlik xeyli dərəcədə azalmağa doğru meyl edir. Vergi menecmentsini səmərəli şəkildə həyata keçirilərsə bir sıra müsbət hallar baş verə bilər. Bu müsbət hallara investisiyanın artımını, iqtisadi sahələrin daha da təkmilləşdirilməsi, kiçik və orta müəssisələr üçün əlverişli şərait yaranır. Dövlət sahibkarlıq fəaliyyətinə 2 yolla təsir göstərə bilər. 1) birbaşa, 2) dolayı yol ilə. Birbaşa yolla inzibati menecment vasitəsilə təsir göstərir, dolayı yolla isə iqtqisadi tənzimləmə vasitəsilə təsir göstərir. Vergi sisteminin sahibkarlıq fəaliyyətinə həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı şəkildə təsir edə bilər. Sahibkarlıq fəaliyyəti həyata keçirən zaman onun müəyyən vasitələrlə onun başqa-başqa sahələrini stimullaşdıra və yaxud məhdudlaşdıra bilərik. Bu vasitələrdən: fərqli-fərqli vergi növlərini tətbiq etmək və yaxud ləğv etmək, vergi sisteminin məlumat bazasında dəyişiklər etmək, vergi sistemində vergi güzəştləri tətbiq etmək və yaxud vergi güzəştlərini ləğv etmək. Sahibkarlıq fəaliyyətində vergilər həm ona müsbət, eyni zamanda həm də mənfi təsir göstərə bilər. Bu mənfi və müsbət halları iqtisadi eyni zamanda vergi islahatlarında nəzərə alınması vacib amildir. Sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlər inkişaf etmiş ölkələrdə maliyyə menecmentində vergi məsələlərinə, xüsusilə verginin tənzimləmə metodlarına xüsusi yer verilir. Ümumiyyətlə, vergi amilinin ciddiyə alınmaması çox mühüm problemlərə yol açır. Bu zaman müəssisələrdə maliyyə bühranə baş verirki buda müflisləşmələrə səbəb olur.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 294-297
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 294-297
DOI: https://doi.org/10.36719/2023/3/2

Qeyd edə bilərik ki, əgər vergi güzəştlərindən səmərəli və düzgün şəkildə istifadə olunarsa investisiyaların, elmi-texniki yeniliklərin istehsalda tətbiqi stimullaşdırılmış vəziyyətə gələr.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 298-302
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 298-302
DOI: https://doi.org/10.36719/2023/3/2

**Zülqədər Zürqədərli**
Bakı Biznes Universiteti
magistrant
zulqeder.zulqeder@mail.ru

# AZƏRBAYCANDA VERGİ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *vergi, vergi tənzimlənməsi, vergi nəzarəti, təkmilləşmə, dövlət büdcəsi*
***Keywords:*** *tax, tax regulation, tax control, improvement, state budget*

Vergilər dövlət büdcəsinin formalaşmasında əsas gəlir mənbələrindən biri hesab olunur. Azərbaycanda vergi nəzarəti sisteminin təkmilləşdirilməsi hələ islahatlar vasitəsi ilə davam edən proseslərdən biridir. Hələ 2012-ci il 29 dekabr tarixində Azərbaycan Respublikasının Prezidentinin 800 saylı Fərmanı ilə "Azərbaycan 2020-ci il gələcəyə baxış" inkişaf konsepsiyasında Vergilər Nazirliyində "Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji planda" və "vergi sisteminin inkişaf strategiyası" hazırlanmışdır.

Vergi nəzarətinin təkmilləşdirilməsi birbaşa vergi sisteminin bütöv inkişaf göstəricilərinə təsir etməkdədir. Hökümətin doğru vergi siyasətinin reallaşdırması vergi nəzarətinin necə təşkil olunmasına birbaşa bağlıdır. Vergi nəzarətinin inkişafı məqsədilə Azərbaycan inkişaf etmiş ölkələrin nəzarət sistemlərini tarixinin təhlili vasitəsi ilə öz sistemini təkmilləşdirmişdir. Burada ölkəmiz hər bir dövrdə müxtəlif ölkələrdə olan vergi nəzarətilə dövrün göstəricilərini müqayisə etmişdir.

Vergi nəzarətinin təkmilləşdirilməsi əsasən aşağıdakı başlıqlar çərçivəsində həyata keçirilir:

1) Vergi nəzarəti üzrə təsirli strategiyaların formalaşdırılması və təsdiqi olunması;
2) Vergi nəzarətinin təsirinin və keyfiyyətinin yüksəldilməsi;
3) Vergi nəzarətinin təsir əhatəsinin böyüdülməsi;
4) Vergi orqanlarının hesabatlılığının artırılması;
5) Texnologiyalarının rolunun artırılması;
6) Dövlət vegi orqanları ilə fərqli dövlət qurumlarının birlikdə fəaliyyəti.

Eyni zamanda Vergilər Nazirliyinin idarəetmə bacarığının artırılması, vergi nəzarəti, audit, vergi borclarının təmini ilə bağlı fəaliyyətin keyfiyyətinin artırılması məqsədilə vergi qanunvericiliyinin həyata keçirilməsinə ciddi nəzarət və öhdəliklərin icrasına nəzarət etməsi məqsədilə departamentlərin fəaliyyəti olduqca vacibdir.

Ölkələr vergilərin zamanında büdcəyə daxilində olduqca maraqlı tərəfdirlər. Dövlətlər vergi qanunvericiliyinə riayət olunması və vergilərin zamanında yığılmasına nəzarəti reallaşdırmaq məqsədilə vergi orqanlarından istifadə edirlər. Dünya çərçivəsindən vergi orqanlarının fəaliyyətinin bir neçə fərqli növü vardır:

1. Maliyyə nəzarəti orqanlarının bacarıqlarının və prinsiplərinin birləşdirilməsi;
2. Müstəqil vergi xidməti və vergi polisinin formalaşdırılması və bunların əməliyyat axtarış fəaliyyətilə vergiylə bağlı qanun pozuntularının tədqiqi;
3. Vergi orqanlarının özlərinin içərisində qanun pozuntularına qarşı mübarizə göstərən xüsusi bölmələrin formalaşdırılması;
4. Vergi nəzarətinin birbaşa dövlətin hüquq mühafizə orqanları vasitəsilə təmini.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə vergi sisteminın iştirakçıları dövlət vergi orqanları, gömrük

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 298-302
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 298-302
DOI: https://doi.org/10.36719/2023/3/2

orqanları, vergi agentləri, fiziki-hüquqi şəxslər və qanunvericilikdə təyin olunmuş digər orqanlar aiddir. Vergi ilə bağlı proseslər əsasən vergi orqanları və vergi ödəyiciləri arasında reallaşmaqdadır. Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergi nəzarəti məqsədilə vergi orqanlarının səlahiyyətləri qanunla təyin olunmuşdur.

Vergi nəzarəti məqsədilə yaradılan hər bir struktur öz səlahiyyətlərində əsasənvergi göstəricilərinin hesablanması və zamanında büdcəyə daxil olmasına nəzarəti həyata keçirtməkdədirlər.

Bir çox hallarda vergi məsələləri ilə bağlı inzibatçılığın olması vergi ödəyiciləri baxımından səmərəli hesab edilmir. Bunda əsas səbəb yoxlamalar dövründə ödəyicilərin bir-başa vergi əməkdaşı ilə dialoqda olmalarıdır. Lakin ödəyicilərin müasirləşən dünyada inzibatçılıq fəaliyyətindən istifadə etməlidirlər. Çünki olunmadığı zaman nəzarətin aparılması həm çoxlu işçi qüvvəsi həm də daha çox vaxt sərf olunması tələb edir. Dünyada vergi orqanlarında inzibatçılığın istifadəsinin ən düzgün prinsipi funksional prinsip sayılır. Ölkəmizdədə vergi sistemində inzibatçılıq məhz bu prinsip əsasında formalaşmışdır.Vergi orqanlarının funksional prinsip əsasında formalaşması ölkəmizdə vergi nəzarətinin təkmilləşdirilməsi baxımından olduqca əhəmiyyətə malikdir.

Bu məqalədə həmçinin qısaca operativ nəzarətidə vurğulamaq lazımidir. Burada nəzarət oraqanı Vergi məcəlləsinin 50.1 maddəsinə əsalanaraq qanunvericiliyin pozulması hallarını aşkarı, onların dəyərləndirməsini, analizinin edilməsini, prosesin səbəblərini və yenidən pozulma riskinin aradan qaldırılmasını həyata keçirməlidir.

Vergi orqanları vasitəsilə təqdim olunan operativ nəzarəta dair informasiyaların təhlili və şəffaflığın formalaşması nəzarətin təkmilləşdirilməsində olduqca əhəmiyyətlidir. Vergi nəzarəti dövlət vergi orqanları tərəfindən həyata keçirildiyi

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 298-302
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 298-302
DOI: https://doi.org/10.36719/2023/3/2

üçün nəzarətin təkmilləşdirilməsi məhz dövlət vergi orqanlarının birbaşa inkişafı ilə əlaqədardır. Vergi nəzarətinin formalaşması mürəkkəb bir proses hesab edildiyindən dövlət vergi orqanları ilə bərabər vergi ödəyicilərida qanunvericilikdə mövcud öz huquqlarını bilmək məcburiyyətindədirlər. Eyni zamanda vergi nəzarətinin keyfiyyəti qanunvericiliyin məzmunundan, şəffaflığından bir-başa aslıdır. Həmçinin vergi nəzarətin icrası vaxtı ödəyicilər vergi orqanlarına səlahiyyətlinin yerinə yetirilməsi məqsədilə gərəkli mühiti yaratmalı, onlara mümkün qədər dəstək olmalıdırlar. Bu zaman vergi nəzarəti daha doğru, keyfiyyətli bir şəkildə formalaşır və nəzarətin təkmilləşməsi məqsədinə şərait yaradır.

Bütün bunlarla yanaşı ölkəmizdə vergi nəzarətinin təkmilləşdirilməsinin davamı olaraq elektron audit sistemi tətbiq olunmaqdadır. Elektron audit xüsusi bir proqram vasitəsilə vergi ödəyicisinin elektron formatda saxlanılan mühasibat məlumatlarına birbaşa çatmaq imkanına malikolurlar. Elektron auditin reallaşması əsasən bir neçə prinsipdən asılı hesab edilir. Vergi ödəyicisinin lazimi olan məlumatlarının uyğun vergi sistemlərinin təşkili ilə əks olunması və vergi nəzarətinin bu inovativ sistemlərə inteqrasiya olunmasını sağlamaq gərəklidir. Texnologiyanın istifadəsilə rəqəmsal vergi nəzarətinin həyata keçirilməsi məqsədilə müasir nəzarət-kassa sistemlərinin istifadəsi ilə hesablamaların şəffaf edilməsinə, qanunsuz dövriyyənin qarşısının alınması məqsədilə dövriyyəyə nəzarətin həyata keçirilməsinə şərait yaratmaqdadır. Vergi nəzarətinin təkmilləşdirilməsi baxımından ödəyicilərin fəaliyyətinin risk modulları üzərindən analiz edilməsi, vergidən yayınma istəklərinin müasir texnologiyalara əsaslanaraq qarşısının alınması, vergi nəzarəti metodlarının təsdiq edilmiş məlumatlar əsasında seçilməsilə bərabər auditin real funksiyalarının inkişafı istiqamətində fəaliyyətin formalaşdırılması.

Vergi nəzarətinin təkmilləşdirilməsi həmçinin kölgə iqtisadiyyatının aradan qaldırılması, təsirinin azaldılmasına yardımcı olmaqdadır. Bunun ən böyük göstəricilərindən biri dövriyyələrin yüksəlməsi hesab edilməkdədir. Dövlət Vergi Xidmətinin məlumatlarına əsasən 2022-ci ilin yanvar-avqust aylarında müasir nəzarət-kassa aparatları sayəsində görülən dövriyyə miqdarı 15 milyard 307 milyon 568,9 min manat olmuş, bu da öz növbəsində 2021 ilin müvafiq dövrü ilə müqayisədə 57,8 faiz artmışdır. Vergilərin və digər büdcə daxilolmalarının döğru qiymətləndirilməsi, onların zamanında və tam şəkildə dövlət büdcəsinə əlavə edilməsi, vergi qanunvericiliyi və inzibatçılığının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, vergi nəzarət sisteminin qüvvətləndirilməsi, xidmətin keyfiyyətinin artırılmasına nail olunması, Azərbaycanın vergi sisteminin beynəlxalq vergi sistemінə tam inteqrasiya prosesinin başa çatması vergi nəzarəti sisteminin əsas tələblərindəndir. Vergi nəzarəti sistemində insan resurslarından düzgün və səmərəli şəkildə istifadənin təşkili istiqamətində daim çalışılmalı və vergi sisteminin keyfiyyəti artırılmalıdır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 303-307
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 303-307
DOI: https://doi.org/10.36719/2023/3/2

**Peyman Muradlı**
Bakı Dövlət Universiteti
magistrant
muradlipeyman55@gmail.com

# AZƏRBAYCANDA TURİZMİN SOSİAL-İQTİSADİ SƏMƏRƏSİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *turizm, ixtisaslı kadr, perspektiv imkanlar, qeyri-neft sektoru, mənfəət*
***Keywords:*** *tourism, qualified staff, prospective opportunities, non-oil sector, profit*

Ölkəmiz üçün iqtisadi inkişafa təsir edən sahələrdən biri turizm olduğundan bu sahəyə ölkə miqyasında xüsusi qayğı və diqqət yetirilməlidir. Məqalədə ölkədə turizminin sosial-iqtisadi səmərəsinin yüksəldilməsi yolları araşdırılmışdır. Bundan əlavə turizm bazarının cari vəziyyətinin və xarici ölkələrin turizm sahəsində təcrubələrinin təhlil edərərək, Azərbaycanın səmərəli iqtisadi inkişafı üçün vacibliyi əsaslandırılmışdır.

Səmərəlilik dedikdə ümumi mənada ən son nəticə və müəyyən miqdarda və ya dəyərdə səmərə almaq məqsədini güdür. İqtisadi səmərə dedikdə təsərrüfat fəaliyyətinin müəyyən xeyir əldə etməsidir (Hüseynov, Əfəndiyeva, 2007). Müəyyən məsrəflər, maddi-maliyyə və informasiya resurslarının istifadəsindən əlverişli şəkildə istifadə variantını tapmaq, eləcə də minimum məsrəflərlə maksimum səmərə əldə etmək meyarı ilə idarə olunur. Turizmin iqtisadi səmərəsi uduş və gəlir əldə etmək hesabına baş verir:

– turizmin dövlətin miqrasiyası formasında təşkili;
– region və bölgə əhalisinə göstərilən turist xidməti;

– turizm sahəsilə məşğul olan firmaların istehsal xidməti prosesi.

Turizmin səmərəsinə hansı bölgü prizmasından baxılır dedikdə bütövlükdə ictimai əməyin səmərəliliyinin bir tərkib hissəsi olmaqla maraqların subyekt və obyektlər üzrə bölgusudur. Turizm sahəsi öz meyar və göstəricilərini elə özündə əks etdirir. Turizm meyarı dedikdə bu kriteriyalı sistem şəklindədir, qoyulan hər hansı məsələnin və obyektin xarakterindən, eləcə də mülkiyyət münasibətindən asılı olaraq formalaşır. Turizmin meyarı onun səmərəsi ilə birbaşa bağlıdır.

Turizmin səmərəli formada idarə edilməsinin təşkili, quruluşu aşağıda qeyd etdiyimiz bir sırabölmələrdən ibarətdir:

– sosial məişət infrastrukturunun sahələrarası kompleksinin diversifikasiya edilməsi sistemi;
– təsərrüfat bölümündə turizm sahəsinin sərbəstliyi və turizmlə bağlı guzəştlər;
– turist firmasına bir təsərrüfat subyekti kimi baxılması.

Turizmin səmərəsinin əsas ölçülmə vasitəsi sosial səmərədir. İş yeri, ölkəyə daxil olan valyuta axını, daxili sənaye və kənd təsərrüfatı bazarının inkişafı və genişlənməsi onun sosial səmərəsini artrır (Soltanova, 2015).

Qeyd edək ki, yeni iş yerlərinin açılması, əhalinin məşğulluq səviyyəsinin artması, nisbətən zəif inkişafda olan rayonların və bölgələrin iqtisadiyyatının stimullaşmasına və motivasiya ruhunun canlanmasına təsir edən əsas amillərdən biri də turizmin səmərəsidir. Yeni iş sahələrinin artım turizm sənayesinin özünəməxsüs xüsusiyyətləri ilə formalaşır və aşağıda qeyd edilən münasibətlərdə öz əksini tapır:

– əhaliyə göstərilən turist xidmətinin mövsümü xarakter daşıması, başqa dövlətlərdən iş qüvvəsinin cəlb edilməsi pensiyaçıların əməyindən istifadə etməyə imkan verir;
– günün yarısını işləyənlərin xüsusi çəkisində artım baş verir;

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 303-307
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 303-307
DOI: https://doi.org/10.36719/2023/3/2

- savadlı kadrların əməyinə əsaslanan işçilərin xüsusi çəkisinin artımı;
- turist sənayesində avtomatikləşmə və kompyuterləşmənin məhdud olması.

Ölkəmizdə turizmin səmərəliliyinin yüksəldilməsi yollarından danışarkən yuxarıda qeyd etdiyimiz bütün beynəlxalq təcrübələri özümüzə rəhbər tutmalıyıq və bu təcrübələrin timsalında hərəkət etməliyik. Turizmin inkişafı ən əsas amillərdən biri kimi regionda və ya bölgədə əhalinin gəlirlərinə dolayı və birbaşa yolla təsir edir, həmçinin büdcə gəlirlərinin artımına şərait yaradır (Əlirzayev, 2010). Turizmin inkişafı regionda təbiətin qorunması və onun yenidən istehsalı üçün zəruri olan mexanizmləri gücləndirir. Bölgəyə yatırılan investisiyanın layihələnməsi səmərəlilik meyarları üzərində qurulur. Səmərə anlayışı turizmdə iki böyuk prinsipə, qlobal və sahə prinsiplərinə əsaslanır. Qlobal səviyyədə investisiya səmərəliliyi iqtisadi effektlə müəyyənləşir. Qoyulan investisiyanın hesabına əlavə artım ölçülür. Bir % investisiya artımı neçə % ÜDM-in artımına təsir edirsə, bu elastiklik əmsalı səmərə kimi ölçülə bilər. Səmərəlilik sahə üzrə də hesablanır. Turizmdə səmərəlilik məsrəf ilə mənfəət arasında olan nisbətlə ölçülür və rentabellik səviyyəsi formalaşır (Soltanova, Hüseynova, 2007).

Aşağıdakı cədvəldə keçən beş il üçün olan artım tempi göstərilmişdir. Burada pandemiya ili (2020) ondan iki il əvvəl və iki il sonra ÜDM həm %-lə, həm də $-la göstərilmişdir. Buradan görünür ki, turizmin ÜDM-dəki çəkisi pandemiyadan əvvəlki illərdə sonrakı illərə nisbətən çox olmuşdur. Bunun əsas səbəbi pandemiyanın həm turizm sahəsinə, həm də ölkə iqtisadiyyatına vurduğu zərərdir. Ölkəmizin turizm sahəsinin ÜDM-ki payı neft sektoru ilə müqayisədə çox aşağıdır. Beləliklə, ölkəmizin ÜDM-i əsasən dünya bazarındakı neft qiymətlərindən asılıdır. Əgər neftin qiymətində artma və ya

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 303-307
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 303-307
DOI: https://doi.org/10.36719/2023/3/2

azalma olarsa, bu ÜDM-in həcminə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, bu artıb azalma ÜDM-ə təxminən 20 % nisbətində təsir göstərir.

**Cədvəl 1.**

**2018-2022-ci illər üzrə turizmin ÜDM-də artım tendensiyası**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| ÜDM | 80092 mlyn | 81681 mlyn | 72432.2 mlyn | 92857.7 mlyn | 133.8 mlrd |
| Turistlərin yerləsdirilməsi və ictimai iaşə %-lə | 2.2% | 2.4% | 2.2% | 1.3% | 1.6% |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə $ | 1762.0 mlyn | 1960.3 mlyn | 1593.5 mlyn | 1207.1 mlyn | 2140.8 mlyn |
| ÜDM (qeyri-neft sektoru) | 44691 | 48045 | 43314 | 53393 | 65428 |

Buradan görünür ki, 2018-2022-ci illər üzrə neft sektoru ÜDM-nin çox hissəsini təşkil edir. Eləcə də, turizmin qeyri-neft sektorundakı payı təxmini 3.5-4 % arası dəyişir və bu nəticədə çox azdır. Bizim əsas məqsədimiz növbəti illərdə ölkəmizdə turizm sahəsinin inkişafına çalışmaq və Azərbaycanda turizmin sosial-iqtisadi səmərəsinin yüksəldilməsinə nail olunmaqdır.

Ölkəmizin inkişaf etmiş bu ölkələrin turizm təcrübəsindən istifadə etməsi ona qısa zaman ərzində turizmin bütün sahələrində iqtisadi inkişafına şərait yaradacaqdır. Turizm sahəsinin inkişafı ölkənin butun strukturlarına müsbət təsir göstərir. Turizm kompleks sahə olduğundan butun ölkə iqtisadiyyatı sisteminə təsir göstərir. Ən çox təsir göstərdiyi sahələrdən biri də əhalinin həyat səviyyəsi və məşğulluqdur. Turizm nə qədər böyüyüb inkişaf edərsə, orada daha çox insanın iş tapmasına və gəlir qazanmasına şərait yaradacaqdır. Ümumilikdə belə nəticəyə gəlirik ki, turizmin mövcudluğu və inkişaf etdirilmə hər bir ölkə üçün vacibdir. Çünki turizm

sahəsinə alternativ və qısa müddət ərzində daha çox gəlir əldə etməyə imkan verən, eləcə də tükənməyən sahə məhz turizmdir.

## Ədəbiyyat

1. Hüseynov, İ., Əfəndiyeva, N. (2007). Turizmin əsasları. Bakı.
2. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı.
3. Əlirzayev, Ə.Q. (2010). Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı.
4. Soltanova, H.B., Hüseynova, Ş.H. (2007). Turizmin əsasları. Bakı: “Mütərcim” nəşriyyatı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 308-312
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 308-312
DOI: https://doi.org/10.36719/2023/3/2

**Baloğlan Məmmədov**
Bakı Dövlət Universiteti
magistrant
mammadov.baloglan2000@gmail.com

# MARKETİNQ-KOMMUNİKASİYA SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

***Açar sözlər:*** *reklam, şəxsi satış, ictimaiyyətlə əlaqə, kommunikasiya sistemi, marketinq*
***Keywords:*** *advertising, personal selling, public relations, communication system, marketing*

Müasir iqtisadi şəraitdə Marketinq-Kommunikasiya sistemi olduqca aktualdır. Bu sistemin bazar konyukturasının öyrənilməsi, satışın təkmilləşdirilməsi istiqamətinin müəyyənləşdirilməsi və tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Məqalədə Azərbaycanda marketinq-kommunikasiya sisteminin inkişafında mövcüd vəziyyətin təhlili və öyrənilməsindən bəhs olunur.

Müasir dövrdə marketinq konsepsiyasından istifadə edilməsi yalnız keyfıyyətli, istehlakçıların tələbinə uyğun gələn məhsul istehsal etməklə, ona istehlakçılara münasib qiymət müəyyənləşdirməklə kifayətlənmir, həm də istehsal edilən məhsula tələbat yaratmağı, məhsul satışını həvəsləndirməyi, bu məqsədlə öz istehlakçılarma zəruri informasiya ötürməyi, informasiyanı diqqətlə seçməyi, istehlakçılarla əks əlaqə yaratmağı tələb edir. Bütün bu kimi tədbirlərin həyata keçirilməsi, onlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi marketinqin kommunikasiya sisteminin yaradılmasını və həyata keçirilməsini zəruri edir. Kommunikasiya dedikdə iki və ya daha çox subyekt arasında informasiya mübadiləsi prosesi başa düşülür (Əlizadə, 2010).

Kommunikasiyanın rolu ondan ibarətdir ki, o, daxili mühit sisteminin normal fəaliyyətini təmin etməklə yanaşı, həm də xarici mühitlə qarşılıqlı əlaqə yaradılmasını təmin edir. Səmərəli kommunikasiya sisteminə nail olmaq üçün firma ixtisaslaşmış reklam şirkətlərinin, satışın həvəsləndirilməsi və birbaşa marketinq üzrə mütəxəssislərin xidmətlərindən istifadə edir. Marketinq fəaliyyətində qarşıya qoyulan məqsədlərə nail olmaqda və məqsəd bazarlarında rəqabət mübarizəsində qalib gəlməkdə marketinqin kommunikasiya sistemi olduqca mühüm rol oynayır və bu sistem firmadaxili sistem hesab edilmir. Belə ki, kommunikasiya sistemi üzrə fəaliyyət firmadaxili fəaliyyətlə yanaşı, həm də firmanın məhsulunu satan vasitəçiləri, topdan və pərakəndə ticarət müəssisələrini əhatə edir (Aşurov, 2018). Marketinqin kommunikasiya sistemi istehlakçılara təsir vasitəsi kimi əsasən dörd elementi dörd istiqamətdə stimullaşdırma tədbirləri kompleksini özündə birləşdirir: reklam, satışın stimullaşdırılması, şəxsi satış, ictimaiyyətlə əlaqə. Lakin son dövrlərdə birbaşa marketinq kommunikasiya sistemində olduqca mühüm rol oynamağa, beşinci element kimi fəaliyyət göstərməyə başlamışdır.




**Şəkil.1**

**Reklam** - hər hansı bir şəxsin sifarişi ilə firma, məhsul, xidmət və ideyalar haqqında, şəxsin iştirakı olmadan, zəruri məlumatların pullu yayım formasıdır. Bu gün reklamın aktuallığı heç bir şübhə doğurmur. Belə ki, o, bazar iqtisadiyyatının vacib elementi hesab edilir və onun inkişafında olduqca mühüm rol oynayır. Reklam marketinqin kommunikasiya sisteminin əsas elementlərindən biri olmaqla tələbin formalaşmasında və satışın artırılmasında güclü təsirə malikdir və bu baxımdan ona ayrıca bir bölmə kimi baxılır.

**Satışın stimullaşdırılması** - real və potensial alıcıya fərdi və dolayısı yolla təsir etməklə müəssisənin məhsuluna tələbat yaratmaq və satışın həcmini artırmaq məqsədilə həyata keçirilən tədbirlər kompleksidir.

**Şəxsi satış** - bir və ya bir neçə potensial alıcı ilə söhbət əsasında əmtəəni satmaq məqsədilə şifahi şəkildə təbliğat aparılması yolu ilə məhsulun satışının həyata keçirilməsidir.

**Birbaşa marketinq** - satıcılarla alıcılar arasında birbaşa münasibətlərin yaradılması, bu məqsədlə kommunikasiyanın müxtəlif vasitələrindən istifadə etməklə məhsul satışının həyata keçirilməsidir.

**İctimaiyyətlə əlaqə** - firma və onun məhsulu haqqında cəmiyyətdə müsbət rəyin formalaşmasını, xoşagəlməz şaiyələrin aradan qaldırılmasını təmin etmək məqsədilə istehlakçılarla, onların ayrı-ayrı qrupları ilə xoş münasibətlər yaradılmasını, bu məqsədlə görüşlər keçirilməsini, onlara zəruri məlumatların çatdırılmasını, digər müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur (Aşurov, 2008).

Hazırki dövrdə bütün dünyada marketinq kommunikasiya sisteminin inkişafı birbaşa olaraq informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlıdır. Həmçinin bu vəziyyət ölkəmiz üçün də keçərlidir. Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya və rabitə sahəsindəki inkişaf səviyyəsinə görə iqtisadiyyatın digər sahələri ilə müqayisədə

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 308-312
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 308-312
DOI: https://doi.org/10.36719/2023/3/2

daha qabarıq şəkildə nəzərə çarpır. Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafını, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələndirmək olar (Məmmədov, 2007).

Müasir marketinq ənənəvi innovasiya yanaşmalarının yanında yaradıcı yanaşmaların həyata keçirilməsini və koordinasiyasını əhatə edir və daha effektiv strategiyaların tətbiqi ilə yenilikçi fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradır. Ölkənin sənaye müəssisələrinin yenilikçi inkişafının təmin edilməsi onlara yüksək mənfəət əldə etməyə imkan verir və müəssisələrin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafını təmin edir. Bu baxımdan istehsal müəssisələrinin, xüsusən sənaye müəssisələrinin yenilikçi fəaliyyətləri onların iqtisadi inkişafında mühüm rol oynayır. İnnovasiya fəaliyyətinin formalaşmasına təsir göstərən ətraf mühit amillərinin təhlili müəssisələrin yenilikçi inkişafının, innovasiya potensialının və qiymətləndirilməsinin təmin edilməsində çox vacibdir. Bu vəziyyətdə marketinq metodlarından istifadə etmək ən təsirli yanaşma hesab olunur. Bu nə etdiyinizdən çox asılıdır. Azərbaycan sənaye müəssisələrinin innovativ fəaliyyəti zəif innovasiya fəaliyyəti ilə xarakterizə olunur. Bunun bir neçə səbəbi var. Əvvəla, yerli şirkətlər arasında rəqabət zəifdir. Ölkəmizdə mövcud olan və bu sahələrdən biri olan müəssisədə marketing kommunikasiya sistemi eynilə digər sahələr kimi bu problemlə üzləşir. Azərbaycanda müəssisələrin inkişafı, böyüməsi və irəliləməsi üçün lazım olan şərait və perspektivlər vardır. Lakin bu sahəyə maraq göstərilməməsi və yaxud arxa plana atılması onun əhəmiyyətliliyini azaldır. Son olaraq onu da qeyd etməliyik ki, müəssisədə marketinq kommunikasiya sitemi bizim üçün xüsusi önəm kəsb edən sahədir. Müəssisəni ayaqda tutan və onu inkişafa yönəldən əsas amil marketinq kommunikasiya sistemidir.

## Ədəbiyyat

1. Əlizadə, A.Ş. (2010). Reklam və kommunikasiya sistemi. Bakı.
2. Aşurov, A.S. (2018). Marketinq kommunikasiya sistemi. Bakı.
3. Aşurov, A.S. (2008). Marketinqin kommunikasiya sistemi. Bakı.
4. Məmmədov, A.T. (2007). Marketinqin əsasları. Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 313-317
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 313-317
DOI: https://doi.org/10.36719/2023/3/2

**Vüsal Səttarov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
vusalsetterov @gmail.com

# KOMMERSİYA BANKLARINDA MALİYYƏ NƏZARƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *kommersiya bankları, kredit, maliyyə böhranı, maliyyə nəzarəti, vergi siyasəti*
***Keywords:*** *commercial banks, credit, financial crisis, financial control, tax policy*

İqtisadiyyatın inkişaf etməsində və yeni biznes lahiyələrin maliyyələşdirilməsində banklar fəal rol oynayır. Buna görə də bank sistemi dövlətin ciddi tənzimlənməsi və nəzarət obyektidir. Məqalədə əvvəlcə, maliyyə nəzarətinə dövlətin idarəetməsinin ən vacib funksiyalarından biri kateqoriyası kimi aydınlıq gətirilmiş, kommersiya banklarında vergi nəzarət sisteminin meydana gəlməsi xüsusiyyətləri şərh edilir. Banklar müasir dövrdə iqtisadiyyatın ana sütununu təşkil edir və ölkəmizdə bank sektorunun iqtisadiyyata olan təsiri məqalədə araşdırılmışıdır.

Bank sistemi bazar iqtisadiyyatında önəmli oyunçularından biridir. Ölkəmizdə fəaliyyət göstərən bankların maliyyə böhranı ilə üzləşdiyi məqamda aparılan anti-böhran siyasəti ümumiyyətlə bir sıra tədqiqatlarda təsviri iş səviyyəsində aydınlıq gətirilir və belə olan tərzdə bu siyasətin məzmunu müfəssəl elmi və analitik şərhə lüzum hissi ortaya qoyur. Azərbaycanda maliyyə sektoru daha çox kommersiya banklarından ibarətdir. Banklar maliyyə sektorunun ümumi aktivlərinin 90 %-dən çoxuna sahibdirlər. Sığorta, birja və s.

DOI: https://doi.org/10.36719/2023/3/2

kimi digər maliyyə institutları kifayət qədər kiçikdir və maliyyə sektorunun sağlamlığına əhəmiyyətli təsir göstərmir. Buna görə də kommersiya banklarının mövcüd vəziyyəti ölkədəki maliyyə sisteminə ciddi təsir göstərir. Həmçinin banklar müasir dövrdə iqtisadiyyatın lokomotivi rolu oynayır.

Maliyyə sistemində çox mühüm paya və rola malik olan banklar əmanətləri səmərəli investisiyalara yönəltmək, iqtisadiyyata gətirmək, iqtisadi rifah səviyyəsini yüksəltmək və kapital yığımını artırmaq kimi çox mühüm üstünlüklərə malikdir. Bununla belə, banklar fəaliyyətlərini həyata keçirərkən kredit riski, valyuta riski, faiz dərəcəsi riski, əməliyyat riski, bazar riski və likvidlik riski kimi müxtəlif risklərə məruz qalırlar. Bu risklərin yaxşı idarə olunmaması bankların müflisləşməsinə, eləcə də bank sistemindən başlayaraq bütün maliyyə sistemini və real sektoru əhatə edəcək iqtisadi böhrana səbəb ola bilər.

O.V.Yefimova və M.V.Miller bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə əməliyyat, investisiya və maliyyə fəaliyyətinin səmərəliliyini xarakterizə edən, aktivlər üzrə gəlirlilik, satışın rentabelliyi, öz kapitalının rentabelliyi və investisiyaların rentabelliyi göstəricilərindən ibarət gəlirlilik göstəriciləri sistemindən istifadə etməyi təklif edirlər. Fəaliyyətin səmərəliliyini kompleks şəkildə xarakterizə edən ümumiləşdirilmiş göstərici kimi təşkilatın əməliyyat, investisiya və maliyyə fəaliyyətini xarakterizə edən üç əsas göstəricinin funksiyası olan, xüsusi kapitalın rentabelliyindən istifadə etmək təklif olunur (Yefimova, Mel'nik, 2006).

G.N.Şerbakova bank fəaliyyətinin ümumiləşdirilmiş qiymətləndirmə göstəricisi kimi mənfəət göstəricisindən, eləcə də bankın bölmələri, bank fəaliyyəti növləri, bank məhsulları və əməliyyatları kontekstində nəticə göstəricilərindən istifadəni təklif edir (Shcherbakova, 2007).

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 313-317
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 313-317
DOI: https://doi.org/10.36719/2023/3/2

İdarəetmə üsullarını daim təkmilləşdirmədən bank sisteminin inkişafı, o cümlədən bankların iqtisadiyyatın real sektoru ilə əməkdaşlığı mümkün deyil. İdarəetmə sistemində əsas elementlərdən biri kimi, şübhəsiz ki, nəzarət funksiyasını yerinə yetirir. Kredit təşkilatları, dövlət qurumları, özəl şirkətlər, kreditorlar və əmanətçilər arasında artan rəqabət şəraitində bankların maraqlarını qorumaqla onların gəlirliliyini təmin etmək asan məsələ deyil. Nəzarət bankı qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün fəaliyyətin ardıcıllığını təmin etmək məqsədi daşıyır. Nəzarət orqanları ilk növbədə bazar inamını qorumaq və əmanətçilərin mənafelərini qorumaq üçün bank sisteminin sabitliyini qorumaq və ayrı-ayrı bankların təhlükəsizliyini və sağlamlığını gücləndirməklə məşğul olurlar.

İqtisadi sahədə böhranların bazar təsərrüfatına məxsus olan ümumi bir qanunauyğunluq olaraq qəbul edilməli olduğuna əsaslanaraq, istənilən bir idarəetmə mütləq qaydada böhrana tab gətirməli, yəni böhran durumu vəziyyətində proqnozlaşdırma, qiymətləndirmə, planlaşdırma, analiz və nəzarətdən ötrü uyğun gələn vasitə və alətlərdən faydalanmalıdır. Elə bu parametrdən, strateji antiböhran siyasəti rastlaşdıgımız və mövcud real problemləri, böhrana səbəb amilləri, inkişaf tendensiyalarını məqamında müəyyənləşdirməyə, güclü və zəif səmtləri, imkan və təhlükələri obyektiv qiymətləndirməyə şərait hasil edən bankın düşdüyü böhran durumunun profilaktik diaqnozudur (Mamedov, Valiyev, Veysov, 2020).

Son zamanlar qloballaşma proseslərinin get-gedə dərinləşməsi, maliyyə-iqtisadi böhranın kəskinləşməsi, xarici kapitalın əhatə dairəsinin genişlənməsi və bank qurumları müstəvisində rəqabətin yüksəlməsi onların işinə və maliyyə göstəricilərinə əhəmiyyətli tərzdə təsir edərək gələcək uzunmüddətli fəaliyyətinə aydınlıq gətirir. Bankı uğura

sürükləyən başlıca aspektlərindən biri onun resurs ehtiyatlarının həcmi və mənbələri, kredit yatırımı və depozit fəaliyyətindən, gəlir və məsrəflərin idarəetmə siyasətindən asılı olan maliyyə dayanaqlığının təmini gerçəkləşdirməkdir. Bank təşkilatının maliyyə təminatı istər dövlətin, istərsə də bank sektorunun stabilliyinin, həmçinin bütöv şəkildə dövlətin maliyyə təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir

Hələ də indiyə qədər Azərbaycanın bank sistemi həm mütləq, həm də nisbi göstəricilərə görə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin səviyyəsindən xeyli geri qalır. Belə ki, sürətlə inkişaf edən ölkə iqtisadiyyatının tələbatı kifayət dərəcədə ödənilmir. Belə ki, Azərbaycanda bankların kapitalının ÜDM-ə nisbəti 4,6 % təşkil edir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 3-7 dəfə azdır. Müəssisələrin kreditlərinin ÜDM-ə nisbəti 18 % olmuşdur. Müqayisə üçün qeyd edək ki, ABŞ-da bu göstərici 40 %, Yaponiyada 64 %-ə bərabərdir. Bank aktivlərinin ÜDM-də payı göstəricisinə görə, Azərbaycan həmin ölkələrdən 7-10 dəfə geri qalır. Ölkəmizin, onun bank sisteminin, həmçinin fərqli bank institutunun iqtisadi və maliyyə dayanaqlığını əlçatan edilməsi məsələləri böyük siyasi risklər, xarici iqtisadi siyasətdə qeyri-stabillik, dövlət borcunun miqdarının çoxalması və dünya kreditlərindən asılılıq prizmasından getdikcə aktuallaşır.

## Ədəbiyyat

1. Yefimova, O.V., Mel'nik, M.V. (2006). Analiz finansovoy otchetnosti: Uchebnoye posobiye. 2-ye izd., ispr. i dop. M.: Izd-vo OMEGA-L, 408 s.
2. Shcherbakova, G.N. (2007). Analiz i otsenka bankovskoy deyatel'nosti (na osnove otchetnosti, sostavlyayemoy po rossiyskim i mezhdunarodnym standartam). M.: Vershina, 464 s.

3. Mamedov, F., Valiyev, E.N., Veysov, E.N. (2020). ”Sovremennyye osobennosti razvitiya bankovskogo sektora Azerbaydzhana. Ekonomicheskiye nauki, № 7, s.134-135.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 318-320
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 318-320
DOI: https://doi.org/10.36719/2023/3/2

**İmdad Kərimli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
kerimov.imdad@gmail.com

# “CƏMİYYƏTİN FORMALAŞMASINDA ANİMASİYA FİLMLƏRİNİN ROLU”

***Açar sözlər:*** *din, incəsənət, kino, sosial öyrənmə, mənəvi dəyərlər*
***Keywords:*** *religion, art, cinema, social studies, spiritual values*

Məktəbdə sosial normaların mənimsənilməsi baxımından informasiyanın həyatdakı funksionallığı mühüm əhəmiyyət kəsb edir. Əslində təhsil insanı həm mədəniyyət, həm də biliklə təmin etməklə cəmiyyətin arzuladığı “tipləri” yaratmaq məqsədi daşıyır. Bu vəziyyət, başqa sözlə, akkulturasiya prosesi, sosiallaşmadan asılı olaraq, bütün həyatı boyu cəmiyyətin gözlədiyi və arzuladığı insana çevrilmə prosesi çərçivəsində baş verir. Bu nöqtədə demək olar ki, dəyərlər və normalar mədəni kimliyin formalaşmasında təsirli olan mədəni elementlərdir (Tural, 1992: 7). Cəmiyyətlərin uzun illər həyatlarını davam etdirə bilmələri üçün gələcəyə etibarlı şəkildə miras qoya biləcəkləri dəyərlərin sağlam gələcək hədəfinə çatmaqda mühüm yer tutduğu düşünülür (Beldağ, 2012: 13). Uşaqların inkişaf mərhələlərini nəzərə alsaq, dürüstlük, hörmət, ədalət, sevgi, hüquq, vəzifə və s. dəyər ifadələrinin ibtidai sinif şagirdləri üçün mənalı olduğu görülür, eyni zamanda da uşaqlar dürüstlük və ədalətlilik kimi terminləri onlara riayət etməklə mənimsəyirlər. Buna görə də,

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 318-320
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 318-320
DOI: https://doi.org/10.36719/2023/3/2

uşaqların inkişaf mərhələlərində mədəni və mənəvi təbliğ diqqətlə aparılmalıdır.

Medianın sosial həyatdakı yerini nəzərə alaraq demək olar ki, ailə və məktəb dəyərləri ötürməzdən əvvəl uşaqlar televiziyada müəyyən yayımlar izləyirlər. Bu izləmə müsbət və ya mənfi ola bilər. Ona görə də mədəni və mənəvi dəyərlərin təbliği yerində və daha sağlam olması vacibdir. Uşağın məktəbəqədər dövrdə öyrəndiyi dəyəri sadəcə olaraq nəzəri öyrənməsi, ibtidai məktəb dövründə isə öyrəndiyi dəyəri bilərək və şüurlu şəkildə öyrənməsi ibtidai məktəbləri mənəvi və milli dəyərlərin aşılandığı mühüm müəssisələrdən birinə çevirir (Ersoy, 2010: 84). Ona görə də texnologiyanın dəyər transferində necə şərh olunması vacibdir. Bu baxımdan, mənəvi dəyərlərin təbliğinin əhəmiyyəti ilə bağlı çoxlu araşdırmaların olduğu və bu işlərdə cizgi filmlərinin və animasiyaların təsirlərinin konkret həyatda olan uşaq və yeniyetmələr üçün əhəmiyyətli bir yer təşkil etdiyi görülür.

Vizual və eşitmə vasitələrinin uşaqların öyrənməsinə yüksək təsirini nəzərə alsaq cizgi filmlərinin uşaqların diqqətini çəkən və ən çox maraqlandıqları proqram olaraq ortaya çıxdığını söyləmək olar. Araşdırmalara nəzər saldıqda məlum olur ki, on uşaqdan doqquzu az qala hər gün televizora baxır, 06-15 yaş qrupunda olan uşaqların isə 92,5%-i demək olar ki, hər gün televizora baxır; bu göstərici 6-10 yaşlı uşaqlarda 94,8%, 11-15 yaşlı uşaqlarda 90,2% təşkil edib. Digər tərəfdən, 6-10 yaşlı uşaqlar üçün ən çox baxılan proqram növünün 93,8%-lə cizgi filmləri, 11-15 yaş arası uşaqlar üçün ən çox baxılan proqram növünün isə 76,8%-lə film və seriallar olduğu müəyyən edilib (Gorodyska, 2015: 73). Buna görə də cizgi filmlərinin uşaqların həyatında mühüm yer tutduğunu söyləmək olar

İnkişaf edən və dəyişən cəmiyyətlər mənəvi dəyərlərin aşılanmasında yenilikçi münasibət göstərməyə çalışır və

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 318-320
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 318-320
DOI: https://doi.org/10.36719/2023/3/2

uşaqlıqdan başlayaraq dəyərlər haqqında maarifləndirməyə yer verirlər. Uşaqların ən çox diqqətini çəkən əsərlər sırasında olan cizgi filmlərinin bu mənada müsbət və mənfi təsirləri ola bilər. Bu audiovizual məzmunlar araşdırılmalı, uşaqlara təsiri barədə məlumat verilməlidir. Mənəvi dəyərlərin təbliğinə önəm verən əsərləri araşdıraraq onların bu sahədəki töhfələrinə diqqət çəkmək lazımdır.

## Ədəbiyyat

1. Tural, S. (1992). “Mədəni identiklik haqqında düşüncələr. Ankara”, “Ecdad” nəşriyyatı.
2. Beldağ, A. (2012). Yeddinci sinif ibtidai məktəb sosial elmlər kursunda dəyərlərin mənimsənilmə səviyyəsinin müxtəlif dəyişənlər baxımından araşdırılması. Nəşr edilməmiş magistr dissertasiyası Ali Təhsil Şurasının Milli Tezis Mərkəzindən alınmışdır. (Tezis No: 319663).
3. Ersoy, A. (2010). İbtidai təhsildə dəyər qazanmalarının yoxlanılmasında cizgi filmlərinin istifadəsi: Həmrəylik Dəyəri Nümunəsi. Ondokuz May Universiteti Təhsil Fakültəsi, 29(2), s.79-103.
4. Gorodyska, V.I.O.L.E.T.A. (2015). "Role of cartoons in moral education of senior preschoolers". Annales Universitatis Mariae Curie Sklodowska Lublin. Vol. 28, № 2, p.71-80.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 321-324
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 321-324
DOI: https://doi.org/10.36719/2023/3/2

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Ramiz Məmmədov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Geologiya və Geofizika İnstitutu
geologiya-mineralogiya elmləri namizədi
ramiz.memmedov1948@mail.ru
**Emil Fətullayev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Geologiya və Geofizika İnstitutu
magistrant
emilfetullayev821@gmail.com

## GƏNCƏ-QAZAX DAĞƏTƏYİ DÜZƏNLİYİNDƏ YERALTI SULARIN HİDRODİNAMİK XÜSUSİYYƏTLƏRİ (ZƏYƏMÇAYIN GƏTİRMƏ KONUSU TİMSALINDA)

***Açar sözlər:*** *yeraltı sular, su sərfi, su səviyyəsi, suların kimyəvi tərkibi, monitorinq*
***Keywords:*** *groundwater, water consumption, water level, chemical composition of water, monitoring*

Gəncə-Qazax dağətəyi düzənlik 3757 km$^2$ ərazini əhatə etməklə Azərbaycan Respublikasının şimali-qərbində Kiçik Qafqaz dağları ilə Kür çayı arasında eni 5-30 km olan maili bir zolaq formasındadır. Ərazinin mütləq yüksəkliyi dağlıq ərazidə 600 m olub Kür çayının sağ sahili boyu 60 m-ə qədər düşür (Məmmədov, Əsgərov, 2019: 142).

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 321-324
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 321-324
DOI: https://doi.org/10.36719/2023/3/2

Gəncə-Qazax dağətəyi düzənlik hidroqrafik cəhətdən Ağstafaçay, Həsənsuçay, Tovuzçay, Əsrikçay, Zəyəmçay, Şəmkirçay, Qaşqarçay, Gəncəçay, Kürəkçay, Goran və İncə çayları Kiçik Qafqazın şimal-şərq yamaclarından axaraq Kür çayına tökülməklə səciyyələnir. Düzənliyin hidroqrafik şəbəkəsinin formalaşmasında çoxsaylı kanallarda geniş rol oynamaqdadır. Dağətəyi düzənlikdən axan çaylar ərazinin bəzi hissələrində 30-40 m dərinlikdə relyefi kəsərək yarğanlar əmələ gətirmişlər.

Dağətəyi düzənliyin müxtəlif hissələrinin iqlimində fərqlər mövcuddur, belə ki, ərazinin qərbində qışı quru mülayim, şərqində isə quru səhra tipli olub, iyul-avqust aylarında havanın temperaturu 23.2-28.6$^0$ C, dekabr-fevral aylarında isə (-03-+6.3$^0$ C) arasında dəyişir. Orta ilik temperaturu şərqdə 14.7-15.1$^0$ C, qərbdə isə 13.9-14$^0$ C təşkil edir. Atmosfer yağıntılarının miqdarı 268-501 mm arasında olmaqla, havanın orta illik rütubəti 63-71 % təşkil edir.

Stratiqrafik cəhətdən regionda Yura, Təbaşir, Paleogen, Neogen və Dördüncü dövr çöküntüləri iştirak edir. Kiçik Qafqaz dağ sisteminin şimal-şərq yamaclarında Mezozoy çöküntüləri yer səthinə çıxır. Bu çöküntülər əsasən əhəngdaşları, qumdaşları və tuflu çöküntülərdən ibarət olub, onların dərinliyi dağətəyi sahələrdə 50 m-ə qədər, mərkəzi hissələrdə isə 400 m-ə qədər dərinlikdə rast gəlinir. Gəncə dağətəyi düzənliyinin sinklinal çökəkliyində Neogen və kontinental mənşəli Dördüncü dövr çöküntüləri yayılmışdır ki, onlar qum dolduruculu iri çaydaşları çınqıl-çaqıllardan ibarət olub bəzən gil layları ilə növbələşir.

Dağətəyi düzənlikdə yeraltı sular geniş intişar tapıb, belə ki, Neogen və Dördüncü dövr çöküntülərində qrunt suları və 4 təzyiqli sulu horizontlar öyrənilmişdir. Bu sulu laylar hidravlik cəhətdən bir-biri ilə əlaqəlidir, ona görədə bəzən bu layları bir sulu horizont kimi qeydə alınır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 321-324
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 321-324
DOI: https://doi.org/10.36719/2023/3/2

Gəncə-Qazax dağətəyi düzənliyində az minerallaşmaya malik yeraltı suların istismar ehtiyatı hesablanmış və Ehtiyatlar Komitəsində 4218.6 min $m^3$/gün həcmində təsdiq edilmişdir. Düzənlik ərazisinin demək olar ki, hər sahəsində qrunt suları qeydə alınmış və öyrənilmişdir. Bu sular dağətəyi düzənliyinin yuxarı sahəsində əsasən iri çaydaşları, çınqıl-çaqıl çöküntüləri və iri dənəli qumlarda formalaşmışdır; düzənliyin mərkəzi hissəsində bu çöküntülər nisbətən xırda ölçülü çöküntülər, nisbətən aşağı, Kür çayı ətrafında bu qruntlar tədricən xırda dənəli qumlar və qumcalarla əvəz olunaraq bu sahələrdə təzyiqli suların geniş şəkildə inkişaf tapmasına şərait yaranır. Dağətəyi düzənliyin yuxarı hissəsində qrunt sularının yatma dərinliyi 59-62 m-də (Qazax sahəsinin cənub-qərbində yerləşən 586 saylı hidrogeoloji müşahidə məntəqəsində) qeydə alınmışdır. Qrunt sularının səviyyəsi Kür çayına tərəf getdikcə yer səthinə yaxın, yəni 0.97-1.72 m-də müşahidə olunur. (Şəmkir çayın sağ sahilində yerləşən 621 saylı hidrogeoloji müşahidə quyusunda qeydə alınmışdır.)

Zəyəm çayının gətirmə konusunda, Zəyəm qəsəbəsinin şimal-şərqində dəmir yolu xəttinin yaxınlığında olan 22 və 609 saylı hidrogeoloji müşahidə quyularında qrunt sularının səviyyəsi 1914-2021-ci illərdə aparılmış monitorinq nəticələrinə görə 8 il müddətində müvafiq olaraq 39-42 m və 33.3-33.8 m, yəni suyun səviyyə tərəddüdündə kəskin dəyişiklik olmamışdır, əksinə 18 saylı müşahidə quyusunda bu müddət ərzində su səviyyəsi kəskin aşağı düşmüşdür. Belə ki, 1914-cu ildə su səviyyəsi 12.7 m olduğu halda, 2021-ci ildə səviyyə 22 m-ə, yəni 9.26 m düşmüşdür (Məmmədov, Əsgərov, 2022: 96). Bu ərazidə su səviyyəsinin düşməsi ərazinin əvvəllər əkin sahəsi, hazırda isə yeraltı sulardan geniş istifadə edilən yaşayış sahəsinə çevrilməsi ilə izah olunur.

Quyulardan götürülmüş su nümunələrinin tədqiqi göstərir ki, qrunt sularının kimyəvi tərkibində dəyişiklik olmamışdır.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 321-324
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 321-324
DOI: https://doi.org/10.36719/2023/3/2

Beləliklə, 8 il ərzində Zəyəm çayının gətirmə konusunda yerləşən 18 saylı hidrogeoloji müşahidə məntəqəsində Na miqdarı 2.4 %, Ca 8.9 % artmış, Mg miqdarı isə 11.3 % azalmış, Cl 1,5 %, $SO_4$ $HCO_3$miqdarı 14.4 % artmış, $SO_4$isə 15.9 % azalmışdır. Bunlar suyun tərkibinin dəyişməsindəhəlledici rol oynamır (Məmmədov, Əsgərov, 2012: 96).

Beləliklə qeyd etmək olar ki, Gəncə-Qazax dağətəyi düzənliyində yerləşən Zəyəmçayın gətirmə konusu ərazisi yeraltı sularla zəngindir və bu sular zəif minerallaşmış olduğundan əhali və təsərrüfatlarda geniş istifadəyə yararlıdır.

## Ədəbiyyat

1. Məmmədov, R.H., Əsgərov, Ə.B. və baş. (2019). 2014-2017-ci illərdə Respublika ərazisində yeraltı suların monitorinqinin aparılması işlərinin nəticələri haqqında. Hesabat. Bakı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 142 s.
2. Məmmədov, R.H., Əsgərov, Ə.B. və baş. (2012). 2018-2021-ci illərdə Azərbaycan Respublikası ərazisində yeraltı suların monitorinqinin aparılması haqqında. Hesabat. Bakı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 96 s.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 325-329
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 325-329
DOI: https://doi.org/10.36719/2023/3/2

**Südabə Yusubova**
Azərbaycan Dövlət Aqrar Universiteti
sudabeyusubova1@gmail.com

# RESPUBLİKAMIZDA YETİŞDİRİLƏN QARAMALLARIN KÖKƏLDİLMƏSİ ÜSULLARI

***Açar sözlər:*** *qaramal, buğa, buzov, yetişdirmə, kökəldilmə, ət, qidalığı, böyrək, bağırsaq*
***Keywords:*** *cattle, bull, calf, breeding, fattened, meat, nutritiousness, kidney, bowels*

Hazırkı şəraitdə fermer təsərrüfatlarında qaramalın kökəldilməsinin böyük əhəmiyyəti vardır. Kökəltmə zamanı heyvanların diri çəkiləri daha çox artır. Ətin keyfiyyəti kəskin şəkildə yaxşılaşır. Onun kaloriliyi yüksəlir. Ət istehsalına yem sərfi azalır. Məhsulun maya dəyəri aşağı düşür. Bu isə fermerlərə iqtisadi cəhətdən çox faydalıdır. Kökəldilmə zamanı ət məhsulunun qidalılığı artır. Belə ki, aşağı köklükdə olan ətin 1 kq-da 1200 kkal, yuxarı köklükdə olan ətin 1 kq-da isə 3000 kkal enerji vardır (Quliyev, Həsənov, Məmmədov, Qurbanov, 2008: 56-57). Cavanların normal yemləmə və saxlama şəraitində bəslənildikdə onlarda bəzi yaxşı xassələr əmələ gəlir. Yemləmənin xüsusiyyətindən danışarkən, heyvanın hər tipinin özünəməxsus olan şəkildə qidalanmasının lazım olduğu nəzərə alınmalıdır (Səttarov, Səttarov, Əbdürrəhmanov, 2010: 4-5). Kökəltmə zamanı heyvanlara verilən yemlərin növü də çox rol oynayır. Buna cecə, barda, silos və s. yemlərlə kökəltmə aiddir (Abdullayev, Əliyev, 2012: 142-144).

Tədqiqat işi Şəmkir rayonunda yerləşən "Qapanlı" kəndli fermer təsərrüfatında, "Zoomühəndislik fakültəsinin" "Heyvandarlıq məhsullarının istehsalı texnologiyası" kafedrasının laboratoriyasında aparılmışdır. Təcrübə və

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 325-329
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 325-329
DOI: https://doi.org/10.36719/2023/3/2

nəzəriyyə təsdiq edir ki, kökəltməyə heyvanların seçilməsində onların cinsi, cinsiyyəti, tipi, yaşı və s. amillər əsas götürülür. Bundan əlavə heyvanların yemləndirilməsinin düzgün təşkili və kökəltmə dövründə saxlanılma şəraiti də təsir göstərir. Apardığımız tədqiqatlardan aydın olur ki, kökəltməyə sağlam və gümrah heyvanlar seçilməlidir. Ətlik cinslərdən olan qaramal kökəldilmədə südlük cinslərə nisbətən daha yüksək diri çəki artımı verirlər və onların ət çıxımı daha çox olur. Kökəldilən cavan heyvanlar 1,5-2,0 yaşadək kökəldilərək ətə verilməlidir. Bu yaşda onların əti zərif və dadlı olur.

Fermer təsərrüfatlarında ət istehsalını artırmaq üçün kökəldilmənin böyük əhəmiyyəti vardır. Kökəldilmiş heyvan əti, arıq heyvanın ətinə nisbətən daha qidalı olur. Məsələn, orta köklükdə kəsilmiş öküzün 1 kq ətinin enerji dəyəri 1080 kkal olduğu halda, kök öküzdə bu göstərici 1580 kkal təşkil edir. Eləcə də arıq buzovun 1kq ətinin qidalılığı 700 kkal-ə yaxın olduğu halda, kök buzovun ətinin qidalılığı 1140 kkal-dır.

Beləliklə, məlum olur ki, kökəlmə nəticəsində ətin kimyəvi tərkibi dəyişdiyindən onun kaloriliyi də yüksəlir. Bordaq dövründə cavan malın əti artdığı halda, yaşlı malın orqanizmində çoxlu miqdarda piy toplanır. Buna misal olaraq müxtəlif köklükdə qaramalın orqanizmində piyin mütləq və nisbi göstəriciləri ilə tanış olmaq kifayətdir (Cədvəl 1).

**Cədvəl 1.**
**Buğanın və buzovun bədənində piyin toplanması, %-lə**

| Bədən hissələri | Buğa | | Buzov |
|---|---|---|---|
| | Orta köklük | Yüksək köklük | Yüksək köklük |
| Ətdə | 2,0 | 14,7 | 5,5 |
| Böyrəkdə | 2,0 | 3,5 | 2,2 |
| Bağırsaqda | 2,3 | 4,5 | 2,4 |

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 325-329
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 325-329
DOI: https://doi.org/10.36719/2023/3/2

Kökəldilməyə adətən, yaşlı 1,0-1,5 olan cavan buğalar, (yaxud axtalar), yaşlı öküzlər, çıxdaş edilmiş inəklər və damazlıqda istifadə edilməyən dişi danalar qoyulur. Kökəldilən heyvanlar məhsuldarlığın istiqamətinə görə, südlük-ətlik və ətlik olur.

Kökəldilmədə heyvanların ət çıxarı da yüksəlir. Yəni yüksək köklük də olan heyvanlar kəsilərkən 55-60 %, orta köklükdə olan heyvanlar isə 46-50 % ət çıxarı verir. Ona görə də ət istehsalının artırılmasında və keyfiyyətinin yüksəldilməsində ətlik üçün ayrılmış cavan heyvanların kökəldilməsi çox vacibdir.

Heyvanların bağlı şəraitdə kökəldilməsinə bordaq, otlaq şəraitində kökəldilməsinə isə otlaq kökəldilməsi deyilir. Bordaq şəraitində kökəldilməyə 15-18 aylıq cavan heyvanlar və çıxdaş olunmuş yaşlı heyvanlar qoyulur. Bu zaman kökəltmə müddəti 3-4 ay davam edir. Kökəltməni hər bir fermer təsərrüfatında təşkil etmək olar.

Otlaq şəraitində kökəldilməyə isə 12 aylıqdan yuxarı cavanlar və çıxdaş olunmuş yaşlı heyvanlar qoyulur. Bu zaman kökəltmə müddəti 5-6 ay davam edir.

Cavanların düzgün böyüməsində yemləmənin xüsusi əhəmiyyəti vardır. Düzgün yemləmə isə onların diri çəkisi ilə sıx əlaqədardır. Buna görə də cavanlar, xüsusən də cins buzovların düzgün yemləndirilməsi, yəni onların çəkisindən və yaşından asılı olaraq tələb olunan miqdarda qida maddələri ilə zəngin olan tam dəyərli yem rasionları ilə yemləndirilməsi əsas şərtlərdən biridir.

Göründüyü kimi, buzovların diri çəkisi onların böyüməsini göstərən əsas əlamətlərdən biridir. Bunu nəzərə alıb təcrübə altında olan buzovların fərdi olaraq diri çəkisinin dəyişilməsini və gündəlik çəki artımını müəyyən etmək üçün onlar fərdi olaraq ayda bir dəfə qapanda (səhər tezdən ac qarnına) çəkilmişdir.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 325-329
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 325-329
DOI: https://doi.org/10.36719/2023/3/2

Heyvanların diri çəkisinin təyin etməyin ən düzgün üsulu onların tərəzidə (qapanda) çəkilməsidir. Təsərrüfatda tərəzi olmadıqda heyvanın çəkisini ölçülər vastəsilə də təyin etmək olar. Həmin ölçülər bir-birinə vurulub 50-yə bölünür. Hesablamanı asanlaşdırmaq üçün ölçülərin hasili 2 əmsalına (südlük mal üçün) vurularaq 100-ə bölünür. Alınan rəqəm heyvanın canlı kütləsini göstərir.

Kökəltmə üsulu ət məhsuluna verilən tələblərdən asılıdır. Müasir şəraitdə bu tələblər müxtəlifdir. Hazırda təsərrüfatlarda kökəltmənin aşağıdakı üsulları tətbiq edilir: pəhriz (dietik) buzov əti; çox zərif buzov əti; qidalılıq keyfiyyəti yüksək olan cavan mal əti (“Beybi-bif”) və süfrə əti almaq üçün aparılan kökəltmə.

Bu kökəltmələrin müddəti bir-birindən fərqlənir. Pəhriz buzov əti əldə etmək üçün buzovlar doğulan gündən 45-60 günlüyə qədər əsasən südlə kökəldilir, son mərhələdə isə onlara üzsüz süd və qüvvəli yemlər verilir.

Zərif buzov əti doğulan gündən 3-4 aylığa qədər aparılan kökəltmə nəticəsində əldə edilir. Bu kökəltmədə buzovlara 20 günlükdən başlayaraq üzsüz süd və qüvvəli yemlər verilir. Kökəldilmiş buzovların çəkisi 3-3,5 aylıqda 100-120 kq-a çatdırılır. Fransa təcrübəsinə görə buzovu 120 gün müddətində iki ana altında bəsləməklə bu keyfiyyətdə ət istehsal edilir.

“Beybi-bit” üsulunda ətlik cinslərin və onlardan alınan 6-8 aylıq mələzlərin kökəldilməsi 3-4 ay davam etdirilir. Heyvanların yem payı quru otdan (paxlalı və taxıl fəsiləsindən), kökü meyvəlilərdən və xüsusi olaraq hazırlanmış qarışıq yemlərdən tərtib edilir. Bu üsulla kökəltmə ABŞ, Cənubi Amerika, Avstraliya, Yeni-Zelandiya və s. ölkələrdə tətbiq edilir.

Respublikamızda və bir sıra xarici ölkələrdə süfrə ətinin əldə edilməsi məqsədilə cavan mal 18-20 aylığadək kökəltməklə istehsal edilir və həmin yaşda çəki 400-450 kq-a

çatdırılır. Bu iş intensiv təşkil edildikdə 14-18 aylıqda cavan malın diri çəkisi 400-480 kq-a çatdırılıb kəsilməyə göndərilir. Xalis ətlik istiqamətli təsərrüfatlarda cavan malı əvvəl otlaq şəraitində, sonra isə bordaq şəraitində bəsləyərək, onların diri çəkisi 2 yaşından 400-450 kq-a çatdırılır.

Dünyada tətbiq edilən intensiv texnoloji işlərinin nəticəsində kökəltmə müddətlərində xeyli dəyişiklik edilmişdir. Belə ki, pəyədə kökəltmə əvvəllər 90 gün davam etdirildiyi halda, hazırda bu müddət 50-60 günə qədər azaldılmışdır.

## Ədəbiyyat

1. Quliyev, S.M., Həsənov, R.Q., Məmmədov, M.Ə., Qurbanov, X.H., Zeynalov, H.Z. və b. (2008). Qaramalın və camışların yemlənməsi və bəslənməsi. Bakı.
2. Səttarov, C.X., Səttarov, B.C., Əbdürrəhmanov, V.M. (2010). Cavan iri buynuzlu heyvanların tam dəyərli yem rasionları ilə yemləndirilməsinə dair tövsiyyələr. Bakı.
3. Abdullayev, Q.Q., Əliyev, M.İ. (2012). Heyvandarlığın əsasları. Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 330-332
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 330-332
DOI: https://doi.org/10.36719/2023/3/2

**Gülbəniz Nəcəfova**
Azərbaycan Dövlət Aqrar Universiteti
necefova4660@gmail.com

# MÜXTƏLİF TAYLAŞDIRMADAN ASILI OLARAQ BATAQLIQ QUNDUZLARINDA (NUTRİYA) İRİ BALA VERMƏNİN ÖYRƏNİLMƏSİ

***Açar sözlər:*** *qunduz, müxtəlif, taylaşdırma, iri balavermə, böyümə, canlı kütləsi*

***Keywords:*** *beaver, variety, foaling, large cubs, growth, live mass*

Son zamanlar dünyada ərzaq qıtlığının hökm sürməsi və eləcə də heyvandarlığın bu əlverişli növünə iqtisadi xərclərin az olması və həvəsin artması ilə əlaqədar olaraq müxtəlif bölgələrdə qunduzçuluq inkişaf etməyə başlamışdır. Qunduzlar çox maraqlı heyvanlar olub, özünəməxsus bioloji və təsərrüfat xüsusiyyətlərinə malikdir. Qunduzlar gəmiricilər ailəsinin qunduz dəstəsinə aid edilirlər (Abdullayev, 2012: 269-276).

Bataqlıq qunduzu-nutriya (Myopotamus coypus Mol.) Cənubi Amerikadan Azərbaycana gətirilən heyvanlar içərisində daha çox iqlimləşmiş heyvan hesab edilir. Azərbaycanda təbii şəraitdə nutriyanı artlrmaq məqsədilə 1931-ci ildə 20 (10 erkək və 10 dişi), 1931-ci ildə isə 60 (30 erkək və 30 dişi) nutriya gətirilmiş və Masallı rayonunda çaya buraxılmışdır. Yenə həmin il 123 baş nutriya Ağstafa rayonunda olan qara suya buraxılmışdır. Nutriya su heyvanı olub, iri ev pişiyi boydadır. Çəkisi 8 kq-a çatır. Yuvalarını həm suda, həm də sahildə düzəldirlər. Sudakı yuvaları qamışdan və ot köklərindən hazırlayırlar. Sahillərdə isə ensiz çuxur eşirlər. Nutriya gecə və alatoranlıq həyatı sürən heyvandır (Sultanov, 2000: 30-44).

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 330-332
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 330-332
DOI: https://doi.org/10.36719/2023/3/2

Təbii şəraitdə nutriya, kökümsov gövdəli bitkilərin kök hissəsi, su qamışlarının gövdələri, kökləri və su bitkiləri ilə, qəfəs şəraitində isə qarğıdalı, arpa, kök, kələm, çuğundur və s. yemlərlə qidalanır. Cinsi yetişkənliyə 5 aylıqda çatır. Çoxalmaları bütün il boyu davam edir. Boğazlıq dövrü 130 gündür (Pereldik, 1987: 44-55).

Qunduzlar əsasən çay və göl sahillərində məskunlaşırlar. Ancaq əvvəlcə suyun axmaması üçün onu müəyyən yerdən kəsib gölcüklər yaradırlar. Bunu ona görə edirlər ki, su çoxalanda yuvalarını sel aparmasın. Gölcük tikmək üçün onlar iti dişləri ilə gəmirib ağacı yıxır, gölcüyün yan tərəflərini palçıqla suvayır, boş yerləri daşla doldururlar. Ağacın budaqlarından və yarpaqlarından isə kəsilmiş hissəsinin arxa ətrafında evciklərini tikirlər. Yuvalarına ancaq suyun altından yol qoyurlar. Qunduzlar Şimali Amerikada, Avropanın Asiyanın bəzi yerlərində yaşayırlar. Qunduzların bədəninin uzunluğu 1 metrə çatır. Çəkiləri 30-32 kq arasında dəyişir. Qunduzlar bitkilərlə qidalanırlar. Yazda və yayda yaşıl yarpaqlarla və dənli bitkilərlə, qışda isə ehtiyat üçün yayda topladıqları sünbüllərlə. Onlar ehtiyatlarını komalarının suyun altında saxlayır (Sultanov, 2000: 23).

Qeyd etmək istəyirəm ki, qunduzçuluğu respublikada inkişaf etdirmək iqtisadi cəhətdən çox faydalıdır. Qunduz müxtəlif rəngli, çox qiymətli xəz dəriyə malikdirlər. Belə ki, bu növ heyvanın xəzini xarici ölkələrə satərkən çoxlu miqdada qızıl əldə edilir. Qunduzun əti isə öz tərkibinə və zərifliyinə görə başqa növ heyvanlardan kəskin fərqlənir. Qunduz əti öz qidalılığı və dietik xassəsinə görə dovşan ətindən heç də geri qalmır. Bu növ heyvanların əti insanların qidalanmasında istifadə edilir. Hər bir heyvandan 2-3 kq dəfə ət almaq olur. Qunduz çox qiymətli heyvan olduğu üçün onun üzərində əsaslı seleksiya işlərinin aparılmasına maraq vardır. Bu cür səmərəli sahənin inkişafını təmin etmək üçün birinci növbədə bu

heyvanların balavermə xüsusiyyətini elmi əsaslarla təhlil etmək və bu xüsusiyyətə təsir göstərən amilləri aşkar etmək lazımdır.

Apardığımız tədqiqatdan aydın oldu ki, cavanların inkişafı adətən sıx surətdə böyümə ilə əlaqədardır. Onların iriliyi isə əsasən təsərrüfat əlamətidir. Eyni zamanda məlum oldu ki, doğulan balaların iriliyi anaların fizioloji vəziyyəti ilə daha çox əlaqədardır. Ana qunduzlar yaşa dolduqca onlardan alınmış balaların canlı kütləsi də çox olur. Belə ki, doğumdan alınmış balaların bir başının canlı kütləsi doğulduqda 187, ikinci doğumda 193, üçüncü doğumda 198, dördüncü doğumda 230 qr olmuşdur. Doğulmuş balaların böyümə dinamikasını öyrəndikdə məlum oldu ki, ən sürtəli böyümə 3-cü və 4-cü doğumlardan alınmış balalarda gəlir.

Məlum oldu ki, dişi qunduzlar maksimum balavermə xüsusiyyətinə 2-ci doğumda malik olurlar. Belə ki, bizim tədqiqatda cavan diri qunduzların 2-ci doğumda orta balavermə qabiliyyəti 4,96 baş olduğu halda, 1-ci doğumda 4,88, 3-cü doğumda 4,80 və 4-cü doğumda 3,80 baş olmuşdur.

4-cü doğumda ana qunduzların balavermə qabiliyyəti xeyli aşağı düşür. Bu, onların qocalmasl ilə əlaqədardır. Belə ki, tədqiqat üçün seçilmiş dişi qunduzların 1-ci, 2-ci, 3-cü doğumlarda orta balavermə qabiliyyəti sürünün orta balavermə qabiliyyətinə uyğun gəlməklə, öz analarının orta balavermə qabiliyyətindən xeyli 0,72 baş üstünlük təşkil edir.

## Ədəbiyyat

1. Abdullayev, Q., Əliyev, M. (2012). Heyvandarlığın əsasları. Bakı: “Elm və təhsil” nəşriyyatı.
2. Sultanov, R., Surxayev, S., Mahmudov, M. (2000). Xəz dərili vəhşi heyvanlar. Bakı: “Nərgiz” nəşriyyatı.
3. Pereldik, N. (1987). Xəz dərili heyvanların yemləndirilməsi. Moskva: “AST Nəşriyyatı”.
4. Sultanov, R. (2000). Zoologiya. Bakı.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 333-335
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 333-335
DOI: https://doi.org/10.36719/2023/3/2

## DƏQİQ ELMLƏR

## EXACT SCIENCES

**Vagif Ibrahimov**
Baku State University
Doctor of Physics and Mathematics
ibvag47@mail.ru
**Rakhshanda Seyidzade**
Baku State University
master student
raskhandaseyidzade@gmail.com

# ON A WAY FOR CONSTRUCTING METHODS WITH THE FRACTIONAL STEPS AND THEIR APPLICATIONS TO SOLVE ODES OF THE FIRST-ORDER

***Keywords:*** *Cauchy problem, ODEs, hybrid methods, irrational numbers, midpoint method*
***Açar sözlər:*** *Koşi problemi, ODE-lər, hibrid üsullar, irrasional ədədlər, orta nöqtə metodu*

As is well known, lately there has been an increase in the number of works devoted to the study the numerical solution of the Cauchy problem for ordinary differential equations. Among them, hybrid methods or methods built at the intersection of multistep and hybrid methods are popular (Mehdiyeva, Ibrahimov, 2013).

Note that each of these methods is an independent object for research. Therefore, in research methods built at the

junction of these methods, the methods used in the research of these methods are used.

At present, the midpoint method also applied to solve of integral and integro-differential equations. as well as to the calculation of certain integrals (Mehdiyeva, Ibrahimov, Imanova, 2019).

Similar methods were constructed and applied by Academician Yanenko to solve of various applied problems. Note that the indicated method in the middle of the 20th century was applied for solving the initial value problem for ordinary differential equations by Witger, a wellknown scientist in the field of the theory of Runge-Kutta methods). Here, in order to construct effective methods for solving the Cauchy problem for ordinary differential equations of any order, it is proposed to construct methods using solutions of the original problem at hybrid points having the following form

$x_i + v_i, ( |v_i| < 1; i = 0,1,2,\dots, k)$.

We consider the case when the quantıty $v$ are rational and irrational numbers. The problems constructed here were compared with popular methods widely used in solving models for various applied problems. Here it is shown that in some cases, when replacing irrational numbers $v_i$ by appropriate rational numbers, the exactness of the method decreases (Yanenko, 1967).

## References

1. Mehdiyeva, G.Yu., Ibrahimov, V.R. (2013). On the research of multi-step methods with constant coefficients. Monograph, Lambert. acad. publ., p.314.
2. Mehdiyeva, G.Yu., Ibrahimov, V.R., Imanova, M.N. (2019). On the construction of the advanced Hybrid Methods and

application to solving Volterra Integral Equation. WSEAS. Weak transactions on systems and control, V.14.
3. Yanenko, N.N. (1967). Metod drobnykh shagov resheniya mnogomernykh zadach matematicheskoy fiziki. Izdatel'stvo «Nauka»: Sibirskoye otdeleniye Novosibirsk.

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 336-338
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 336-338
DOI: https://doi.org/10.36719/2023/3/2

**Aytac Əşrəfova**
Lənkəran Dövlət Universiteti
magistrant
aytacashrafova1999@gmail.com

# QARŞI-QARŞIYA HƏRƏKƏTƏ AİD MƏSƏLƏLƏR

***Açar sözlər:*** *məsələ, zaman, kəmiyyət, məsafə, hərəkət, sürət, cism, yol*

***Keywords:*** *matter, time, quantity, distance, movement, speed, object, road*

Riyaziyyat ümumitəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdən biridir. Riyaziyyatın mahiyyəti, əsasən məsələlər və onların həllindən ibarət olur. Məsələyə geniş mənada tərif versək "Məsələ hər hansı bir işi həll etmək və yerinə yetirmək mənasında işlənir". Riyaziyyat fənninin effektivliyinin artırılması, məsələlərin düzgün seçilməsi və onların tədris olunan materialla əlaqələndirilməsindən çox asılıdır. Bir cismin başqa cismə nisbətən dəyişməsinə həmin cismin hərəkəti deyilir.

Aydındır ki, hərəkət, hərəkətin sürəti fizikanın ən mühüm anlayışlarından biri sayılır. I-IV siniflərdə riyaziyyat fənninin tədrisi prosesində hərəkətə aid məsələlərə mühüm yer verilir. Bu mövzu üzərində iş müəllimdən elmi və metodiki hazırlıq tələb edir.

Hərəkətə aid məsələlərdə 3 kəmiyyət vardır: sürət, vaxt və məsafə. Bu kəmiyyətlərdən ikisinin qiyməti məlum olduqda, üçüncü kəmiyyətin qiyməti $V$=S/t asılılığı əsasında tapılır. $S$ − yol, $V$ − sürət, $t$ − zaman qəbul edək. İbtidai siniflərdə həll edilən məsələlərdən ən çətini hərəkətə aid məsələlərdir. Çünki məsələlərdə obyektlərin sürətləri eyni və ya müxtəlif ola bilər, hərəkətə başlama vaxtları eyni və ya müxtəlif ola bilər, hərəkət

istiqamətləri qarşı-qarşıya, eyni istiqamətdə və ya əks istiqamətdə ola bilər.

Hərəkətə aid məslələrin 3 növü vardır:

1. Qarşı-qarşıya hərəkətə aid məsələlər;
2. Eyni istiqamətdə hərəkətə aid məsələlər;
3. Əks istiqamətdə hərəkətə aid məsələlər.

Eyni zamanda qarşı-qarşıya hərəkətə aid məsələlərin də öz növbəsində 2 növü vardır:

1. Cisimlər ayrı-ayrı məntəqələrdən müxtəlif saatlarda qarşı-qarşıya hərəkət edir və eyni zamanda dayanır.
2. Cisimlər ayrı-ayrı məntəqələrdən eyni vaxtda qarşı-qarşıya hərəkət edir.

Aşağıdakı qarşı-qarşıya hərəkətə aid məsələyə nəzər salaq.

Aralarındakı məsafə 900 km olan iki məntəqədən eyni zamanda iki avtobus yola düşdü. Birinci avtobusun sürəti saatda 80 km, ikincinin sürəti isə saatda 70 km olarsa, bu avtobuslar neçə saatdan sonra görüşəcəklər?

Məsələnin planlı həlli:

1. Saatda yolun neçə km-i qədər avtobuslar bir-birinə yaxınlaşırlar?
   80+70=150 (km)
2. Neçə saatdan sonra avtobuslar görüşəcək?
   900:150=6 (saat)

Cavab: Avtobuslar 6 saatdan sonra görüşəcək.

Qeyd edək ki, qarşı-qarşıya aid olan məsələlərdən əvvəlcə iki obyektin sürətləri bərabər olan hala baxılmalıdır. Müəllim bu növlə uşaqları praktik olaraq izah edərək tanış etməlidir. Sinif şəraitində hərəkət edən maketlərdən, sinifdənxaric şəraitdə isə 2 piyadanın hərəkətini nümunə göstərmək olar. Bildirmək lazımdır ki, ibtidai sinifdə öyrədilən hər bir kəmiyyətin ölçü vahidləri vardır. Hərəkətə aid məsələlərin həllində anlayışların simvolik yazılışlarına xüsusi diqqət

ELMİ ARAŞDIRMALAR / Tezislər toplusu / Cild: 3 Sayı: 2 / 336-338
SCIENTIFIC RESEARCH / Collection of theses / Volume: 3 Issue: 2 / 336-338
DOI: https://doi.org/10.36719/2023/3/2

ayırmaq lazımdır ki, ibtidai siniflərdə öyrədilən biliklər yuxarı siniflərdə öz inkişafını tapa bilsin.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Səlbinə Hətəmli**
Təhsilin idarə olunmasının əsasları ........................................7
**Maral Gasimova, Vafa Mukhtarova**
Metaphor in language style ..................................................10
**Simnar Pashazade**
The benefits of implementation of international financial reporting standards (ifrs) on attracting foreign capital ...........13
**Elvira Yusifova**
Vətəndaşların müstəsna hüququ olan qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi ................................17
**Nübubət Adıgözəlova, Samirə Qurbanova**
Uilyam Şekspir və onun ingilis dilində yaratdığı neologizmlərin struktur-semantik xüsusiyyətləri ....................20
**Elvin Şirinov**
Birləşmiş Millətlər Təşkilatının formalaşması ........................24
**Arif Məmmədli**
Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məsələləri ..............................................................................28
**Əli Cəfərov**
Azərbaycanda biznes mühitinin iqtisadi artıma təsir mexanizmi .......................................................................32
**Əli İsmayılov**
Vergi nəzarətinin zəruriliyi və dövlət idarəetməsində rolu ...........................................................................................37
**Yusif Abbaszadə**
Təqvim tarixini miqdar göstərən ədədə və əksinə çevirməni tələb edən məsələlər haqqında ....................43

**Vüqar Seyidzadə**
İnflyasiyanın idarə olunmasında maliyyə
menecmentinin əhəmiyyəti ....................................................46
**Toğrul Hüseynov**
Büdcə daxilolmalarında vergitutma və auditin inkişaf
istiqamətləri ............................................................................50
**Şəbnəm Rüstəmli, Səbinə Orucova, Elçin Həsənov**
İqtisadi informasiya sistemində informasiya təminatının
tərkibi və məzmunu ...............................................................54
**Rahid Bağırzadə**
Turizm sahəsində innovativ fəaliyyətlər:
mahiyyəti və spesifikliyi ........................................................58
**Nigar Əsgərzadə**
Azərbaycanda innovasiya təyinatlı iqtisadiyyatın
formalaşdırılması ...................................................................62
**Məhəbbət İmanov**
Biznesdə vergi nəzarəti mexanizmlərinin
təkmilləşdirilməsi ...................................................................66
**Hikmat Allahverdiyev**
Incident response: problems and approaches .........................71
**Elnur Məmmədov**
Müasir şəraitdə Azərbaycanda bank sisteminin
formalaşması xüsusiyyətləri ..................................................73
**Kəmalə Səfərova**
Azərbaycan tarixinin tədrisində elmi dünyagörüşün
tədrisi yolları və vasitələri ......................................................78
**Afər Sədullayev**
İşgüzar aktivliyin mövcud vəziyyətinin təhlilinin
təkmilləşdirilməsi istiqamətləri ..............................................81
**Aliyə Xəlilova**
Dövlət-özəl əməkdaşlığının idarə edilməsi və
qiymətləndirilməsi ..................................................................85

**Aygül Elxanlı**
Otel sahəsində idarəetmə uçotunun aparılması və auditin qiymətləndirilməsi ....................................................88
**Aysel İlyazzadə**
Strateji inkişafın planlaşdırılmasının informasiya təminatının təkmilləşdirilməsi istiqamətləri ..........................92
**Ayxan Orucov**
Vergi mühitinin cəlbediciliyinin artırılması istiqamətləri və onların həyata keçirilməsi tədbirləri ................................96
**Bənövşə İbrahimova**
Azərbaycan Respublikasında rəqabət və antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsinin əsas istiqamətləri ............................................................................100
**Böyükkişi Səfərov**
Likvidliyin audit qiymətləndirilməsi prosedurlarının təkmilləşdirilməsi istiqamətləri .............................................105
**Cəmilə Məmmədli**
E-mühasibatın tətbiqi istiqamətləri .......................................109
**Əjdər Məmmədzadə**
Daxili auditin təşkilati-metodiki təminatının təkmilləşdirilməsi istiqamətləri .............................................113
**Elçin Kalbalıyev**
İnnovasiya potensialının yüksəldilməsində mövcud imkanlardan istifadənin genişləndirilməsi perspektivləri ......................................................................117
**Eldar Həmzəyev**
Rəqəmsallaşma şəraitində idarəetmə hesabatının təkmilləşdirilməsi istiqamətləri .............................................121
**Rəşad Əliyev**
Nəqliyyat xidmətləri bazarının fəaliyyət istiqamətləri .........125
**Elnur Bağırov**
Maliyyə resurslarının səmərəli istifadəsinin audit fəaliyyətinin qiymətləndirilməsi ..................................129

**Elnur Cəfərli**
Yerli özünüidarəetmə orqanlarında uğurlu
kadr təminatı ........................................................................133
**Eltun Niftəlizadə**
Maya dəyərinin kalkulyasiyasının təkmilləşdirilməsi
istiqamətləri ...........................................................................136
**Elvin Fətəliyev**
İnfrastruktur turizm xidmətləri bazarının formalaşmasının
əsası kimi ..............................................................................140
**Emil Baxşiyev**
İdman turizminin daxili və beynəlxalq bazarlarda
təşviqi üçün metodiki tövsiyələr ..........................................144
**Orxan Əsgərov**
Regional turizmin inkişafının prioritet istiqamətləri .............148
**Elmin Əzizov**
Vergi siyasətinin formalaşdırılmasında büdcə gəlirlərinin
rolunun qiymətləndirilməsi ..................................................151
**Fərid Qafarlı**
Maliyyə hesabatlarının tərtibinin təkmilləşdirilməsi ............155
**Gülarə Həsənova**
Şərqi Zəngəzur iqtisadi rayonunun ixrac potensialının
artırılması mexanizmi ..........................................................158
**Həsən Əliyev**
İşğaldan azad olunmuş ərazilərdə kiçik və
orta sahibkarlığın inkişafının maliyyə təminatı
mexanizminin təkmilləşdirilməsi .........................................161
**Hüseyn Həsənli**
İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi
perspektivləri ........................................................................165
**Hüseyn Məmmədov**
Debitor borcların uçotu, nəzarəti və səmərəliliyin audit
qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətləri ........168
**İbrahim Cəbrayılzadə**
İdarəetmə uçotu və idarəetmə hesabatlılığının
təkmilləşdirilməsi istiqamətləri ............................................173

**İbrahim Quluyev**
Ədalətli vergi sistemi və ona təsir edən amillər ....................177
**İradə Ağazadə**
Məsrəflərin uçotu və auditin təkmilləşdirilməsi
istiqamətləri ........................................................................181
**Jalə Alməmmədova**
İşğaldan azad olunmuş ərazilərdə sənaye istehsalının
inkişaf istiqamətləri ............................................................185
**Mirsəid Mirizadə**
Bələdiyyə müəssisələrinin maliyyə-iqtisadi
təminatı kimi yerli vergilər və digər ödənişlərin
qiymətləndirilməsi məsələləri ..............................................189
**Murad İmamhüseynov**
Qeyri-formal məşğulluğun leqallaşdırılması ........................192
**Murad Qürbətov**
İşğaldan azad olunmuş rayonlarda vergitutma
mexanizminin tətbiqi məsələləri ...........................................195
**Orxan Nağıyev**
İstehsalın iqtisadi səmərəliliyinin mahiyyəti və meyarı ........199
**Nicat Mikayılov**
İnsan kapitalının inkişafında ali təhsilin rolunun
qiymətləndirilməsi ...............................................................203
**Nicat Sətdarov**
Kiçik və orta sahibkarlıq müəssisələrində hesabatlılıq
sisteminin təkmilləşdirilməsi istiqamətləri ...........................207
**Nigar Rəcəbli**
Yeyinti sahəsində dövlət tənzimləməsinin istiqamətləri .......210
**Murad Orucov**
“Bank of Baku”nun kredit əməliyyatlarının təhlili ………...213
**Qabil Həmidli**
Sənaye müəssisələrinin strateji idarəetməsində
balanslaşdırılmış göstəricilər sisteminin tətbiqinin
mövcud vəziyyətinin qiymətləndirilməsi ..............................217

**Cavid Qasımov**
Azərbaycanın inteqrasiya proseslərində iştirakının təkmilləşdirilməsi istiqamətləri ............................................220
**Ravi Ağamaliyev**
"Azərsun Holding" MMC-də hesabatlılığın səmərəliliyinin yüksəldilməsi istiqamətləri ..........................223
**Rəşad Vəliyev**
Sənaye parklarının mahiyyəti, nəzəri anlayışı və elmi əsasları ..................................................................226
**Rüfət İslamzadə**
Milli iqtisadiyyatın və xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılması problemləri ...............................230
**Ruslan Səmədov**
Azərbaycanda texnoparkların sosial-iqtisadi inkişafa təsiri ...................................................................234
**Rüstəm Rüstəmli**
Kənd turizmində rəqəmsal texnologiyaların tətbiqinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi ...............240
**Şahin Alxasov**
Azərbaycanda sahibkarlıq fəaliyyətinin hüquqi bazasının tənzimlənməsinin təkmilləşdirilməsi ...................................244
**Səadət Beydullayeva**
Azərbaycanda aqrar siyasətin yeni mərhələsi .......................247
**Səbinə Məhərrəmova**
Sığorta şirkətlərində daxili audit keyfiyyətinin qiymətləndirilməsi .......................................................251
**Sərraf Babayev**
Pul vəsaitlərinin səmərəli istifadəsinin təkmilləşdirilməsi istiqamətləri ..................................................................255
**Sərxan Hacıyev**
Xərclərin strateji idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri ..................................................................259
**Sübhan İsayev**
İnvestisiya qoyuluşlarının uçotu və təhlili metodikasının təkmilləşdirilməsi .........................................263

**Taleh Mütəllimov**
Elektrikli avtomobillərin istifadəsi və təkmilləşdirilməsi .....267
**Tamam Atayeva**
Müəssisələrdə innovasiya texnologiyalarının
artırılması və perspektiv inkişafı ..........................................271
**Ülvi Həsənov**
Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında
təsərrüfatdaxili nəzarət .........................................................273
**Vasif Abdullayev**
Müəssisənin maliyyə nəticələrinin uçotunun
nəzəri əsasları .......................................................................278
**Venera Cəfərli**
İnnovasiya fəaliyyətinin müəssisənin inkişafında rolu .........282
**Nərmin Xanlarzadə**
Sahibkarlığın innovasiya-investisiya infrastrukturu .............285
**Xəlil Məmmədov**
İdarəetmə hesabatı və səmərəliliyinin yüksəldilməsi
istiqamətləri ..........................................................................290
**Zirəddin Məmmədov**
İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq sahəsində
vergi menecmentinin təkmilləşdirilməsi istiqamətləri .........294
**Zülqədər Zürqədərli**
Azərbaycanda vergi nəzarətinin təkmilləşdirilməsi .............298
**Peyman Muradlı**
Azərbaycanda turizmin sosial-iqtisadi səmərəsinin
yüksəldilməsi yolları ......................................................... 303
**Baloğlan Məmmədov**
Marketinq-kommunikasiya sisteminin mövcud
vəziyyətinin təhlili ...............................................................308
**Vüsal Səttarov**
Kommersiya banklarında maliyyə nəzarətinin
səmərəliliyinin yüksəldilməsi yolları ..................................313

**İmdad Kərimli**
“Cəmiyyətin formalaşmasında animasiya
filmlərinin rolu” ....................................................................318

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Ramiz Məmmədov, Emil Fətullayev**
Gəncə-Qazax dağətəyi düzənliyində yeraltı suların
hidrodinamik xüsusiyyətləri (Zəyəmçayın gətirmə
konusu timsalında) ..............................................................321
**Südabə Yusubova**
Respublikamızda yetişdirilən qaramalların
kökəldilməsi üsulları ............................................................325
**Gülbəniz Nəcəfova**
Müxtəlif taylaşdırmadan asılı olaraq bataqlıq qunduzlarında
(nutriya) iri bala vermənin öyrənilməsi ................................330

## DƏQİQ ELMLƏR

## EXACT SCIENCES

**Vagif Ibrahimov, Rakhshanda Seyidzade**
On a way for constructing methods with the
fractional steps and their applications to solve
odes of the first-order ..........................................................333
**Aytac Əşrəfova**
Qarşı-qarşıya hərəkətə aid məsələlər ....................................336

İmzalandı: 02.05.2023
Formatı: 60/84, 1/16
H/n həcmi: 21,75 ç.v.
Sifariş: 635

---

https://aem.az saytında çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az